Xalqın qəzeti!

# Xalq qəzeti

№ 283 (30399) 26 dekabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Ağdam – azad Qarabağın ağ şəhəri**

## “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” milli prioritetdir

*Bu yöndə uğurlar Azərbaycana COP29-a evsahibliyi hüququ qazandırıb*



**Prezident İlham Əliyevin ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncamında Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunub. Sənəddə, eyni zamanda, respublikamızın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən birinin “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyənləşdirildiyi bildirilib.**

Həmin prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Adıçəkilən sərəncamda Azərbaycanın baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını, bundan başqa elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəf kimi götürdüyü, işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Naxçıvan Muxtar Respublikasının “yaşıl enerji zonası” elan olunduğu bir daha xatırladılıb.

*(ardı 10-cu səhifədə)*

## Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

## “AzərEnerji” ASC-nin 110/35/10 kV-luq “Ağdam” qovşaq yarımstansiyasının açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Ağdam” qovşaq yarımstansiyasının açılışında iştirak edib.

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Ağdam rayonunun Xocalı rayonu ilə sərhədində yerləşən Şelli kəndi ərazisində “AzərEnerji” tərəfindən 110/35/10 kV-luq “Ağdam” qovşaq yarımstansiyası inşa edilib. “Ağdam” qovşaq yarımstansiyasına “Ağdam-1” yarımstansiyasından 10 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq ötürmə xətti və bu xəttin üstündəki ildırımötürücü trosun içində 24 damarlı fiberoptik kabel xətti çəkilib.

Qeyd olunub ki, bu yarımstansiyanın Ağdamın Xocalı ilə sərhədində tikilməsinin xüsusi əhəmiyyəti vardır. Yəni, “Ağdam” qovşaq yarımstansiyası rayonun bəzi kəndləri ilə yanaşı, əsasən Xocalı, Əsgəran, Xocavənd, Ağdərə və Xankəndini ölkə enerjisisteminə qoşmaqla bərabər, həmçinin ehtiyat qida mənbəyi kimi regionun enerji təchizatında etibarlılığı təmin edir. Bunun üçün yarımstansiyada ehtiyat yuvalar da quraşdırılmışdı. Regionda suverenliyimiz bərpa olunduğundan yaxın vaxtlarda “Ağdam” qovşaq yarımstansiyasından Xankəndiyə 110 kilovoltluq ötürmə xətti çəkilərək 110/35/10 kilovoltluq “Şuşa” və “Füzuli” yarımstansiyaları ilə əlaqələndiriləcək. Bununla da ikitərəfli elektrik təchizatına nail olunacaq. Eyni zamanda, Xocalı, Əsgəran və digər kənd və qəsəbələrin 35 kV-luq elektrik təchizatı da “Ağdam” qovşaq yarımstansiyasından təmin ediləcək.

“Ağdam” qovşaq yarımstansiyasında 110 kV-luq açıq paylayıcı qurğu yaradılıb və açarların, ayırıcıların və digər texniki avadanlıqların açılıb-qoşulması, o cümlədən, aktivlərin, proseslərin, resursların idarə edilməsi, qüsurların təcili aradan qaldırılması və başqa əməliyyatların proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin edilib. Yarımstansiyanın yeni tikilən İdarəetmə Mərkəzində isə 35 və 10 kV-luq rəqəmsal qapalı paylayıcı qurğular yerləşdirilib. Bununla yanaşı, Mərkəz əks-qəza avtomatikası, mikroprosessor tipli rele mühafizəsi, avtomatika və idarəetmə panelləri, sabit və dəyişən cərəyan qurğuları ilə təmin edilib. Yarımstansiyada müasir tələblərə cavab verən mikro SCADA sistemi yaradılıb və “AzərEnerji”nin mərkəzi SCADA sistemi ilə sinxronlaşdırılıb.

Dövlətimizin başçısı “Ağdam” qovşaq yarımstansiyasını işə saldı.

Qeyd edək ki, buna qədər 2022-ci il fevralın 13-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə “AzərEnerji”nin yeni tikilən 110/35/10 kV-luq “Ağdam-1” yarımstansiyası və onun yaxınlığında tikilən “Qarabağ” Regional Rəqəmsal İdarəetmə Mərkəzi istismara verilib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib.**

Paylaşımda deyilir: “Doğum gününüz mübarək, cənab Prezident! Sizə möhkəm cansağlığı, sevinc və nur, uğur və qələbələrlə dolu uzun ömür arzulayıram! Tanrı Sizə güc və səbir versin! Biz Sizinlə fəxr edir və Sizi çox sevirik! Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!”.

## Prezident İlham Əliyev “2024 – Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “2024 – Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

**Həmin paylaşımı təqdim edirik.**




## Yeni təhlükəsizlik arxitekturası: dünya nizamının böhranı və xilası

**III hissə**

### Regional inteqrasiya: yeni təhlükəsizlik sisteminin baza faktoru kimi



Yeni təhlükəsizlik arxitekturası ilə bağlı dərc olunan öncəki iki məqalədə başlıca tezis qlobal təhlükəsizlik sisteminin formalaşması prosesinin artıq geridönməz xarakter aldığını göstərməklə bağlı idi. Həmin kontekstdə regional miqyasda geosiyasi, siyasi, iqtisadi, mədəni, energetik, nəqliyyat, loqistika, informasiya, ekologiya və sair sferalar səviyyəsində gedən inteqrasiya proseslərinin və regional geosiyasi oyunçu olmağın vacib şərtlərinin təhlükəsizliyin arxitekturasında yeri və rolu məsələsinin aktuallaşdığını vurğulamışıq.

Nəhayət, bu kimi araşdırmanı aparmaqla, başlıca məqsədimizin Azərbaycanın regional geosiyasi oyunçu kimi xarakterik parametrlərini müəyyən etməkdən və ölkəmizin qlobal təhlükəsizlik arxitekturasının yaradılmasında oynadığı rolu təhlil etməkdən ibarət olduğunu bir daha ifadə etmək istərdik. Bu təhlil fəlsəfə ilə politologiyanın “ortaq idraki kəsişmə sahəsi”ndə aparılır. Təhlil regional və qlobal məkanlara özünütəşkil edən mürəkkəb sistem kimi yanaşma əsasında həyata keçirilir. Buna elmdə sinergetik yanaşma da deyirlər.

*(ardı 11-ci səhifədə)*

## Anti-Paşinyan koalisiyası: fiaskodan-fiaskoya



**Nikol Paşinyanın əleyhinə etirazlar Azərbaycan Ordusunun lokal xarakterli antiterror tədbirləri keçirməsindən sonra geniş vüsət aldı. Düzdür, ona qədər də İrəvanda müxtəlif etiraz aksiyaları, nümayişlər keçirilir, istefa tələbləri səsləndirilirdi. Hətta aksiya iştirakçılarına qarşı polisin qəddar davranışı da olurdu.**

Amma bu zaman özünü insan hüquqlarının müdafiəçisi kimi qələmə verən beynəlxalq QHT-lər susurdular. Əslində, susqunluq Ermənistanın baş nazirinin hakimiyyətini qorumağa xidmət edir, bütün imkan və resurslarla Paşinyan iqtidarının himayə edilməsi anlamına gəlirdi. Axı Paşinyanın hakimiyyətini itirməsi Qərbin məlum güclərinin də itirməsi deməkdir. Söhbət Cənubi Qafqaz platformasındakı qlobal maraq və mənafe davasındakı itirmədən gedir.

*(ardı 11-ci səhifədə)*

# Ağdam: dördüncü yaşayış kompleksinin təməli qoyuldu





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq dördüncü yaşayış kompleksinin təməlinin qoyulması mərasimində də iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumi sahəsi 137 min kvadratmetr təşkil edən 1080, o cümlədən, 36 birotaqlı, 363 ikiotaqlı, 484 üçotaqlı, 197 dördotaqlı mənzil olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Qeyd edildi ki, yaşayış kompleksindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Kompleksdə, həmçinin idman meydançaları, istirahət guşələri, uşaq oyun meydançaları, velosiped yolları və avtomobil dayanacaqları yaradılacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlini qoydu.

# Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdamın tarixi “İmarət” kompleksində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində “İmarət” Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar – İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi “İmarət” Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılıb. Kompleksin bərpası ilə bağlı xarici mütəxəssislər tərəfindən hazırlanmış konsepsiya 2022-ci il oktyabrın 4-də dövlətimizin başçısına təqdim olunub və işlərə başlanılıb. Konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət olacaq, xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Xarici mütəxəssislərin Ağdama səfərləri çərçivəsində sahənin inspeksiyası və çəkilişləri aparılıb, arxiv materialları araşdırılıb, beynəlxalq təcrübəyə əsaslanaraq bərpa və dizayn layihələri hazırlanıb. Kompleks, ümumilikdə, 3,3 hektar ərazini əhatə edəcək.

“İmarət” Kompleksindəki tarixi qəbiristanlıqda mövcud beş türbə qalığı tədqiqat sahəsinə daxil edilib. Türbələrin içi və ətrafı erməni işğalçılarının bu abidələrin daxilində qurduğu donuzçuluq təsərrüfatının tullantılarından və digər qalıqlardan təmizlənib.

Tədqiqat nəticəsində burada çox sayda müsəlman qəbirləri, daş abidələrin fraqmentləri – başdaşıları, sinədaşıları, antik dövr sütun bazası, antropomorf büt aşkarlanıb. Ərazidə xüsusilə kəllə və alt çənə sümükləri, çox sayda insan skeletinin fraqmentləri tapılıb. Onların arasında xan nəslinə aid olan qədim sərdabə tipli qəbirlər də yer alıb. Burada sovet dövründə dəfn edilənlərin qəbirlərinin böyük bir hissəsi vandalizmə məruz qalıb. Ərazidə aşkarlanan sümüklərdən DNT nümunələri götürülüb, qəbirlərin identifikasiyası üzərində araşdırmalar davam etdirilir.

Erməni işğalçılar tərəfindən məzarların sinədaşı və başdaşıları sındırılıb, bir çoxu müxtəlif məqsədlə istifadə üçün qəbiristanlıq ərazisindən çıxarılıb.

Kompleksin ərazisində arxeoloji tədqiqatların aparılması məqsədilə AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu bu ilin aprelində Ağdam şəhərinə mütəxəssislərdən ibarət elmi ekspedisiya göndərib. Tədqiqatlar zamanı tapıntıların foto və videoçəkilişləri həm fotoaparat, həm də kvadrokopterlə aparılıb. Tədqiqatlar nəticəsində müəyyən edilib ki, “İmarət” Kompleksinə aid olan tarixi qəbiristanlığın ərazisi 6 min kvadratmetrdir. Cari ilin sonunadək kompleksin ərazisindəki tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işlərinin birinci mərhələsi yekunlaşacaq. Burada tədqiqat işlərinin ikinci mərhələsinə başlanılacaq.

Kompleksin tam bərpası üçün vəsaitin Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.

# Ağdam: beşinci yaşayış kompleksinə də start verildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq beşinci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 12 hektar olan yaşayış kompleksinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Kompleks şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumilikdə 1115 mənzil olacaq. Mənzillərdən 25-nin birotaqlı, 314-nün ikiotaqlı, 552-sinin üçotaqlı, 224-nün isə dördotaqlı olacaq.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Qeyd edildi ki, kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə ediləcək.

Dövlətimizin başçısı Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməlini qoydu.

# Ağdam şəhər Mərkəzi parkında ilk ağac əkildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdam şəhər Mərkəzi parkının təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verildi.

İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulması ilə yanaşı, həmin yerlərdə ekoloji tarazlığın bərpası, yeni yaşıllıq sahələrinin və parkların salınması istiqamətində də ciddi addımlar atılır.

Ağdam şəhərinin yeni Baş planına əsasən salınacaq park 5 hektar ərazini əhatə edəcək. Parkın layihəsi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri nəzərə alınmaqla hazırlanıb.

Mərkəzi parkın ümumi ərazisi dörd zonaya ayrılacaq. Şəhər meydanı, Botanika bağı, Çəmənlik və Meşəlik zonalarında mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaq. Burada, həmçinin su oyun zonaları, çay evləri, istirahət və iaşə obyektləri, mədəni və öyrədici meydançalar, təhsil və sağlamlıq sahələri və aktiv oyun zonaları fəaliyyət göstərəcək. Müxtəlif ağac növlərinin və dekorativ kolların əkiləcəyi Ağdam şəhər Mərkəzi parkında istirahət etmək, idmanla məşğul olmaq istəyənlər üçün hər cür şərait yaradılacaq.

Parkın salınması ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verməklə yanaşı, həm Ağdam sakinlərinin, həm də şəhərin qonaqlarının, turistlərin istirahəti üçün ən gözəl məkanlardan birinə çevriləcək.

Prezident İlham Əliyev Ağdam şəhər Mərkəzi parkının təməlini qoydu.

Sonra dövlətimizin başçısı və birinci xanım Mərkəzi parkın ərazisində ağac əkdilər.

# Ağdam şəhərinin daxili yolları yenidən qurulur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanış olub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

Qeyd edildi ki, magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

# Xaçınçay Su Anbarı torpaqlarımıza bolluq, bərəkət gətirəcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər.**

Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, Xaçınçay su anbarının 7 kilometr uzunluğunda kanalla birlikdə təmiri və bərpası aparılıb.

Ağdam rayonu ərazisində yerləşən Xaçınçay su anbarı 1964-cü ildə istismara verilib. Anbarın ümumi su tutumu 23 milyon kubmetr, bəndin hündürlüyü 44 metr, uzunluğu 940 metr, su səthinin güzgü sahəsi isə 176 hektar təşkil edir. Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan bu mənbədən, ümumilikdə, suvarılan 7 min hektar torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva su anbarında görülən işləri əks etdirən videoçarxa baxdılar.

Dövlətimizin başçısı Xaçınçay su anbarını işə saldı.

Qeyd edildi ki, texniki sxemlə Xaçınçay su anbarına daxil olan sular tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 3,2 kubmetr olan əsas magistral kanala ötürülür. Kanalın başlanğıc 6,64 kilometr hissəsi də bəndlə bərabər təmir və bərpa olunub. Su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilib.

# Qiyaslı kəndində 5 minədək sakin məskunlaşacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Qiyaslı kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 400 hektara yaxındır. Qiyaslı kəndində 4 min 972 nəfərin məskunlaşması planlaşdırılıb. Kənddə, ümumilikdə, 1323 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 145 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2 min 546 nəfərin köçürülməsi üçün 656 fərdi ev tikiləcək.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə işlə təmin olunacaqlar.

Qiyaslı kəndində 540 şagird yerlik məktəb, 180 yerlik isə iki uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev Qiyaslı kəndinin təməlini qoydu.

# Salahlı Kəngərli kəndinin tarixi siması müasirliklə qovuşacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 178 hektara yaxındır. Salahlı Kəngərli kəndində 1376 nəfərin məskunlaşması nəzərdə tutulub. Layihə üzrə kənddə, ümumilikdə, 418 fərdi ev tikiləcək.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 99 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 850 nəfərin köçürülməsi üçün 150 fərdi evin tikilməsi planlaşdırılır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali müxtəlif təyinatlı obyektlərdə və kənd təsərrüfatı sahələrində işlə təmin olunacaqlar.

Salahlı Kəngərli kəndində 480 şagird yerlik məktəb, 80 yerlik isə uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Salahlı Kəngərli kəndinin təməlini qoydu.

# Bərdə–Ağdam avtomobil yolu Qarabağın şah damarıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə–Ağdam avtomobil yolunun açılışında iştirak edib.**

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə–Ağdam avtomobil yolunun təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilib.

Bərdə–Ağdam avtomobil yolunun 25-ci və 40-cı kilometrlik hissələrində 91,3 metr və 18,2 metr uzunluğunda avtomobil körpülərinin, yolun 14-cü və 42-ci kilometrlik hissələrində isə 66 metr və 43 metr uzunluğunda yol qovşaqlarının və 4-cü, 14-cü və 16-cı kilometrlik hissələrində yerüstü piyada keçidlərinin tikintisi uğurla icra olunub. Nəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün yolboyu üfüqi nişanlanma xətlərinin çəkilişi, yol nişanlarının və məsafə göstəricilərinin, həmçinin müasir məlumatverici lövhələrin quraşdırılması işləri icra olunmaqla yol beynəlxalq standartlar çərçivəsində istifadəyə verilib.





Qeyd edək ki, Bərdə–Ağdam avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən həmin rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

# Yeni Baş Qərvənd daha abad və böyük olacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Baş Qərvənd kəndinin təməlqoyma mərasimində iştirak edib.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 476 hektardır. Kənddə 6057 nəfərin məskunlaşması və ümumilikdə, 1495 fərdi evin tikilməsi nəzərdə tutulub.

Layihənin birinci mərhələsi üçün 202 hektardan çox torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 851 ailənin – 3703 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün bu mərhələdə 851 ev inşa ediləcək. Bu evlərin 170-i ikiotaqlı, 425-i üçotaqlı, 213-ü dördotaqlı, 43-ü isə beşotaqlı olacaq.

Prezident İlham Əliyev görüləcək işlər barədə videoçarxa baxdı.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada uşaq bağçası, məktəb, kollec binaları, kollektiv istirahət və təhsil obyektləri, inzibati bina, klub icma mərkəzi, tibb məntəqəsi, aptek, mehmanxana, bazar və bir sıra xidmət müəssisələri yaradılacaq. Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev Baş Qərvənd kəndinin təməlini qoydu.

***AZƏRTAC***

## Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## “İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin gəlir və xərclərini dürüstləşdirmək məqsədilə **qərara alıram:**

“İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1459) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1-ci bəndin “Məbləğ (manatla)” sütununda “2.241.239.633,0” rəqəmləri “2.301.959.633,0” rəqəmləri ilə əvəz edilsin.

**2.** 3.1.4-cü yarımbənd üzrə:

2.1. “Məbləğ (manatla)” sütununda “1.803.778.570,0” rəqəmləri “1.873 778.570,0” rəqəmləri ilə əvəz edilsin;

2.2..1-ci abzasın “Məbləğ (manatla)” sütununda “1.653.778.570,0” rəqəmləri “1.625.778.570,0” rəqəmləri ilə əvəz edilsin;

2.3..2-ci abzasın “Məbləğ (manatla)” sütununda “150ş000.000,0” rəqəmləri “248.000.000,0” rəqəmləri ilə əvəz edilsin.

**3.** 3.1.6-cı yarımbənd üzrə:

3.1..“Məbləğ (manatla)” sütununda “174.809.683,0” rəqəmləri “165.529.683,0” rəqəmləri ilə əvəz edilsin;

3.2. 2-ci abzasın “Məbləğ (manatla)” sütununda “4.000.000,0” rəqəmləri “2.720.000,0” rəqəmləri ilə əvəz edilsin;

3.3..3-cü abzasın “Məbləğ (manatla)” sütununda “50.000.000,0” rəqəmləri “30.000.000,0” rəqəmləri ilə əvəz edilsin;

3.4..4-cü abzasın “Məbləğ (manatla)” sütununda “40.000.000,0” rəqəmləri “55.000.000,0” rəqəmləri ilə əvəz edilsin;

3.5. 7-ci abzasın “Məbləğ (manatla)” sütununda “10.000.000,0” rəqəmləri “7.000.000,0” rəqəmləri ilə əvəz edilsin.

**4.** 3.3-cü bəndin “Məbləğ (manatla)” sütununda “70.000.000,0” rəqəmləri “9.280.000,0” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliyini ifadə edib, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

*

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Vladimir Putin Azərbaycan Prezidentini ad günü münasibətilə təbrik edib, prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli dostluq münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

Dövlət başçıları ikitərəfli münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

*

**Dekabrın 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Dövlət başçıları Azərbaycan ilə Özbəkistan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, yüksək səviyyədə keçirilən mütəmadi görüşlərin və təmasların əməkdaşlığımızın genişlənməsinə töhfə verdiyini qeyd ediblər.

Prezident İlham Əliyev COP29-un gələn il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar münasibətilə Özbəkistan Prezidentinin göndərdiyi təbrik məktubuna görə bir daha təşəkkürünü bildirib.

Öz növbəsində Özbəkistan Prezidenti bu münasibətlə dövlətimizin başçısını bir daha təbrik edərək, bunu Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsinin və ölkəmizə göstərilən hörmətin təzahürü kimi dəyərləndirib.

Telefon söhbəti zamanı əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub, gələn il yeni təmaslar barədə danışılıb.

*

**Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Aleksandr Lukaşenko dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, dövlətçilik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan və Belarus prezidentləri ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin uğurlu inkişafından məmnunluqlarını bildirib, gələcəkdə əlaqələrimizin daha da genişlənəcəyinə əminliklərini ifadə ediblər.

Telefon söhbəti zamanı dövlət başçıları əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Kasım-Jomart Tokayev dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan və Qazaxıstan prezidentləri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıblar.

Telefon söhbətində bu ilin noyabrında SPECA-nın Bakıda keçirilmiş Zirvə toplantısı zamanı Azərbaycan və Qazaxıstan dövlət başçıları arasında keçirilən görüşdə əldə edilmiş bütün razılaşmaların uğurla icra olunduğu qeyd edilib, gələn il Qazaxıstan Prezidentinin Azərbaycana həyata keçiriləcək dövlət səfərinin əlaqələrimizin hərtərəfli inkişafına təkan verəcəyinə əminlik bildirilib.

## 2024-cü ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1 000 000 (bir milyon) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

**3.** “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## Hövsan aerasiya qurğusundan Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamına uyğun olaraq alternativ su mənbələrindən istifadənin genişləndirilməsi, su itkilərinin azaldılması, tullantı sularının təmizlənməsi və təkrar istifadəsi, habelə bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə **qərara alıram:**

**1.** Hövsan aerasiya qurğusundan Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı Abşeron rayonu ərazisində pilot layihə (bundan sonra – pilot layihə) həyata keçirilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. pilot layihənin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçirilməsi ilə əlaqədar zəruri tədbirlər görülməsini təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya pilot layihənin həyata keçirilməsi üzrə tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## "Azərbaycan Respublikası hökuməti ilə Mərakeş krallığı hökuməti arasında logistika sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il noyabrın 13-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında logistika sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Çərçivə Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Çərçivə Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 421, № 8, maddə 1702; 2020, № 4, maddə 397; 2022, № 11, maddə 1259) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 4.7.1-3-cü yarımbənd əlavə edilsin:

"4.7.1-3. bu Nizamnamənin 4.14-cü bəndinin üçüncü cümləsində nəzərdə tutulmuş qərarı qəbul edir;".

**2.** 4.14-cü bəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"İcraçı direktor olmadıqda Şuranın qərarı ilə, müvəqqəti olmadıqda isə İcraçı direktorun əmri ilə müavinlərindən biri onu əvəz edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında energetika sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il noyabrın 13-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında energetika sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ətraf mühit və dayanaqlı inkişaf sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il noyabrın 13-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ətraf mühit və dayanaqlı inkişaf sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## Göyçay rayonunun Bakı–Şamaxı–Yevlax (218 km)–Potu–Ulaşlı Şıxlı–Üngütlü–Çərəkə–Çərəcə–Şıxlar–Xəlitli–Yeniarx–Hacıağabəyli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On dörd min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Bakı–Şamaxı–Yevlax (218 km)–Potu–Ulaşlı Şıxlı–Üngütlü–Çərəkə–Çərəcə–Şıxlar–Xəlitli–Yeniarx–Hacıağabəyli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## İsveçrə Konfederasiyasının yeni seçilmiş Prezidenti Zati-aliləri xanım Viola Amherdə

**Hörmətli xanım Amherd,**

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Biz Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında təşəkkül tapmış əlaqələrə böyük əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin ötən dövr ərzində yüksələn xətt üzrə inkişaf edərək hazırkı səviyyəyə çatması məmnunluq doğurur.

İnanıram ki, xalqlarımızın rifahı naminə dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək qarşıdan gələn Yeni, 2024-cü il münasibətilə də Sizə və dost xalqınıza ən səmimi təbriklərimi yetirir, İsveçrə Konfederasiyasına daim firavanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

**Hörmətli cənab Prezident,**

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Misir arasında ənənəvi dostluq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. İnanıram ki, dövlətlərarası əlaqələrimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabaha

**Əlahəzrət,**

Küveyt Dövlətinin Əmiri kimi taxta çıxmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan–Küveyt dostluq əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Küveyt xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## R.İ.Usubovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Ramil İdris oğlu Usubov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. aşağıdakı normativ hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

1.1.1. dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsvirini, spesifikasiyasını, nümunəsini və verilməsi qaydasını;

1.1.2. dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi qaydasını;

1.1.3. dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısını, onların geyim formasını, fərqlənmə nişanlarının təsvirini və daşınması qaydasını;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2.** "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanlarının təşkilini və keçirilməsini bu Sərəncamın 1.1.2-ci yarımbəndində nəzərdə tutulan qaydaya uyğun olaraq təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## M.M.Çaybasarskinin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda xidmətlərinə görə Məcid Mayis oğlu Çaybasarski 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## E.Ə.Qasımzadənin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elbay Ənvər oğlu Qasımzadə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”nin 67-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 67-ci maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Əsasnamənin 63-1-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;

1.4. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun 3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. miqrasiya orqanlarında, habelə digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə qulluğa qəbul zamanı sınaq müddətinin müəyyən edilmədiyi halların dəqiq tənzimlənməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununda xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması ilə əlaqədar müəyyən edilmiş tənzimləmə nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 17.4-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3** “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 994; 2010, № 7, maddə 625; 2011, № 4, maddə 294; 2012, № 5, maddə 425; 2013, № 3, maddə 253, № 5, maddə 515, № 6, maddə 645, № 12, maddə 1518; 2014, № 5, maddə 471; 2017, № 5, maddə 759, № 7, maddə 1328; 2020, № 5, maddə 561; 2021, № 12, maddə 1355) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “62-ci maddəsinin ikinci cümləsində,” sözlərindən sonra “67-ci maddəsinin birinci və ikinci cümlələrində,” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-4-cü bənd əlavə edilsin:

“2.1-4. həmin Əsasnamənin 67-ci maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

3.3. 2.3-cü bənddən “maddəsində, 63-1.1-ci maddəsində (hər iki halda)” sözləri çıxarılsın;

3.4. 2.4-cü, 2.4-2-ci, 2.4-3-cü bəndlər və 3-cü hissə ləğv edilsin;

3.5. 2.4-1-ci bəndə “Əsasnamənin” sözündən sonra “63-1-ci maddəsində,” sözləri əlavə edilsin.

**4** “Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 16 oktyabr tarixli 442-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 noyabr tarixli 739 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1099) 3-cü və 4-cü hissələri ləğv edilsin.

**5** Bu Fərmanın 1.1-ci, 1.2-ci, 3.1-ci, 3.2-ci və 3.4-cü (“Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanının 2.4-cü bəndinə münasibətdə) bəndləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydası ilə eyni gündə qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

## “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424; 2022, № 5, maddə 452, № 8, maddə 863, № 12, maddə 1406; 2023, № 1, maddə 98) 4-cü hissəsində “kredit və ya hesab kartlarını və ya başqa” sözləri “ödəniş alətlərini və ya qiymətli kağız sayılmayan” sözləri ilə əvəz edilsin.

**2** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, 976, № 8 (I kitab), maddələr 1139, 1166, 1168, 1179, 1180; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2380 nömrəli Fərmanı) 5.47-ci bəndinə “439-1,” rəqəmlərindən sonra “439-2,” rəqəmləri əlavə edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226, № 3, maddə 375, № 4, maddələr 472, 505, № 5, maddə 653, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddə 1139; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2380 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 15.0-cı bəndinə “439-1,” rəqəmlərindən sonra “439-2,” rəqəmləri əlavə edilsin.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 25 dekabr 2023-cü il**

**Mərkəzi Seçki Komissiyası**

# Seçki hüququ ilə bağlı layihə



**Gələn il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin yüksək səviyyədə təşkil olunması, azad, ədalətli və şəffaf keçirilməsi, habelə fərqli statuslu seçki subyektlərinin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə genişmiqyaslı tədbirlər ardıcıl və sistemli şəkildə davam etdirilir.**

Seçki iştirakçıları üçün müxtəlif istiqamətləri əhatə edən maarifləndirmə proqramına uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan regional seminarlara start verilib.

Yeni forma və məzmunda ilk dəfə prezident seçkilərində reallaşdırılan tədbir vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

Layihənin proqramına əsasən, ilk seminar dekabrın 25-də Bakı şəhərində Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadənin açılış nitqləri ilə başlayıb. Tədbirdə MSK nəzdində ekspert qrupunun üzvləri, Hüquq və İnsan Haqları İnstitutunun mütəxəssisləri, MSK Katibliyinin aidiyyəti struktur bölmələrinin əməkdaşları, eləcə də region üzrə 34 seçki dairəsi dairə seçki komissiyalarının müraciət və şikayətlərin araşdırılmasına məsul olan ekspert qruplarının 102 üzvü iştirak edib.

Seminarda Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunda təmsil olunan komissiya üzvlərinin, Hüquq və İnsan Haqları İnstitutunun mütəxəssislərinin seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri, seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması və Ekspert qruplarının fəaliyyətinin əsasları, eləcə də Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququna dair çıxışları dinlənilib, əyani vəsaitlərdən istifadə etməklə mövzular barədə ətraflı məlumat verilib.

Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçirilib, iştirakçılar sınaq testlərinin həllinə cəlb edilib.

Seminara qatılan dairə seçki komissiyalarının bütün Ekspert qrupu üzvlərinə MSK tərəfindən ilk dəfə hazırlanan şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəylərin və qərar layihəsinin hazırlanması prosedurlarını aydın, əhatəli əks etdirən yaddaş kitabçası təqdim olunub.

Qeyd edək ki, MSK-nın genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində reallaşdırılan və seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan regional seminarların dekabrın 26-da Sumqayıtda, dekabrın 27-də Gəncə və Şəkidə, o cümlədən dekabrın 29-da Naxçıvan və Masallıda keçirilməklə, ümumilikdə ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərini əhatə etməsi nəzərdə tutulur.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Ekspert qruplarının üzvləri üçün yaddaş kitabçası hazırlanıb

**Mərkəzi Seçki Komissiyası ilk dəfə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində “Ekspert qrupunun üzvləri üçün yaddaş” kitabçası hazırlayıb.**




Layihə vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, fəaliyyətlərinin daha da təkmilləşdirilməsi və onlara metodiki kömək göstərilməsi üçün reallaşdırılıb.

Nəşrdə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun ekspert qruplarının üzvlərinə müraciəti yer alıb. Sədr müraciətində ilk dəfə seçkilərin ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlar da daxil olmaqla, respublikamızın hər bir bölgəsində keçirildiyini vurğulayır. O, həmçinin ekspert qrupu üzvlərinin vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında böyük məsuliyyət daşıdığını xatırladır və onların seçki qanunvericiliyində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərinin öhdəsindən peşəkarlıqla və layiqincə gələcəyinə inandığını bildirərək, məsuliyyətli fəaliyyətlərində uğurlar arzulayır.

Kitabçada seçki hüququ ilə bağlı müraciətlərə baxılması, şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəy və qərar layihəsinin hazırlanması prosedurları müfəssəl izah olunub.

Yaddaş kitabçası Seçki Məcəlləsinin müddəaları və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanıb.

“Ekspert qrupunun üzvləri üçün yaddaş” kitabçası MSK-nın rəsmi internet səhifəsində (www.msk.gov.az) də yerləşdirilib.

**XQ**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident, Əziz Qardaşım!**

Doğum gününüzü xalqım adından və şəxsən öz adımdan səmimi diləklərimlə təbrik edir, ailənizlə birlikdə Sizə cansağlığı və xoşbəxtlik dolu uzun ömür arzulayıram.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi nailiyyətlər və beynəlxalq miqyasda get-gedə artan nüfuzu bizim üçün iftixarverici hadisədir.

Türkiyə ilə Azərbaycan arasında "İki dövlət, bir millət" şüarına əsaslanan bənzərsiz qardaşlıq və həmrəylik telləri bu günə qədər olduğu kimi, gələcəkdə də münasibətlərimiz baxımından güclü bünövrə təşkil etməyə davam edəcək.

Dəyərli Qardaşım, bu fürsətdən istifadə edərək doğum gününüzü bir daha təbrik edir, Azərbaycan xalqının xoş günləri və rifahı üçün ən səmimi arzularımı ifadə edirəm.

**Hörmətlə,**

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir və ən səmimi arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və ölkənizə xidmətinizdə uğurlar diləyirəm.

Gürcüstan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluq və tərəfdaşlıq münasibətləri onilliklər ərzində inkişaf edir. Ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsində Sizin şəxsi töhfəniz xüsusi əhəmiyyət kəsb edir.

Zati-aliləri, bir daha dərin ehtiramımı bildirir, bu fürsətdən istifadə edərək Sizi və dost Azərbaycan xalqını Yeni il münasibətilə təbrik edir, sülh, cansağlığı və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz təbiət etibarilə əsl lider, böyük ürəyi və parlaq zəkası olan insansınız. Siz müzəffərsiniz və daim Azərbaycan xalqına lazım olanı əldə edirsiniz. Siz millətin müdrik və xeyirxah atası, bütün azərbaycanlıların sevgi hissi bəslədiyi dövlət xadimisiniz.

Sizə səmimi-qəlbdən cansağlığı və xoşbəxtlik arzulayıram. Allah Sizi, Azərbaycanı və Azərbaycan xalqını hifz etsin!

**Hörmət və böyük minnətdarlıq hissi ilə,**

***Alişer USMANOV,***
***Rusiyalı sahibkar***

***

**Möhtərəm cənab Prezident!**

İcazə verin doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Sizin uzaqgörənliyiniz və müdrikliyiniz, müstəsna səriştəniz, yüksək fədakarlığınız, durmadan artan milli lider nüfuzunuz və insanları ruhlandırmaq bacarığınız ən yüksək hörmətə və rəğbətə layiqdir.

Əminəm ki, Sizin istedadlı rəhbərliyiniz bundan sonra da Azərbaycanın tərəqqisinə, həmçinin Azərbaycan ilə Rusiya arasında qarşılıqlı hörmətə əsaslanan, faydalı və səmimi dostluq münasibətlərinin möhkəmlənməsinə kömək edəcək.

Həyatınızın bu əlamətdar günündə ən cəsarətli planlarınızın reallaşması üçün Sizə möhkəm cansağlığı, tükənməz enerji və güc diləyirəm.

Sizə və gözəl ailənizə, bütün ölkənizə uğurlar və sülh arzu edirəm.

**Hörmətlə,**

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı,***
***Azərbaycan Respublikasının parlamenti ilə dostluq qrupunun əlaqələndiricisinin müavini***

***

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İndiyə qədər əldə etdiyiniz nailiyyətlər Sizin peşəkar liderliyiniz və yaxşı düşünülmüş siyasətiniz sayəsində mümkün olub. Siz Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam təmin etməklə yanaşı, davamlı tərəqqi və yüksəlişin nadir nümunəsinə nail olmusunuz. Siz sülh şəraitində birgəyaşayışa və qonşularınızla əməkdaşlığa önəm verirsiniz. Həmçinin Qoşulmama Hərəkatına uğurla sədrlik etmiş, təşkilatın fəaliyyətinə mühüm töhfələr vermisiniz. Təbii ki, bunlar 2023-cü ildə əldə etdiyiniz nailiyyətlərin bir qismidir. Əminəm ki, yeni ildə daha mühüm məqsədlərin həyata keçirilməsinə nail olacaqsınız. Bu sırada COP29-u xüsusi vurğulamaq istərdim. Uğurlarınız daim himayə etdiyiniz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri tərəfindən yüksək qiymətləndirilir.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizi Yeni 2024-cü il münasibətilə də təbrik edir, Sizə və ailənizə xoşbəxtlik və firavanlıq arzulayıram. Yeni ildə Sizin rəhbərliyinizlə Azərbaycana, eləcə də bütövlükdə regiona sülh, sabitlik, tərəqqi diləyirəm.

Möhtərəm Prezident, Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Əmr MUSA,***
***2001–2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü, 1991–2001-ci illərdə Misirin xarici işlər naziri***

***

**Möhtərəm İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə Şimali Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Tanrıya dua edərək Sizə firavanlıq, xoşbəxtlik, qardaş Azərbaycan xalqının rifahı, Qafqazda və bütün dünyada möhkəm sülh naminə fəaliyyətinizdə yeni uğurlar və zəfərlər arzu edirəm.

Siz Azərbaycan Respublikasının Prezidenti və öz xalqının lideri kimi ölkənizin sosial-iqtisadi inkişafı və onun beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi işində mühüm nəticələrə nail olmusunuz. Siz Azərbaycan xalqının mənəvi-əxlaqi inkişafı məsələlərinə, İslamın həqiqi mənəvi dəyərlərinin möhkəmlənməsinə, dinlərarası və millətlərarası həmrəyliyin qorunub saxlanmasına və dərinləşməsinə böyük diqqət yetirirsiniz.

Siz atanız, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi kursunu davam etdirərək Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsi və ölkənin ərazi bütövlüyünün bərpası üçün misilsiz xidmətlər göstərmisiniz. Sizin parlaq diplomatik istedadınız, siyasi müdrikliyiniz və qeyri-adi liderlik keyfiyyətləriniz sayəsində bu gün Azərbaycan regionda şəksiz lider və keyfiyyətcə yeni geosiyasi şəraitin yaradılmasının lokomotivi, sabitliyin, sülhün və mehriban qonşuluğun carçısıdır.

Sizin mərdliyinizə, qətiyyətinizə və müdrik uzaqgörənliyinizə – yalnız həqiqətən güclü və cəsur insana xas olan keyfiyyətlərinizə görə Şimali Qafqazın bütün müsəlmanları adından Zati-alinizə təşəkkürümü bildirməyi özüm üçün şərəf sayıram.

Zati-aliləri, biz, Qafqaz müsəlmanlarının nümayəndələri daim Sizin yanınızda olacağıq. Qafqazda və bütün dünyada sülh, sabitlik və rifah naminə qadir Allaha dua edirik. İnşallah.

Ulu Tanrı yorulmaz fəaliyyətinizdə Sizə kömək olsun, mərhəmətini heç vaxt əsirgəməsin.

**Dərin hörmətlə,**

***Şaqabitdin-Hacı KERİMOV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Şimali Qafqaz üzrə səlahiyyətli nümayəndəsi***

***

**Əziz İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və uğurlar arzulayır, ən yüksək ehtiramımı ifadə edirəm.

Siz dahi atanızın layiqli varisi və ideyalarının böyük davamçısı kimi onun arzularının reallaşmasına artıq nail olmusunuz. Azərbaycanın ən doğru inkişaf yolunu, onun beynəlxalq aləmdə siyasi, iqtisadi və sosial mövqeyini müəyyən etmisiniz, ölkənin suverenliyi tam təmin olunub.

Siz təcrübəli, qətiyyətli, uzaqgörən və nəcib dövlət xadimisiniz. Əminəm ki, Siz gələcəkdə də bu yolda – ən mürəkkəb məsələlərin həllində və Azərbaycanın maraqları naminə onun imkanlarının genişləndirilməsində, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasında öz səylərinizi və məharətinizi əsirgəməyəcəksiniz.

Aramızda olan mehriban münasibətləri yüksək qiymətləndirirəm, bu münasibətlərin konstruktiv məzmunundan məmnunam. Sizinlə və mehriban ailənizlə görüşlər daim məni ürəkdən sevindirir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, müvəffəqiyyətlər diləyir, ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri,***
***Beynəlxalq məsələlər komitəsinin sədri***

***

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın – GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Bu gün doğum gününüz milli maraqlara, beynəlxalq hüquqa, strateji baxışa, müdrikliyə, fədakarlığa və səbrə əsaslanan rəhbərliyinizlə həyata keçirilən siyasətlə formalaşmış tamamilə yeni milli və beynəlxalq kontekstlərə şahidlik edir.

Bu il Azərbaycan Respublikası işğal olunmuş torpaqlarını tam azad edib və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində bütün ərazisi üzərində suverenliyini bərpa edib. 2020-ci ildə Vətən müharibəsində qazanılan şanlı Qələbə nəticəsində əldə olunan nailiyyətlər 2023-cü ilin sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri ilə yekunlaşdı.

Bu gün ölkədə işğaldan azad edilmiş torpaqların intensiv şəkildə genişmiqyaslı yenidən qurulması və bərpası, insanların öz doğma yurdlarına qayıtması, bu geniş ərazilərin milli və regional iqtisadiyyata yenidən inteqrasiyası istiqamətində proses sürətlə gedir.

Beləliklə, 2023-cü il respublika tarixində müstəqil Azərbaycanın 30 illik bir dövrünün başa çatması, ölkənin ərazilərinin işğaldan tam azad edilməsi və suverenliyinin bərpası ilə müşayiət olunan Zəfərlə yekunlaşan bir il kimi qalacaq. Bu kontekstdə rəmzi xarakter daşıyan bir cəhət də odur ki, bu il Azərbaycan həm də ölkənin mövcudluğunun sual altında olduğu kritik bir zamanda Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışının 30-cu ildönümünü qeyd etdi. Yeni Azərbaycanın tarixində bu möhtəşəm 30 il həm də Azərbaycanın qazandığı qələbələrin və ümumi uğurların ilkin şərti və təminatçısı olan milli birliyin, davamlılığın, Azərbaycan rəhbərliyinin ardıcıllıqla həyata keçirdiyi siyasi xəttin əhəmiyyətini göstərir. Bu il Ümummilli liderin 100 illik yubileyinin qeyd olunması yuxarıda deyilənlərin hamısına xüsusi məna verir.

Ölkə öz inkişafında yeni dövrə qədəm qoyduğu bir dönəmdə biz də Sizin regionda ədalətli və davamlı sülhə nail olunması istiqamətində göstərdiyiniz ardıcıl və yorulmaz səylərinizi yüksək qiymətləndiririk. Biz Azərbaycanın çoxtərəfli əməkdaşlıq çərçivəsində mühüm regional təşəbbüslər və layihələr həyata keçirməklə bölgədə sabitliyə, təhlükəsizliyə və inkişafa verdiyi töhfəni yüksək dəyərləndiririk. Fəaliyyətinizdə Sizə daha böyük uğurlar arzulayır, həmçinin inklüziv regional təşəbbüslər və qlobal əhəmiyyətli layihələri həyata keçirməklə bölgənin potensialının tam şəkildə ortaya çıxarılması və istifadə edilməsi üçün göstərilən səylərə töhfə verməyə hazır olduğumuzu bildiririk.

Azərbaycanı hərtərəfli islahatları, iqtisadi və sosial həyatın bütün sahələrinin modernləşdirilməsini və demokratikləşməsini, eləcə də xalqın rifahının daim inkişaf edən qlobal mühitin çağırışlarına uyğun daha da yaxşılaşdırılmasını, ölkənin aparıcı beynəlxalq mövqeyinin və rolunun gücləndirilməsini özündə əks etdirən yeni inkişaf mərhələsinə çıxarmaq missiyanızda Sizə daha böyük uğurlar arzulayırıq.

Zati-aliləri, bu əlamətdar gün və müstəqil Azərbaycanın inkişafındakı tarixi nailiyyətləriniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz enerji, xalqın və ölkənin rifahı naminə yeni böyük qələbələr arzulayırıq.

**Hörmətlə,**

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

***

**Hörmətli Prezident İlham Əliyev!**

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm və neçə-neçə belə gözəl günlər qeyd etməyinizi arzulayıram.

1997-ci ilin yayında atanızla Nyu-Yorka səfəriniz zamanı Yəhudi Təşkilatları Prezidentlərinin Konfransı çərçivəsində Sizinlə qısa da olsa görüşdük. Nyu-Yorkdakı görüşümüzdən cəmi bir neçə ay əvvəl - 1997-ci il mayın 23-də isə mən ümummilli lider Heydər Əliyevlə Bakıda görüşmüşdüm. Atanız Azərbaycanın möhtəşəm mədəniyyəti ilə bağlı fikirlərini bölüşmək üçün məni iş otağına dəvət etdi. Ümummilli lider öyrənmişdi ki, mən Bakıda yenicə təmir edilmiş Opera və Balet Teatrının açılışında çıxış etmək üçün gəlmişəm və mən ömrünü Azərbaycanın musiqi mədəniyyətinin öyrənilməsinə və təbliğinə həsr etmiş azsaylı qeyri-azərbaycanlılardanam. Mən 1973-cü ildən kamança və tarda ifa edirəm və bu son 50 il ərzində ABŞ, Kanada, Böyük Britaniya, Avropada, İsraildə və təbii ki, Azərbaycanın ən yaxşı məkanlarında çoxsaylı konsertlərim olub.

Fürsətdən istifadə edərək ölkənizin suverenliyinin tam bərpası münasibətilə Sizi təbrik edirəm. Şuşanın işğaldan azad olunduğunu eşitdiyim gün həyatımın ən xoşbəxt günlərindən biri idi. 2022-ci ilin iyul ayında Azərbaycan və onun musiqi mədəniyyəti, dünyada bənzəri olmayan və daha çox tanınmağa layiq olan Azərbaycan xalqı haqqında yeni sənədli film çəkmək məqsədilə bu gözəl şəhərə səfər etdim.

Ümidvaram ki, nə vaxtsa biz görüşəcəyik və nailiyyətləriniz münasibətilə Sizi şəxsən təbrik edəcəyəm. Azərbaycanın ənənəvi mədəniyyəti, incəsənətinin təbliği və dəstəklənməsi istiqamətində gördüyü böyük işlərə görə şəxsən birinci xanım və Birinci vitse-prezident Mehriban Əliyevanı da təbrik etmək istəyirəm. Bəlkə də birinci xanım 2006-cı ildə Vaşinqtonda səfərdə olarkən mənim kimi Azərbaycan mədəniyyətinin pərəstişkarı olan qeyri-azərbaycanlı şəxslərin təqdimat mərasimində tanış olduğumuzu xatırlayır.

**Hər ikinizə xoş arzularla,**

***Cefri VERBOK,***
***Amerika Muğam Cəmiyyətinin prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Biz ölkənizə və onun vətəndaşlarına yorulmaz xidmətinizə görə Sizə minnətdarlığımızı bildiririk və hər zaman Sizi dəstəkləyəcəyik.

Sizə həm şəxsi həyatınızda, həm də ali dövləti fəaliyyətinizdə uğurlar və xoşbəxtlik dolu bir il diləyirik.

**Hörmətlə,**

***Cuzeppe KANİLİA,***
***Napoli–Bakı Assosiasiyasının sədri***

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı və ən xoş arzularımı çatdırıram. Həmçinin böyük Azərbaycan dövlətinin və bütün regionun davamlı sülh, təhlükəsizlik və firavanlığa doğru aparılması istiqamətində fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

Dərin hörmətlə və dostluq salamları ilə,

***Kolinda Qrabar-KİTAROVİÇ,***
***2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti***

***

**Zati-aliləri, cənab Prezident!**

Doğum gününüz mübarək.

Bu əlamətdar gündə Azərbaycan xalqı və bütün dünyadan olan insanlara qoşularaq Sizə – görkəmli dövlət xadimi, sadiq beynəlmiləlçi və mərhəmətli insana xoşbəxtlik arzulamaqdan şərəf duyuram.

Cənab Prezident, Sizin fəaliyyətinizin və ümumbəşəri dəyərlərə sadiqliyinizin dünyamız üçün nə demək olduğunun şahidi olmuşam. Azərbaycan cəmiyyəti üçün əsas dəyərlərdən olan tolerantlığın və dinc yanaşı yaşamağın inkişafına verdiyiniz böyük töhfəyə görə Sizi alqışlayıram.

Möhtərəm cənab Prezident, əmin ola bilərsiniz ki, bəşəriyyətə sədaqətinizin və möhtəşəm təvazökarlığınızın izi tarixdə əbədi qalacaq. İnanıram ki, Siz bundan sonra da uzun illər müdriklik və ümid nümayiş etdirərək hamımızı birlikdə daha yaxşı bir dünya yarada biləcəyimizə inanmağa ruhlandıracaqsınız.

Tanrı Sizə möhkəm cansağlığı, uzun illər sevinc dolu xoşbəxtlik nəsib etsin!

**Dərin hörmət, ehtiram və dostluq salamları ilə,**

***Ravvin Mark ŞNAYER,***
***ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə və ailənizə möhkəm cansağlığı, ömür boyu xoşbəxtlik arzulayıram.

Zati-alinizin Ali Baş Komandanlığı ilə 44 günlük Vətən müharibəsi və 24 saatlıq antiterror tədbirləri nəticəsində Can Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edərək həm ümummilli lider Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz, həm də Azərbaycan xalqının arzularını gerçəkləşdirdiniz. Sizin humanist, müdrik siyasətiniz sayəsində Azərbaycan Respublikası dünyada gündən-günə etibarını möhkəmləndirir.

Möhtərəm Prezident, hər iki ölkənin xalqları cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Türkiyə və Azərbaycan arasında böyük layihələrin reallaşmasından qürur duyur.

**Ən dərin hörmət və ehtiramla,**

***Şamil AYRIM,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri***

***

**Hörmətli cənab Prezident, əziz dost!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizin fəal işiniz, dövlətin qarşısında duran əsas vəzifələri səmərəli surətdə həll etmək və beynəlxalq məsələlərin həlli yollarını tapmaq bacarığınız Sizə haqlı olaraq bütün dünyada yüksək nüfuz və hörmət qazandırıb.

Sizə dost deyə müraciət edə və ünsiyyət qura bildiyimə görə taleyimə minnətdaram.

Cənab Prezident, icazə verin, Sizə çoxşaxəli fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və firavanlıq arzulayım.

Fürsətdən istifadə edərək Sizə, ailənizə və ölkənizə Yeni illə bağlı ən xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

***Stepan MESİÇ,***
***2000–2010-cu illərdə Xorvatiya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının əldə edilmiş nailiyyətlər əsasında gələcək sosial-iqtisadi inkişafı üzrə mühüm və məsuliyyətli fəaliyyətinizin davamlı olmasını və Rusiyanın regionları ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqaməti də daxil olmaqla, yeni təşəbbüs və layihələrin həyata keçirilməsini arzulayıram.

Sizə möhkəm cansağlığı, uğurlar diləyirəm.

**Hörmətlə,**

***Andrey BOÇAROV,***
***Rusiya Federasiyası Volqoqrad vilayətinin qubernatoru***

***

**Möhtərəm İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurası adından təbrikimizi qəbul edin.

Dərin biliyiniz və yüksək peşəkarlığınız Sizə öz dövlətinizin maraqlarını müdafiə etmək, açıq siyasi dialoq aparmaq imkanı verir. Sizin ardıcıl fəaliyyətiniz, sözsüz ki, respublikanın sosial-iqtisadi inkişafına və onun Müstəqil Dövlətlər Birliyi çərçivəsində çoxşaxəli əməkdaşlığın möhkəmlənməsindəki ənənəvi fəal iştirakına kömək edir.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət, firavanlıq və Azərbaycan xalqının rifahı naminə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini – Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

***

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Novosibirsk vilayəti ərazisində yaşayan bütün azərbaycanlılar adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan Respublikasının Prezidenti vəzifəsində ölkə iqtisadiyyatının dayanıqlılığının artırılması, dövlətin ərazi bütövlüyünün təmin edilməsi və qorunub saxlanılması, sülh və anlaşmanın möhkəmləndirilməsi üzrə fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

Biz, soydaşlar yaşadığımız ölkədən asılı olmayaraq, Sizin dünya səviyyəli siyasətinizlə fəxr edir və qürur duyuruq. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluğun və qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində səylərimizi əsirgəmirik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm. Biz daim sizinləyik.

**Hörmətlə,**

***Mayis MƏMMƏDOV,***
***Rusiya Federasiyası Novosibirsk vilayəti Qanunverici Məclisinin sədr müavini***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm İlham Heydər oğlu!**

Doğum gününüz mübarək olsun! Sizin üçün bu əlamətdar gündə ən səmimi təbriklərimi qəbul edin.

Siz uzun illər ərzində ölkənin həyatında sabitliyin və rifahın təminatçısı, Azərbaycan xalqının etibarlı müdafiəçisi, dünyada gedən iqtisadi və siyasi proseslərin fəal iştirakçısı, Rusiyanın etibarlı tərəfdaşısınız. Sizin müdrik siyasətiniz, strateji düşüncə tərziniz, məqsədyönlülüyünüz və uzaqgörənliyiniz artıq çoxdandır ki, ən yüksək şəkildə qiymətləndirilib, Azərbaycan xalqı tərəfindən ehtiram və minnətdarlıqla, dünya ictimaiyyətinin rəğbəti ilə qarşılanıb.

Sizə səmimi-qəlbdən xoşbəxt həyat və ən başlıcası, uzun ömür arzulayıram. Qoy, həyatınız sevincli hadisələrlə, xeyirxah əməllərlə və böyük nailiyyətlərlə zənginləşsin!

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqına sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Mixail QUSMAN,***
***Rusiyanın TASS informasiya agentliyinin***
***Baş direktorunun birinci müavini***

***

**Möhtərəm cənab Prezident!**

Zati-alinizi doğum gününüz münasibətilə təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizdə, beynəlxalq müstəvidə böyük dəyər kəsb edən səylərinizdə Uca Yaradandan uğurlar diləyirik.

Siz müdrikliyinizi yaşınızla, təvəllüd tarixinizlə deyil, əməllərinizlə, dövlətçilik təfəkkürünüzlə təsdiq etmiş dövlət xadimisiniz. Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsi olub, bəşər tarixinə həkk ediləcək hadisə miqyasına malikdir. Azərbaycan xalqının haqq mübarizəsinin qalibiyyət dastanını dünya tarixinin səhifələrinə möhtəşəm Zəfər Günü ilə həkk etmiş şəxsiyyət olaraq Zati-aliniz Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suveren hüququnu təsbit etdi. Tarixi ədalətin bərpası – əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi yönündə Ali Baş Komandan olaraq qalib gəldiyiniz Vətən müharibəsi haqqın, ədalətin təntənəsinə inamı təcəssüm etdirdiyi kimi, 15 oktyabr – Xankəndi Zəfəri millət olaraq ləyaqət və şərəfimizin bərpasını əyan etdi. Azərbaycan xalqının Ulu öndərinin vəsiyyətini – Ata vəsiyyətini yerinə yetirmiş Zati-alinizin Azərbaycan cəmiyyətinə bəxş etdiyi bu təntənəli tarixi günə görə hər bir azərbaycanlının qəlbində özəl yeri vardır.

Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir. Şükürlər olsun ki, Vətənimizə, millətimizə uğurlar yaşadan Sizin kimi Liderimiz var. Böhranları üstələyə bilən iqtisadiyyatı, örnək siyasi mədəniyyəti, dini-mənəvi dəyərləri, multikultural ənənələri ilə tanınan Azərbaycan dünyaya örnəkdir. Bütün bunlar, heç şübhəsiz ki, Sizin güclü, ardıcıl siyasi iradənizin sayəsindədir. Bu gün Sizin rəhbərliyinizlə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan işğaldan azad olunmuş torpaqlarında erməni vandalizminin acı nəticələrini aradan qaldırır, möhtəşəm infrastruktur layihələri, genişmiqyaslı quruculuq işləri reallaşdırır. Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı qətiyyətli iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir.

Möhtərəm cənab Prezident, dini konfessiya rəhbərləri olaraq müxtəlif etnik və dini mənsubiyyət daşıyıcısı olan Azərbaycan vətəndaşlarının mənəvi harmoniya şəraitində bir ailənin üzvləri kimi xoşbəxt yaşamalarını təmin edən multikultural ənənələrimizə istinadən Sizin qlobal müstəvidə dinlər və sivilizasiyalararası dialoq işinə verdiyiniz böyük əməli töhfələri yüksək dəyərləndiririk. Sizin təvəllüd gününüz bizə xoş fürsət verir ki, Zati-alinizin Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinə görə bütün Azərbaycan dindarlarının dərin təşəkkürlərini bir daha ifadə edək. Azərbaycandakı müxtəlif dini konfessiyaların nümayəndələri – dindarlar və din xadimləri fəxr edir və inanırlar ki, Azərbaycanı qalib ölkə, xalqını Zəfər çalmış xalq yüksəkliyinə qaldırmış Zati-alinizin rəhbərliyi ilə Azərbaycan bundan sonra da yeni zirvələrə yüksələcək, hər zaman uğurlara imza atacaqdır.

Zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xəttinizi, beynəlxalq miqyasda həmrəyliyə xidmət edən ideyalarınızı dəstəkləyən, hər zaman diqqət, qayğı və himayənizi hiss edən biz dindarların duaları hər zaman Sizinlədir.

Möhtərəm cənab Prezident, Siz Uca Allahın köməyi ilə Azərbaycan xalqının dəstək və həmrəyliyi, sonsuz məhəbbət və dərin etimadını haqq etmisiniz və bu, Ulu Tanrının lütfüdür. Bu xoş fürsətdən istifadə edərək Azərbaycanda siyasi hakimiyyətə gəlişinizin 20-ci ildönümü münasibətilə Sizi ürəkdən təbrik edir, dövlətimizə və xalqımıza bəxş etdiyiniz uğurlu inkişaf yolu və tarixi nailiyyətlərə görə səmimi təbriklərimizi ifadə edirik. Həyatını Azərbaycana həsr etmiş, anadan olmasının 100-cü ildönümü tamam olan Ulu öndərin bütün fəaliyyət və əməlləri kimi, ailə ocağında yetişmiş övlad da Azərbaycan xalqının səadətinə xidmət etməkdədir.

Möhtərəm cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurası adından Sizi – Azərbaycan dövlətinin müzəffər dövlət başçısını bir daha ürəkdən təbrik edir, ölkə dindarlarının iradəsini ifadə edərək Zati-alinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizə uğurlar diləyirik. O Bir Olan Yaradanımız hər zaman yardımçınız olsun, Lütf və Mərhəmətini Azərbaycan xalqı, dövləti və onun müdrik dövlət rəhbəri üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin! Amin!

**Dərin hörmət və ehtiramla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,***

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin və Azərbaycan***
***Yeparxiyasının katibi,***

***Yepiskop Vladimir FEKETE***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol***
***prefekturasının ordinarisi,***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,***

***Robert MOBİLİ,***
***Alban-udi Xristian Dini İcmasının sədri***

***

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqa və həyat yoldaşı İmants Freyberqs:**

– Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq. Bu əlamətdar gündə fürsətdən istifadə edərək Sizi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi münasibətilə bir daha təbrik edirik. Sizə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirik.

***

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992–2000-ci illərdə Dünya Bankının vitse-prezidenti İsmail Serageldin:**

– Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə təbrik edir, ən səmimi və xoş arzularımı bildirirəm. Xüsusilə bu tarixi dönəmdə - Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyiniz bir vaxtda qoy Sizin bu zəfər marşınız yeni-yeni uğurlar gətirsin, dostlarınız və Sizi sevənlər bu uğurlara baxıb sevinsinlər!

***

**2004–2012-ci illərdə Serbiyanın Prezidenti Boris Tadiç:**

– Əziz dostum, Prezident Əliyev.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, neçə-neçə belə gözəl illərə çıxmağınızı arzulayıram.

***

**2009–2011-ci illərdə Belçikanın Baş naziri İv Löterm:**

– Hörmətli Prezident.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə minnətdaram. Sizə, ailənizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

***

**2006–2009-cu illərdə İsrailin Baş nazirinin müavini, xarici işlər naziri, 2006–2007-ci, 2013–2014-cü illərdə ədliyyə naziri Tzipi Livni:**

– Hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram. Mərkəzimizə göstərdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

***

**Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Turki Al Faysal Al Saud:**

– Zati-aliləri Prezident İlham Əliyev.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Bu əlamətdar gündə Sizə, ailənizə və Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik diləyirəm.

***

**1997–2000-ci, 2001–2005-ci illərdə Norveçin Baş naziri Kyel Maqne Bondevik:**

– Hörmətli Prezident, əziz dostum.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə həmkarlarım adından və şəxsən öz adımdan minnətdarlığımızı bildirirəm. Sizinlə əməkdaşlıq etmək çox xoşdur. Sizə təbriklərimi və ən xoş arzularımı çatdırıram.

***

**2012–2022-ci illərdə Sloveniyanın Prezidenti Borut Pahor:**

– Hörmətli Prezident və əziz dost.

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırıram. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin möhtəşəm komandası ilə birgə Sizinlə şəxsən görüşümüzü səbirsizliklə gözləyirəm. Sizə uğurlar diləyirəm.

***

**"Müasir Köləliyə Son Qoyaq" Qlobal Fondunun İdarə Heyətinin sədri, "Exxon Mobile" şirkətinin sabiq vitse-prezidenti Jan Baderşneyder:**

– Hörmətli Prezident Əliyev.

Sizi doğum gününüz münasibətilə təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram. Siz dünyanın çox dəyərli və mühüm əhəmiyyət kəsb edən bölgəsində möhtəşəm liderlik nümayiş etdirirsiniz. Bizim daha çox müdrik və cəsarətli liderlərə ehtiyacımız var. Mən Azərbaycanı dəstəkləməyə davam edəcəyəm. Sizinlə birgə işləməyə ümidvaram.

***

**2012–2017-ci illərdə Bolqarıstanın Prezidenti Rosen Plevneliyev və 1997–2002-ci illərdə Bolqarıstanın Prezidenti Petar Stoyanov:**

– Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə bütün Bolqarıstan xalqı adından və şəxsən öz adımızdan ən xoş arzularımızı çatdırırıq. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə daha firavan həyat diləyirik. Bizim Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Sizinlə fəxr edirlər.

***

**BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2012–2014-cü illərdə Ekvadorun müdafiə naziri, 2017–2018-ci illərdə xarici işlər naziri Mariya Fernanda Espinoza:**

– Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edir, Sizə uzun ömür, cansağlığı və firavan həyat diləyirəm. Azərbaycana əbədi sülh arzulayır, eləcə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin əsasını təşkil edən mədəniyyətlərarası dialoq və qarşılıqlı anlaşmaya göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

***

**TENEO şirkətinin Baş müşaviri, Fransanın sabiq Prezidenti Şarl de Qolun nəvəsi Natali Qule:**

– Cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm və qarşıdan gələn ildə Sizə yeni-yeni uğurlar arzulayıram.

Yeni ildə Sizə sevinc dolu günlər və xoşbəxtlik diləyirəm.

***

**2015–2018-ci illərdə Mavrikinin Prezidenti Amina Qurib-Fakim:**

– Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı və firavanlıq arzulayıram. Qoy Azərbaycan dövləti həmişə Sizin güclü liderliyinizdən bəhrələnsin!

***

**2007–2011-ci illərdə Latviyanın Prezidenti Valdis Zatlers:**

– Zati-aliləri, cənab Prezident.

Sizinlə tez-tez görüşməsək də, səmimi münasibətimiz həmişə davam edəcək. Mən həmişə Sizi etibarlı dostum hesab edəcəyəm. Doğum gününüz mübarək, hörmətli Prezident.

***

**2014–2018-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç:**

– Əziz dostum, hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Dost Azərbaycan xalqının mənafeyi naminə Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram. Qarşıdan gələn Yeni il bayramı münasibətilə də ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

***

**2022–2023-cü illərdə BMT-nin Baş Assambleyasının 77-ci sessiyasının sədri Ksaba Korosi:**

– Hörmətli Prezident,

Birgə keçirdiyimiz universitet illərini xatırlayaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ailəsinə göstərdiyiniz böyük dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Sizə və sevdiyim ölkənizə yeni-yeni uğurlar arzulayıram.

***

**2012–2016-cı illərdə Monteneqronun müdafiə naziri Milisa Pjanoviç-Durisiç:**

– Hörmətli cənab Prezident.

İcazə verin bu xoş fürsətdən istifadə edərək Sizə doğum gününüz münasibətilə ən xoş arzularımı çatdırım. Sizinlə görüşlərimizi daim xatırlayır, təşkilatımıza göstərdiyiniz diqqət və qayğıya görə Sizə ən səmimi duyğularla minnətdarlığımı bildirirəm.

***

**UNESCO-nun xoşməramlı səfiri və mədəni diplomatiya üzrə xüsusi nümayəndəsi Hedva Ser:**

– Cənab Prezident, Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzu edərək ən yüksək ehtiramımı bildirirəm.

***

**2010–2012-ci illərdə Monteneqronun Baş naziri İqor Luksiç:**

– Hörmətli cənab Prezident Əliyev.

Doğum gününüzü səmimi–qəlbdən təbrik edirəm. Bu xoş fürsətdən istifadə edərək Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyir, bizim Beynəlxalq Mərkəzimizə göstərdiyiniz diqqət və qayğıya görə minnətdarlığımızı bildirirəm.

***

**2010–2015-ci illərdə Xorvatiyanın Prezidenti İvo Yosipoviç:**

– Zati-aliləri Prezident İlham Əliyev.

Doğum gününüz mübarək olsun! Azərbaycanın Prezidenti vəzifəsində möhtəşəm nailiyyətləriniz münasibətilə Sizi təbrik edirəm. Sizin iqtisadiyyata, mədəniyyətə, xalqlar arasında sülhə və dostluğa verdiyiniz dəyər yalnız öz gözəl ölkənizə deyil, bütün dünyaya töhfədir. Bu xoş fürsətdən istifadə edərək, Sizə uzun ömür, xoşbəxtlik və möhtəşəm liderliyinizin davamlı olmasını arzu edirəm.

***

**2010–2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini, 2008-ci ildə xarici işlər naziri Eka Tkeşelaşvili:**

– Hörmətli Prezident.

Bu xoş fürsətdən istifadə edərək Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Sizin xalqınız xoşbəxtdir ki, həyatını öz Vətəninin inkişafına həsr edən Lideri var. Azərbaycanın möhtəşəm nailiyyətlərini müşahidə etmək fürsətimiz oldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə və bizi bu mühüm prosesin bir hissəsi olmağa imkan yaratdığınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı və qarşıdakı planlarınızın həyata keçməsini, Qarabağın tamamilə bərpa olunmasını, Azərbaycanın mühüm regional və qlobal oyunçu kimi rolunun daha da artmasını arzu edirəm. Sizə və ailənizə ən xoş arzularımı çatdırıram.

***

**Bosniya və Herseqovinanın BMT-də daimi nümayəndəsi, 2001–2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri, 1993–1996-cı, 2012–2015-ci illərdə Baş nazirin müavini Zlatko Laqumciya:**

– Hörmətli Prezident və əziz dost.

Doğum gününüz münasibətilə ürəkdən gələn təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizə və ölkənizə ən xoş arzularımı çatdırıram. Rəhbərliyinizlə yaradılmış Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə xüsusi minnətdarlığımı bildirirəm. Bizim hər zaman Azərbaycanın haqq işini dəstəkləyəcəyimizə əmin ola bilərsiniz.

***

**2004–2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu:**

– Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Zati-alinizə, çox hörmətli xanımınıza və qardaş Azərbaycan xalqına cansağlığı və uzun ömür diləyirəm. Bu il bizi sevindirən çox böyük nailiyyətlərin şahidi olduq. Belə ki, Sizin Ali Baş Komandanlığınız, türk xalqının mənəvi dəstəyi ilə qəhrəman Azərbaycan Ordusu işğal altındakı digər torpaqlarını da azad etdi və hər kəsin iftixar hissinə çevrilən daha bir şanlı Zəfər qazandı. Qardaş Azərbaycan xalqına Sizin rəhbərliyinizlə daha firavan və xoşbəxt həyat şəraiti arzu edirəm. Sizin himayəniz altında fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yeni-yeni uğurlar əldə edəcəyinə inanıram. Ən səmimi arzu və diləklərimi qəbul etməyinizi xahiş edirəm.

***

**ICESCO-nun sabiq Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri:**

– Möhtərəm cənab Prezident İlham Əliyev.

Zati-alinizi doğum gününüz münasibətilə təbrik etməkdən böyük şərəf duyuram. Siz dünyada sülhün, dialoqun və birgəyaşayışın təşviqinə göstərdiyiniz səmimi səylərə görə zəmanəmizin ən müdrik liderlərindən birisiniz. Sizə ölkənizin daha da inkişafı yolunda davamlı uğurlar arzu edirəm.

***

**BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri, 2015–2016-cı illərdə Türkiyənin Avropa İttifaqı işləri üzrə naziri Volkan Bozkır:**

– Cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. İnşallah bu günə qədər Azərbaycan üçün gördüyünüz möhtəşəm işlərinizin, bütün dünyanın qibtə ilə izlədiyi nailiyyətlərinizin davamlı olmasını diləyirəm.

Xanımım Nazlı ilə birlikdə Azərbaycanın birinci xanımına və Zati-alinizə ən dərin ehtiramımı bildirirəm.

***

**2018–2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini, 2019–cu ildə ədliyyə naziri, 2012–2020-ci illərdə parlamentin üzvü Ana Birçal:**

– Hörmətli cənab Prezident.

Sizə doğum gününüz münasibətilə ən səmimi arzularımı çatdırır və neçə belə gözəl illərə çıxmağınızı diləyirəm. Siz müdrikliyiniz və strateji liderliyiniz sayəsində Azərbaycanın ərazi bütövlüyünə nail olaraq ölkənizi beynəlxalq səviyyədə tanıtmısınız. Bizim ortaq məqsədlərimiz – Rumıniya ilə Azərbaycan arasında strateji tərəfdaşlığı gücləndirmək və dərinləşdirmək istiqamətində Sizinlə birgə çalışmaq böyük məmnunluq doğurur. Dahi Nizami Gəncəvinin dediyi kimi, bizim dostluğumuz səmimi və saf olmalıdır. Biz Sizin və Azərbaycanın əsl dostuyuq.

***

**2004–2007-ci illərdə Pakistanın Baş naziri Şövkət Əziz:**

– Zati-aliləri cənab Prezident Əliyev.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olmaq böyük şərəfdir.

Mərkəz sülhü, inkişafı və firavanlığı təşviq etməkdə mühüm rola malikdir.

Dünyanın Sizin kimi liderlərə ehtiyacı var ki, onlar insanların həyat şəraitini, təhsilin səviyyəsini yüksəltməyə kömək etsin. Zati-aliləri, Siz sülhün, tolerantlığın və dinc yaşayışın bərqərar olması üçün çox iş görmüsünüz və əminik ki, bundan sonra da çox iş görəcəksiniz. Sizin nəcib təşəbbüslərinizin bir hissəsi olmaqdan fəxr edir və Sizə davamlı uğurlar arzulayırıq.

***

**2003–2018-ci illərdə Monteneqronun Prezidenti Filip Vuyanoviç:**

– Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Monteneqronun Prezidenti olduğum illərdə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi Sizinlə görüşlərimi, apardığımız danışıqları məmnunluqla xatırlayır, Sizə dərin ehtiramımı bildirirəm. Monteneqro ilə Azərbaycan arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə Sizin bundan sonra da töhfələrinizi görməkdən məmnun olacağam.

***

**2013–2020-ci illərdə Maltanın Baş naziri Cozef Muskat:**

– Hörmətli Prezident, əziz dostum.

Doğum gününüz münasibətilə ailəm adından və şəxsən öz adımdan Sizə ən xoş arzularımı bildirirəm. Malta üçün etdiklərinizə görə Sizə minnətdaram. Mənim həmvətənlərim Sizə minnətdarlıqlarını bildirirlər. Biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzində birgə fəaliyyət göstərməyə davam edəcəyik.

***

**İtaliya Prezidentinin sabiq diplomatik müşaviri, Malta Hərbi Ordeninin Vatikandakı səfiri, "Pirelli" şirkətinin baş müşaviri Antonio Zanardi Landi:**

– Hörmətli cənab Prezident Əliyev.

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırım. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müxtəlif ölkələr arasında dostluq və anlaşmanı gücləndirmək üçün göstərdiyi müstəsna fəaliyyətə verdiyiniz dəstəyə görə Sizə çox minnətdarıq. Zati-alinizə, ailənizə və ölkənizə ən xoş arzularımı çatdırıram.

***

**2015-ci ildə Moldovanın Baş naziri Kirill Qaburiçi:**

– Zati-aliləri cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Belə xoş günləri bundan sonra da doğmalarınızın və yaxınlarınızın əhatəsində qeyd etməyinizi arzulayıram. Qarşıdan gələn ildə Azərbaycana yeni-yeni uğurlar, firavanlıq və davamlı inkişaf diləyirəm.

***

**Möhtərəm cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi, uzun ömür, möhkəm cansağlığı arzularımı çatdırır, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Sizə yaşadığım Almaniyada, eləcə də sıx əlaqədə olduğum digər Avropa ölkələrində hər zaman xalqının önündə qürurla dayanan və verdiyi hər bir sözü yerinə yetirən əvəzedilməz Lider kimi rəğbət bəslənilir. Bunu istər siyasi, istərsə də akademik arenada əcnəbi vətəndaşlardan eşitmək ürəyi daim Vətənlə döyünən bir azərbaycanlı kimi mənə böyük qürur hissi yaşadır.

Cənab Ali Baş Komandan, dövlətçilik ənənələrinə sadiq olan, dövlətçilik prinsiplərini əsas tutan gənclərə göstərdiyiniz xüsusi diqqət və qayğı məndə və digər gənc dostlarımızda hər zaman böyük ruh yüksəkliyi yaradıb. Siz gənclərə hər addımda insanın öz kökünə və tarixinə sadiqliyi, xüsusən də ata və onun vəsiyyətinin müqəddəsliyi dərsini nümayiş etdirirsiniz. O sadiqlik və ata vəsiyyəti ki, məhz onunla biz doğma Vətənimizi bu gün bütövləşən görmüşük.

Azərbaycanı daim zirvələrə ucaltdığınız, Vətənimiz naminə bütün mübarizələrdə xalqımızı və dövlətimizi qalib etdiyiniz üçün Sizə sonsuz təşəkkürümü bildirirəm.

Sizi əmin etmək istəyirəm ki, gələn il keçiriləcək və tariximizə Zəfər seçkiləri kimi düşəcək növbədənkənar prezident seçkilərində hər zaman dövlətçilik ənənələrinə sadiq olan biz gənclər Sizi – müzəffər Sərkərdəmizi dəstəkləyəcəyik. Əminik ki, bu dəfə də qalib Siz, Azərbaycan xalqı və Azərbaycan dövləti olacaqdır.

Sizi həm öz adımdan, həm də hər zaman qayğınızı görən ailəmiz adından bir daha təbrik edirəm.

**Hörmətlə,**

***Nuran ABDULLAYEV,***
***Almaniya–Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Almaniyanın Troisdorf şəhərinin Radiologiya, Nuklear Tibb və Neyroradiologiya Klinikasının rəhbəri, tibb elmləri doktoru, dosent***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.

Sizin həyat yolunuz quruculuqdur və bu, bütün qüvvənizi və fərqli liderlik bacarığınızı həsr etdiyiniz xalqa xidmətlə sıx bağlıdır.

Sizin bütün daxili resursları birləşdirərək ölkənin inkişafına yönəltmək bacarığınız ictimaiyyətə zamanın çağırışlarının öhdəsindən uğurla gəlməyə şərait yaradan mühüm amildir. Respublikada Sizin rəhbərliyinizlə həyata keçirilən irimiqyaslı iqtisadi və humanitar layihələr onun tərəqqisi üçün geniş imkanlar yaradır.

Rusiyada Azərbaycana xüsusi səmimiyyətlə və sevgi ilə yanaşırlar. Siz dövlətlərarası sazişlərin praktiki icrasına yardım etməklə ölkələrimizin xalqları arasında əlaqələrin möhkəmlənməsi üçün Rusiya və Azərbaycanın uğurlu gələcəyinin zəmanətinə çevriləcək möhkəm təməl yaradırsınız.

TASS öz fəaliyyətində respublikanın həyatında baş verən əsas hadisələrin işıqlandırılmasına mühüm diqqət ayırır. Ümid edirəm ki, bizim informasiya əməkdaşlığımız keyfiyyətcə yeni müstəviyə çıxacaq.

İcazə verin, Sizə doğum gününüzdə dərin ehtiramımı ifadə edim, möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqının rifahı naminə yeni-yeni müvəffəqiyyətlər arzulayım.

**Hörmətlə,**

***Andrey KONDRAŞOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***

*

**Möhtərəm İlham Heydər oğlu!**

Xahiş edirəm doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Gözəl diplomat, ən yüksək daxili mədəniyyətə, parlaq istedada malik bir şəxsiyyət kimi Siz mühüm layihələr həyata keçirirsiniz. Sizin böyük enerjiniz var və bir çox sahələrdə aktiv fəaliyyət göstərir, doğma ölkənizin inkişafına mühüm töhfə verirsiniz.

Sizin daimi dəstəyiniz və diqqətinizlə əhatə olunmuş Azərbaycan Respublikasının mədəni proqramları bir rəssam kimi mənim üçün xüsusilə yaxındır.

Rusiya Rəssamlıq Akademiyasının üzvlərinin aktual rəssamlıq layihələrinə və beynəlxalq fəaliyyətinə diqqətinizə, Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin möhkəmləndirilməsi üzrə birgə layihələrə dəstəyinizə görə Sizə minnətdaram.

Sizinlə və əziz, unudulmaz atanız Heydər Əliyevlə mənim üçün xoşbəxt olan ünsiyyət dəqiqələrini və görüşlərimizin bənzərsiz ab-havasını daim xatırlayıram.

Möhtərəm İlham Heydər oğlu, Sizə dərin ehtiramımı bildirmək, fəaliyyətinizdə daimi uğurlar, özünüzə və ailənizə möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik və tərəqqi diləmək fürsətinə görə ürəkdən şadam.

**Hörmətlə,**

***Zurab SERETELİ,***
***Rusiya Rəssamlıq Akademiyasının prezidenti***

*

**Zati-aliləri, hörmətli İlham Heydər oğlu!**

İcazə verin, "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi adından və şəxsən öz adımdan Sizə olan dərin ehtiramımı bildirim, doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırım.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik inkişaf yolu ilə irəliləyir, bütün sahələrdə böyük uğurlar qazanır və ardıcıl surətdə dünyada öz nüfuzunu möhkəmləndirir. Sürətlə inkişaf edən və daim böyük nailiyyətlər qazanan Azərbaycan digər dövlətlərlə uğurlu qarşılıqlı əlaqələr üçün əlverişli mühitə malikdir və bununla beynəlxalq aləmdə imicini qoruyub saxlayır. "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi ölkənizin iqtisadi, sosial tərəqqisi və nəqliyyat sənayesinin əsas rol oynadığı əməkdaşlığın inkişafı istiqamətində Sizin xidmətlərinizi yüksək qiymətləndirir.

Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının "TRACECA"nın həm milli, həm də beynəlxalq səviyyədə fəaliyyətinə göstərdiyi dəstəyə görə dərin minnətdarlığımı bildirirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Asset ASSAVBAYEV,***
***"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi***

*

**Əziz İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə xüsusi ehtiramla təbrik edirəm. Sizə möhkəm cansağlığı, ailə səadəti, tükənməz enerji, ölkənin və xalqın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Tələbəlik illərindən dostlarınız kimi, Sizin rəhbərliyinizlə Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq arenada qazandığı uğurlarla fəxr edirik. Bu nailiyyətlər Azərbaycan xalqının qazandığı tarixi qələbələrdə özünün daha parlaq təzahürünü tapıb. Sizin yürütdüyünüz müdrik və düşünülmüş siyasət sayəsində bu qələbələrin əsasları qoyuldu. Ali Baş Komandan kimi istedadınız, Azərbaycanın əsgər və zabitlərinin qəhrəmanlığı isə ölkənin əzəli tarixi torpaqlarının azad olunması və əsl sahiblərinə qaytarılması ilə nəticələndi. Sizin rəhbərliyinizlə azad edilmiş ərazilərin qısa müddətdə bərpası göstərdi ki, Qarabağ Azərbaycanın incisinə çevrilir.

İcazə verin Sizə bir daha ən xoş arzularımı bildirim, planlarınızın və ideyalarınızın tezliklə reallaşmasını arzulayım.

**Hörmətlə,**

***Yuri ÇAXUNAŞVİLİ,***
***"SOCAR Energy Georgia" MMC-nin baş direktorunun müşaviri***

*

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində məqsədyönlü fəaliyyətiniz Sizin zəmanəmizin görkəmli siyasi və dövlət xadimi kimi böyük istedadınızı üzə çıxardı. Ölkənizin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi, sosial və mədəni inkişaf strategiyasının ardıcıl və dəqiq həyata keçirilməsi Sizə cəmiyyətdə və beynəlxalq arenada böyük hörmət, etimad və nüfuz qazanmağa imkan verib.

Yüksək peşəkarlıq, zəngin həyat təcrübəsi, ən mürəkkəb şəraitlərdə siyasi kompromis tapmaq bacarığı, Azərbaycan vətəndaşlarının maraqları naminə sosial siyasətin ardıcıl həyata keçirilməsi Sizə ölkənin qarşısında duran vəzifələri uğurla həll etmək imkanı verib.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, çoxmillətli Azərbaycanın gələcək inkişafı naminə planlarınızın və təşəbbüslərinizin həyata keçirilməsində yeni-yeni uğurlar, əmin-amanlıq, sülh, xoşbəxtlik və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

*

**Hörmətli cənab Prezident!**

Zati-alinizə doğum gününüz münasibətilə Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu xoş fürsətdən istifadə edərək OPEC və qeyri-OPEC ölkələrinin Əməkdaşlıq Bəyannaməsinə əsasən dayanıqlı neft bazarının sabitliyini təmin etmək üçün göstərilən səylərdə ən etibarlı tərəfdaşlardan biri olan Azərbaycan Respublikasının Prezidenti kimi Sizin idarəçilik, diplomatik və liderlik xüsusiyyətlərinizə heyranlığımı vurğulamağı özümə borc bilirəm.

Bu il Bakıya səfərim zamanı gərgin iş qrafikinizə baxmayaraq vaxt ayırıb məni qəbul etdiyiniz üçün Zati-alinizə bir daha minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, gözəl ölkənizə səfərlərimiz zamanı keçirilən yüksək səviyyəli görüşlərdə təşkilatımıza göstərilən misilsiz qonaqpərvərliyə görə Sizə daim minnətdarıq.

Cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uğurlar arzulayır və Azərbaycan Respublikasına uzun illər rəhbərlik etməyinizi diləyirəm.

**Hörmətlə,**

***Haysam Əl-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Rusiya Uşaq Fondu və Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından səmimi təbriklərimi qəbul edin.

Uşaq Fondu 35 ildir uşaqların müdafiəsini həyata keçirir və biz əl-ələ verərək gələcəyin layiqli vətəndaşları nəslinin formalaşdırılması istiqamətində yüksək məqsədə doğru irəliləyirik. Belə əlamətdar günlərdə biz Vətənin və onun xalqının maraqları üçün yaşamış valideynlərimizi sevgi ilə xatırlayırıq.

Sizə möhkəm cansağlığı, hər zaman xoş əhvali-ruhiyyə, tükənməz enerji arzulayıram. Qoy xeyirxah işlər həmişə uğurla və böyük həvəslə həyata keçsin! Bu işlərin mükafatı isə Azərbaycan Respublikasının xoşbəxt uşaqlarının təbəssümü olacaq.

**Hörmətlə,**

***Dmitri LİXANOV,***
***Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, Rusiyanın Əməkdar jurnalisti***

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz istedadlı dövlət xadimi kimi bu gün respublikanın gələcək inkişafı və möhkəmləndirilməsi istiqamətində genişmiqyaslı məsələləri həll edirsiniz.

Azərbaycan dünya arenasında böyük nüfuza malikdir, mühüm beynəlxalq məsələlərin həllində fəal rol oynayır. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hərbi-texniki əməkdaşlıq üzrə ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf edir.

Əminəm ki, Rusiya və Azərbaycan dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrini gələcəkdə də möhkəmləndirəcək və inkişaf etdirəcək.

Sizə möhkəm cansağlığı arzulayır və ən xoş diləklərimi çatdırıram.

**Hörmətlə,**

***Sergey ÇEMEZOV,***
***Rusiya Federasiyasının "Rostex" Dövlət Korporasiyasının Baş direktoru***

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 12,19,26 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 12,25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2024-cü ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | 7 |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | 8 |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | 9 |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Əmiraslanov Azər Kamal oğlu** | 10 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | 11 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | 12,26 |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | 15 |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | 16,29 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | 17,30 |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | 18 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | 19 |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | 22 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | 23,31 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | 24 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | 25 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Hər kəsin və hamının Prezidenti



**Dekabrın 21-də Xankəndidə keçirilən "Qarabağ"–MOİK qarşılaşması – milli futbolumuzun Qarabağa qayıtması Prezident, Ali Baş Komandan İlham Əliyevin ad gününə ən böyük hədiyyə oldu.**

Dövlət başçımızın həmin gün stadionda məmurlar, futbol mütəxəssisləri və ya kiminləsə deyil, şəhid övladları ilə eyni sırada əyləşməsi də duyğusal məqam idi. Otuz ildən sonra Qarabağa qayıtmış Azərbaycan futbolunun ilk rəsmi yarışında topu oyuna məhz məlum Zəfəri bizə bəxş edən sərkərdənin daxil etməsi də.

Üstəlik, yarış üçün meydana çıxan komandaların biri adı son otuz ildə dünyanın, az qala, bütün tribunalarından səsləndirilən Qarabağın "adaşı" idisə, digəri də beynəlxalq hərbi ekspertlərin "son yüz ildə ən uğurlu müharibə" adlandırdığı 44 günlük İkinci Qarabağ müharibəsinin qalib əsgərləri – Mərkəzi Ordu İdman Klubu idi. Bundan başqa, oyunu idarə edən hakimlərin dördünün də İkinci Qarabağ müharibəsinin iştirakçıları olmaları mənzərəyə xüsusi rəng qatırdı. Bu, ermənilərə və onların beynəlxalq aləmdəki havadarlarına göndərilən mesaj anlamındakı müstəsna məqam sayılmalıdır. Öz torpaqlarında ədaləti qalib Azərbaycan əsgərlərinin qorumasına dair mesaj.

Ermənilərin son iki əsrdə yaratdıqları çoxsaylı miflərin darmadağın edilməsini xatırladaq, yoxsa, "Miatsum"un, böyük Ermənistan xülyasının gorbagor olmasını? Bakıda keçirilən möhtəşəm Zəfər paradını yada salaq, yoxsa Şuşa Bəyannaməsini? Şuşa işğaldan azad edilən gün cənab Prezidentin ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək, böyük qələbələrimizin banisinə hesabat verməsindən danışaq, yoxsa Bakıda yaradılan Hərbi Qənimətlər Parkındakı saysız "eksponatlardan"? Şuşadakı mədəni və beynəlxalq tədbirlərdən söz açaq, yoxsa Xankəndidəki hərbi paraddan? Zəngilandakı "Ağıllı kənd" layihəsini və Füzulidəki müasir yaşayış kompleksini xatırlatmaq daha münasibdir, yoxsa işğaldan azad edilmiş ərazilərdə istifadəyə verilmiş beynəlxalq hava limanlarını?

Təbii ki, bütün bunlar müasir Azərbaycan reallıqlarıdır. Bu reallıqları qəbul edənlər çox olsa da, hələ "həzm edə bilməyənlər" də az deyil. Ancaq Azərbaycan Prezidentinin bir məramı var ki, onu dostlu-düşmənli hamı qəbul edir. Bu, bizim Ali Baş Komandanımızın humanistliyi və sülhsevərliyidir. Hətta bədxahlarımız da cənab Prezidentin həmin keyfiyyətlərini etiraf edirlər.

Dövlət başçımız on illər boyu təkrar etdiyi "biz müharibə istəmirik!" qətiyyətini bu il noyabrın 8-də Xankəndidə keçirilən hərbi paraddakı çıxışında bir daha yada salmış və əlavə etmişdir ki, sülhə can atmağımız o demək deyil ki, kimsə daxili işlərimizə qarışmağa cəhd göstərə bilər: "Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər silahlı qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın".

Nəyi, necə, nə zaman etməyi hamıdan yaxşı bilən, hər sözü bir rəsmi sənəd kimi etibarlı olan, "edəcəyik!" dediyi planların hamısını qeyd-şərtsiz reallaşdıran İlham Əliyev dəfələrlə xatırladıb ki, bütün uğurlarının təməlində xalqın dəstəyi dayanır. Hər seçkidən sonra təkrar edir ki, Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir: "İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir".

Bütün ekspertlər bu fikirdədirlər ki, dövlətimizin başçısının andı ilə əməli həmişə bir-birini tamamlayıb. Hansı məqsədə nail olmağı qarşıya qoyursa, həmin məqsəd günümüzün reallığına çevrilir. Bu onun mükəmməl təhsili, yüksək savadı və fərdi keyfiyyətləri ilə yanaşı, həm də Heydər Əliyev siyasi məktəbinin "məzunu" olması ilə bağlıdır. Çünki andın, vədin, sözün əməllərlə tamamlanması Heydər Əliyevə xas olan göstəricilərdəndir.

Prezident İlham Əliyevin ilk andiçmə mərasimində üzərinə götürdüyü Azərbaycan Respublikasının Konstitusiyasına əməl etmək barədə məsuliyyətin yerinə yetirilməsini hər gün, hər an, onun gündəlik fəaliyyətində görürük. Dövlətin müstəqilliyini qoruyacağı barədə üzərinə götürdüyü öhdəliyin icrasına Bakının beynəlxalq tədbirlərin keçirildiyi ünvana çevrilməsi zamanı şahidlik edirik. Üstəlik, ötən ilin yay aylarında Azərbaycan Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədini parafladı. Dövlət başçımızın da qeyd etdiyi kimi, bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub.

Dövlətimizin ərazi bütövlüyünün qorunacağı barədə öhdəliyə gəlincə isə həmin istiqamətdə həyata keçirilmiş tədbirlər haqqında məhz cənab Prezidentdən noyabrın 8-də Xankəndidə eşitdiyimiz fikirləri yada salmaq zərurəti yaranır: "Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir".

Cənab Prezident həmin tarixi hadisənin təməlində dayanan prosesləri də yada salır: "İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi... Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi".

Sonda bir daha Xankəndidə keçirilmiş futbol yarışına qayıtmaq istəyirəm. Dövlət başçımız Şuşanın azad edilməsindən sonra İkinci Qarabağ müharibəsinin dayandırılması mövzusuna toxunaraq demişdi: "O vaxt bizim silahlı qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada – Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi".

44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarılsın. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu: "Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi".

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

## Əfsanələri həqiqətə çevirən lider

**Azərbaycan xalqı bu gün çoxəsrlik tarixi inkişaf yolumuzda özünün ən şərəfli və əfsanəvi dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev əfsanələri real tarixə çevirməyi bacarmışdır. Azərbaycan Respublikası həm ölkə daxilində və həm də beynəlxalq aləmdə heç vaxt indiki qədər güclü olmamışdır.**

Prezident İlham Əliyevin Azərbaycan Respublikasına böyük uğurla rəhbərlik etdiyi möhtəşəm 20 il əsrlərə bərabər mühüm tarixi mərhələdir. İkinci Qarabağ müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ilə qazandığı böyük Zəfər çoxərslik Azərbaycan tarixinin təkrarı olmayan nadir hadisəsidir. Müstəqil ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam və qəti şəkildə təsdiq olunması Prezident İlham Əliyevin fəth etdiyi əlçatmaz uca zirvədir. Azərbaycanın işğaldan azad edilmiş Xankəndi şəhərində hərbi paradın keçirilməsi Heydər Əliyev – İlham Əliyev ideallarının möhtəşəm təntənəsidir. Xankəndi stadionunda Azərbaycan idmançılarının keçirdiyi futbol yarışında Prezident İlham Əliyevin topa vurduğu zərbə Azərbaycan xalqının və müstəqil dövlətimizin daha parlaq gələcəyinin paroludur və eyni zamanda düşmənə endirilmiş ağır zərbədir.

Xalqımızın bütün təbəqələri kimi Azərbaycanın elmi ictimaiyyəti, Milli Elmlər Akademiyasının çoxminli kollektivi də ürəkdən inanır ki, müstəqil dövlətimiz xalqımızın lideri İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da daha böyük uğurlara imza atacaqdır. Azərbaycan alimləri hazırkı məsuliyyətli və şərəfli mərhələdə də Prezident İlham Əliyevin xarici və daxili siyasətini ürəkdən dəstəkləyir və ölkəmizdə cənab Prezidentin qətiyyətlə irəliyə doğru atdığı addımların böyük magistral yollara çevrilməsinə xidmət göstərməyi özlərinə şərəfli borc hesab edirlər. Hər bir Azərbaycan vətəndaşı kimi elm adamları da xalqımıza hazırkı dövrün misilsiz iftixar mənbəyi olan tarixi hadisələrindən doğan qeyri-adi günləri yaşatdığı üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə borclu və minnətdardırlar.

Müasir tarixi epoxanın qüdrətli Lideri, xalqımızın böyük oğlu, Prezident İlham Əliyevin hər ad günü ölkəmizin inkişafının daha parlaq bir səhifəsi və yeni xoşbəxt sabahlara açılan geniş üfüqlərdir.

Möhtərəm Prezidentimizi xalqımız üçün əlamətdar olan bu gündə ürəkdən təbrik edir, dövlətimizin rəhbərinə möhkəm cansağlığı və apardığı qətiyyətli mübarizədə yeni-yeni qələbələr arzulayırıq.

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

# "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" milli prioritetdir

**(əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, hələ 2021-ci il mayın 18-də Prezident İlham Əliyev Ağdamda ictimaiyyət nümayəndələri ilə görüşündə bütün Qarabağın "yaşıl enerji" zonası olacağını bildirib. Azərbaycanın bərpaolunan enerji istehsalı siyasətinin strateji əsasını isə dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul edilən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edib. Həmin 5 Milli Prioritetdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi istiqaməti qarşıya yeni vəzifələr qoyub.

Azərbaycanın alternativ və bərpaolunan enerji potensialı olduqca yüksəkdir. Belə ki, son tədqiqatlar ölkəmizdə 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Bütövlükdə isə, hazırda Azərbaycanın ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir.

Respublikamız 3 əsas enerji şirkəti ilə anlaşma memorandumu və müvafiq müqavilələr imzalayıb. Onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisin istehsal ediləcəyi, bu həcmin 10 qiqavatının "Masdar" şirkəti, 12 qiqavatının "Fortescue" şirkəti üzərinə düşdüyü nəzərdə tutulub. "ACWA Power" şirkəti isə 2,5 qiqavat enerjinin istehsalı üzrə öhdəlik götürüb.

Ölkəmizdə istehsal ediləcək bərpaolunan enerjinin ixracına gəldikdə isə deyə bilərik ki, cari il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının keçirilməsi Azərbaycanın ənənəvi enerji resurslarının istehlakı və ixracı ilə yanaşı, öz yüksək potensialı hesabına bərpaolunan enerji istehsalı məsələsinə verdiyi önəmin ifadəsinə çevrildi. "Yaşıl enerji" ilə bağlı Məşvərət Şurasının ilk iclası bu sahədə konseptual məsələlərin həlli baxımından xüsusi diqqət çəkdi. Bu, eyni zamanda, 2022-ci il dekabrın 17-də Rumıniyanın Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması isə ölkəmizin bu sahədə potensialının reallaşdırılmasını və dünyanın enerji bazarında əhəmiyyətli rolunun daha da yüksəlməsini şərtləndirdi.



Məlum olduğu kimi, bu sazişdə Azərbaycan və Rumıniya arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulub. Sənədə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan "yaşıl enerji"nin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da "Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi"nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib. Qara dənizin dibi ilə çəkiləcək 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda olan kabel ölkəmizdə istehsal edilən "yaşıl enerji"ni Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Ümumiyyətlə, respublikamızın bərpaolunan enerji potensialı əsasında istehsal edilən "yaşıl sərvət"in tezliklə ixracının həyata keçirilməsi, ölkəmizin bu sahədə genişmiqyaslı uğurlu layihələr reallaşdırması Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasından xəbər verir. Bu eranın əvvəlində Azərbaycanın COP29-a evsahibliyi hüququ qazanması isə həm ölkəmizə etimad göstəricisi kimi diqqət çəkir, həm də qarşıya qoyulan vəzifənin–2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının respublikamızda 30 faizə çatdırılmasının gerçəkləşdiriləcəyi əminliyini ifadə edir.

Prezident İlham Əliyevin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamında da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsinin beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olduğu da diqqətə çatdırılıb.

Xatırladaq ki, ətraf mühit, iqlim məsələləri milli sərhədlər tanımadığı, ümumbəşəri mahiyyət daşıdığı üçün ölkəmizdə keçiriləcək tədbirdə on minlərlə xarici qonağın iştirak edəcəyi gözlənilir. Bax, elə buna görə də COP29-un Azərbaycanda gerçəkləşəcəyi ilə bağlı qərar verilən ilk günlərdən Azərbaycanda bu əlamətdar hadisəyə hazırlıq görülür. Ölkəmizin hər bir vətəndaşı bununla əlaqədar bütün dünya ilə eyni hiss və həyəcanı bölüşür, müxtəlif dövlətlərdən gələn qonaqların isə müasir Azərbaycanı dünyanın hərtərəfli inkişaf edən tərəqqipərvər, sülhpərvər, tolerant bir ölkə kimi tanımaları baxımından mühüm önəm daşıyır.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi



**Emin BAĞIROV,**
**mexanika üzrə fəlsəfə doktoru**

Prezident İlham Əliyevin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamı deyərdim ki, mühüm tarixi əhəmiyyətə malik bir sənəddir. Bərpaolunan enerji istehsalı və ixracı ilə bağlı prioritet xarakter daşıyan bu mükəmməl sərəncam ölkəmizdə həm ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsini nəzərdə tutur, həm də Azərbaycanın gələn il COP29-un paytaxtımızda keçirilməsinə qərar verməsini respublikamızın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisi kimi dəyərləndirir.

Beynəlxalq birliyin belə bir qlobal tədbirə evsahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi ölkəmizin bu sahədə zəngin təcrübəyə malik olmasından, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü zamanı 155 ölkənin, Qoşulmama Hərəkatına sədrliyi zamanı isə 120 ölkənin dəstəyini qazanmasından və etimadı tam doğrultmasından, Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından, habelə dünya səviyyəsində dövlətimizin başçısının yürütdüyü siyasətə göstərilən güclü dəstəkdən irəli gəlir.

Azərbaycanın COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini bir sıra digər məqamlar da şərtləndirir. Əvvəla, bu, Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə nail olması ilə bağlıdır. Vətən müharibəsində qazanılan parlaq qələbədən sonra ölkəmizin dünyada daha güclü dövlət kimi tanınması da bu məsələdə önəmli rol oynayır. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu günbəgün artmaqdadır.

Azərbaycan BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir və Prezident İlham Əliyev adıçəkilən müşavirədə bununla bağlı deyib: "Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir".

Ölkəmizin COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini şərtləndirən amillərdən biri də respublikamızın qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirməsi, Azərbaycanda müasir infrastrukturun mövcudluğu və təhlükəsizliyin ən yüksək səviyyədə təşkili ilə bağlıdır. Bütün bunlarla bərabər, Azərbaycanın ətraf mühitə verdiyi önəm də beynəlxalq aləmin diqqətini çəkir. Bu, statistik göstəricilərdən də aydın görünür. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının həcmini 35 faizə və 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşıya mühüm vəzifə kimi qoyur.

Onu da bildirək ki, erməni faşizminin işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin başçısı tərəfindən "Yaşıl enerji" zonası elan edilib. Eyni zamanda, həmin ərazilərin dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, "ağıllı" şəhərlər, "ağıllı" kəndlər kimi innovativ yanaşmalara əsaslanmaqla və minlərlə hektar sahədə meşələri bərpa etməklə 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Göründüyü kimi, neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu zaman Prezident İlham Əliyevin bu sahədə–bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

# Yeni təhlükəsizlik arxitekturası: dünya nizamının böhranı və xilası

(əvvəli 1-ci səhifədə)

Biz vurğulanan qeydləri etməklə, mövzunu nə qəlizləşdiririk, nə də ifrat elmiləşdiririk. Məsələnin mahiyyəti ondan ibarətdir ki, “təhlükəsizlik artxitekturası” anlayşı müasir tədqiqi yanaşmalarda özü də mürəkkəb məzmuna və çoxaspektli funksiyaya malik fenonem kimi təsəvvür edilir və eyni zamanda, onunla əlaqədar olan “regional inteqrasiya”, “regionlararası inteqrasiya” və “qlobal inteqrasiya” kimi mürəkkəb strukturlu və məzmunlu terminlərlə əlaqəlidir.

Məsələnin bu tərəfi özlüyündə II məqalədə mövzunun qoyuluşundan hiss edilirdi. İndi biz bir qədər konkret səviyyədə yeni dünya təhlükəsizlik arxitekturasının yaranmasında regional, regionlararası və qlobal inteqrasiya proseslərinin yeri və rolunu Azərbaycanın geosiyasi oyunçu ola bilməsi bağlılığında araşdırmağa çalışacağıq.

Öncə onu vurğulayaq ki, regional inteqrasiya həm real proses, həm də onun siyasi-nəzəri dərki aspektlərində yeni təhlükəsizlik arxitekturası üçün formal anlayış deyildir. Söhbət qlobal miqyasda təhlükəsizliyin təmini üçün yeni keyfiyyət dəyişikliyindən gedir. Yəni, “regional inteqrasiya” ifadəsinin obyektiv olaraq nəyi ifadə etdiyi və eyni zamanda, bu yeni rolun fəlsəfi-politoloji dərki eyni dərəcədə vacibdir. Çünki hazırda dünya miqyasında müxtəlif xarakterli proseslərin sürəti və dəyişmə ritmi praktikada baş verənlərin çevik fəlsəfi və politoloji dərkini tələb edir.



Beləliklə, təhlükəsizlik arxitekturasının geosiyasi və siyasi anlamı aspektində “regional inteqrasiya” nədir?

Regional inteqrasiya: formaları və başlıca əlamətləri

## a) Formalar

Yeni təhlükəsizlik arxitekturasında regional proseslərin rolunu və yerini adekvat anlamaq üçün həmin proseslərə öncəki məqalədə vurğuladığımız “yeni regionçuluq nəzəriyyəsi” prizmasında baxacağıq.

O.V.Butorina bu məsələyə həsr etdiyi elmi məqaləsində vurğulayır ki, bir proses kimi regional inteqrasiyanın İkinci Dünya Müharibəsindən sonra meydana gəldiyini deyə bilərik. Əlbəttə, tarixin müxtəlif mərhələlərində eyni regionda yerləşən dövlətlər arasında başqa proseslərlə yanaşı, inteqrasiya xarakterli hadisələr də baş vermişdir. Lakin burada müəllif bizim indiki anlamda qəbul etdiyimiz mənada regionlar daxilində birləşmə proseslərinin həm müxtəlifliynə işarə edir, həm də onların təhlükəsizlik sisteminin formalaşmasına ciddi təsir etməyə başladığını ifadə edir.

Doğrudan da, keçən əsrin ortalarından dünya miqyasında təhlükəsizliyin və dövlətlər arasında münasibətlərin sivil olmasının mühüm şərti kimi regionlar daxilində birləşmə tendensiyasına daha çox üstünlük verməyə başladılar. Bu baxımdan Avropa İttifaqının formalaşmasının təməlinin məhz həmin dövrə təsadüf etməsi adi hadisə deyildir. Burada da inteqrasiyanın fərqli növləri və mərhələlərindən bəhs etmək olar.

Təkcə Avropada region kimi 1950–1959-cu illərdə müxtəlif səviyyəli 4 inteqrasiya forması meydana gəldi (Avropa Gömrük İttifaqı, Avropa kömür və polat birliyi, Avropa iqtisadi birliyi və Azad Ticarətin Avropa Assosiasiyası). Buna bənzər regional inteqrasiya prosesləri fərqli məzmun və məqsədlər daxilində sosialist düşərgəsi ölkələri, Afrika, Asiya və Latın Amerikası qitələrində də gedirdi.

Məsələn, ASEAN, EKOBAC kimi təşkilatlar 1960-1970-ci illərdə meydana gəldilər. 1980-1990-cı illərdə isə NAFTA (Şimali Amerika), Merkosur (Cənubi Amerika), MDB (postsovet məkanı) və bir neçə digər inteqrativ qurumlar yarandı. XXI əsrin gəlişi ilə beynəlxalq miqyasda geosiyasi dinamikaya təsir edən proseslər sırasında Avropa İttifaqının genişlənmə mərhələləri ayrıca yer tutur. Bu təşkilat 1973, 1981, 1986, 1995, 2004, 2007, 2013-cü illərdə genişlənmişdir. Hazırda 2030-cu ilə qədər 10 dövlətin Aİ-yə interqasiyası nəzərdə tutulur.

Deməli, dünyanın ən çox inkişaf etmiş regionu kimi Avropada regional inteqrasiya artıq münasibətləri formalaşdırmağın başlıca üsullarından birinə çevrilmişdir. Və bu, yeganə region deyildir. Demək olar ki, dünyanın bütün regionlarında bənzər proseslər özünü göstərir. Məsələn, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun hazırladığı bir məruzədə vurğulanır ki, 2000–2008-ci illər arasında regional ticarət sahəsində 250-yə yaxın müqavilə imzalanmışdır.

Məruzədə regional inteqrasiyanın növləri (iqtisadi, siyasi, geosiyasi və s.), funksiyaları, qarşılarına qoyduqları məqsədlər kimi məsələlərə də toxunulur. Aydın olur ki, dünya üzrə kifayət sayda regional inteqrasiya formaları mövcuddur. Hər bir qitədə onlar fəaliyyət göstərirlər. Məsələn, iqtisadi-ticari xarakterli ineqrasiya formalarının sayı Avropada 3, Asiyada 9, Amerikada 6, Afrikada isə 13-dür. Əslində, bu say bir neçə il öncəyə aiddir və dəyişir.

Lakin təhlükəsizlik arxitekturası baxımından əsas olanı say deyildir, inteqrasiyanın forması ilə səmərəliliyi arasında nisbətdir! Deyək ki, Afrikada regional inteqrasiya forması digər qitələrə nisbətən daha çoxdur, lakin bu, həmin Qitənin daha çox inkişaf etdiyi və daha təhlükəsiz məkan olduğu anlamına gəlmir. Əksinə, çoxlu sayda regional inteqrasiya formasının mövcud olduğu Afrika təhlükəsizlik baxımından xaosa və qanunsuz fəaliyyət növlərinə daha həssas görünür. Deməli, regional inteqrasiyanın təhlükəsizlik arxitekturasının formalaşmasındakı real rolunu müəyyənləşdirmək üçün çoxlu sayda parametri nəzərə almaq lazım gəlir. Mütəxəssislərin ümumi fikrinə görə, burada regional inteqrasiyada konkret əməkdaşlıq mexanizmləri ilə yanaşı, təşkilatın funksional səmərəliliyinin təmini və strateji məqsədi ciddi rol oynayır. Bu baxımdan inteqrasiyanın əlamətlərinin müəyyən edilməsi nəzəri və praktiki əhəmiyət daşıyır.

## b) Əlamətlər

**Birincisi,** regional inteqrasiyada dövlətlərarası münasibətlər keyfiyyətcə yeni mərhələyə keçməlidir. Obrazlı desək, bu münasibətlərin kompleksi və ya cəmi ona daxil olan ayrı-ayrı münasibətlərin cəmindən daha effektli olmalıdır (buna münasibətlərdə “sinergetik efffekt” də deyirlər).

**İkincisi,** regiona inteqrasiya ona daxil olan dövlətləri müəyyən mənada ətraf aləmdən “ayırmalıdır”. Buna “mürəkkəb sistemlərdə “əməliyyat qapalılığı” da deyirlər. O, təcridolma deyildir, əksinə inteqrasiyada olan dövlətlərin birgə fəaliyyətdə səmimilik və qərarlılıq göstəricisidir.

**Üçüncüsü,** regional inteqrasiya könüllülük və tərəfdaşlıq prinsiplərinə əsaslanmalıdır. Burada başlıca məqsədin qarşılıqlı faydalı əməkdaşlıqdan ibarət olduğu hər bir üzv tərəfindən qəbul edilməlidir!

**Dördüncüsü,** inteqrasiya iştirakçı-üzv dövlətlərin daxili və xarici siyasətlərinin müxtəlif sferalarına yayıla bilər. Bu keyfiyyətdə regional inteqrasiya beynəlxalq təşkilatlardan fərqlənir.

Nəhayət, sonuncu əlamət strateji xarakter daşıyır və regional inteqrasiya iştirakçılarının gələcək tarixi taleyi bölüşməyə hazır olduqlarını ifadə edir. Bu prinsipin ən yaxşı ifadə formalarından biri Avropa İttifaqını əsasını qoyanlardan biri olmuş R.Şumana məxsusdur. O yazırdı ki, “...bizim ümumi taleyimiz vardır. Qonşunun uğuru və ya uğursuzluğu bizim hər birimizə toxunur... Hər bir Avropa ölkəsi instinktiv hiss etməlidir ki, ümumi əlaqə və qarşılıqlı asılılığa daxildir”.

Vurğulanan regional inteqrasiya formaları və əlamətlərinin hər birinin indiki mərhələdə regional təhlükəsizlik sisteminin qurulmasında əhəmiyyəti vardır. Bunun əsasında konkret regionun qlobal təhlükəsizlik arxitekturasında substantiv və funksional rolu müəyyən edilə bilər.

Həmin məqsədlə bütün regionlar üçün xarakterik olan inteqrasiya forma və əlamətləri əsasında konkret olaraq Cənubi Qafqazda bu fenomenin təzahürünə iki bağlılıqda təhlili yanaşa bilərik – birincisi, regionda inteqrasiya formalarının fəlsəfi və siyasi-nəzəri özəllikləri, ikincisi, regional təhlükəsizliyin yeni modelinin formalaşması kontekstində Azərbaycanın regional inteqrasiya formalarında iştirakı və rolunun qlobal təhlükəsizlik arxitekturası aspektində analizi. Bu iki aspektin sintezinə Cənubi Qafqazda regional inteqrasiyanın mövcud formaları prizmasında baxmaq faydalı olardı.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Anti-Paşinyan koalisiyası: fiaskodan-fiaskoya

## Ermənistanda baş naziri əvəz edəcək lider, hakimiyyəti devirə biləcək qüvvə yoxdur



(əvvəli 1-ci səhifədə)

### Nə üzə bilir, nə də dözə...

Birmənalı şəkildə deyə bilərik ki, Ermənistanda N.Paşinyanı əvəzləyəcək qüvvə tapısa, həmin qüvvə artıq Qərbin təmsilçisi olmayacaq. Yeni lider rusiyameyillilərin sırasından çıxacaq. Amma həmin şəxsin Qarabağ klanının təmsilçisinin ola biləcəyi ehtimalı sıfıra bərabərdir. Fəqət, Ermənistanda Paşinyanı məqbul sayan qüvvələr də az deyil. Düzdür, Nikol seçicilərinə böyük vədlər verib və indi həmin vədləri yetinə yetirmək üçün imkanlar arayır. Məsələyə mövcud aspektdən yanaşanda, Paşinyanla yola davam istəyənlərin məhz iradəsiz, qərarsız şəxslər olduqları üzə çıxır.

Görünən budur ki, indi Ermənistanda Paşinyanı əvəzləyəcək lider yoxdur. Onun iqtidarı əleyhinə daxildə güclü müxalif cəbhəni də görmürük. Baş nazir tez-tez parlamentdə təmsil olunmayan müxalif qüvvələrlə görüşür ki, bu amilin özü, onlarla apardığı müzakirələr ölkədaxili siyasi proseslərdə gərginliyin səngiməsinə gətirib çıxarır.

Qeyd edək ki, Ermənistanda daxili proseslərə təsir gücünə malik qüvvələrdən danışanda, erməni lobbisini yaddan çıxarmaq olmaz. Cəmiyyətin hakimiyyətdən narazı kütləsi Qarabağdan gələn ermənilərin hesabına da arta bilər. Son üç ayın hadisələri onu deməyə əsas verir ki, bu amil müxalif cəbhənin əlində Paşinyana qarşı “kozır”a çevrilib.

Bütün bunları nəzər alan rəsmi İrəvan MDB-dən, Avrasiya İtifaqından, KTMT-dən, Gömrük Birliyindən çıxmaq, ümumiyyətlə, Rusiya ilə yolunu tamamilə ayırmaq yönündə başlatdığı siyasi demarşı son vaxtlar bir qədər səngidib. Xatırladaq ki, Ermənistanın baş naziri oktyabr ayında Avrasiya İttifaqı və MDB-nin hökumətlərarası toplantısına getmədi, eləcə də noyabrın sonlarında KTMT-nin Minsk sammitini buraxdı. Yeri gəlmişkən, şübhə yoxdur ki, baş nazır Nikol Paşinyanın Rusiyaya iki günlük işgüzar səfəri Moskvanın, həmçinin daxildə getdikcə güclənən rusiyameyilli qüvvələrin təzyiqini neytrallaşdırmağa xidmət edir. Baş nazir dekabrın 25-də Sankt-Peterburqda Avrasiya İqtisadi İttifaqına üzv ölkələrin liderlərinin toplantısında iştirak edib, dünən isə MDB dövlət və hökumət başçılarının zirvə görüşünə qatılıb. Sammit Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə keçirilib.

### Məkrli planlar kağız üzərində qaldı

Buna qədər də Paşinyanı hakimiyyətdən kənarlaşdırmaq üçün cəhdlər göstərilib. “Beşinci kolon”un təmçilçiləri sayılan məğlub ordunun keçmiş generallarının əli ilə Paşinyanı devirmək planı alınmadı. Keçən il İrəvandakı fasiləsiz kütləvi etiraz aksiyaların təşkilatçısı və “ilhamvericisi” rolunda da məhz Moskvanın çıxış etdiyi hamıya məlum idi. Həmin mitinqlərdə məhz “beşinci kolon”un nümayəndələri “Paşinyan, istefa ver!”, – deyə bağırırdılar. İqtidarı devirmək istədiklərini açıq bəyan edən bu qüvvələr məqsədlərinə çatan kimi, Azərbaycana qarşı müharibəyə başlayacaqlarını da gizlətmirdilər.

Anti-Paşinyan koalisiyasına həmçinin, Ermənistanda 20 il hakimiyyətdə olmuş “Qarabağ klanı” və onun ərtafında cəmləşmiş qüvvələr, eləcə də bölgədəki bizneslərini batırmış oliqarxlar daxildir. Onlar məqsədlərinə çatmaqdan ötrü Qarabağdan könüllü getmiş yüz min ermənidən maşa kimi yararlanmaq planlarını cızırdılar.

“Heç bir qüvvə Paşinyanı devirə bilməz, çünki bu, bir partiyanın deyil, ümummilli konsolidasiyanın missiyasıdır”. Bu sözləri Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın başçılıq etdiyi Respublika Partiyasının Gənclər İttifaqının həbs edilmiş sədr müavini Armen Aşotyan deyib. Bu şəxs vətəndaşların ona ünvanladıqları onlayn suallara “içəridən” cavab verib. Sosial şəbəkə istifadəçisi Roland Tarmazyan ondan partiyanın konkret hansı addımları atacağını soruşub. Aşotyanın dediyinə görə, təmsilçisi olduğu partiya indiyədək Nikolu devirmək istiqamətli bütün cəhdlərdə yaxından iştirak edib və dəstəkləyib. Bu zaman, o, maraqlı müqayisə də aparıb: “Əlbəttə, solo-skripkaçının kimliyi vacibdir, amma ondan daha vacibi bütün orkestrin “falş” ifa etməməsidir”.

Yəqin, bu açıqlamasından sonra istintaq “gənc siyasi liderə” qarşı dövlət quruluşunu dəyişməyə çağırışlar etdiyinə görə itiham da irəli sürəcək.

### “Qarabağ klanı”nın ikiqat fiaskosu

Bu gün Ermənistanın bir dövlət kimi çat verməsindən danışmaq olar. Çünki ölkə neçə müddətdir sonu görünməyən daxili qarşıdurmadan sarsılmaq üzrədir. İntəhası, bütün bunlarla yanaşı, hələlik revanşistlərin, o cümlədən Qarabağ klanının Paşinyanı istefaya göndərmək üçün real şansları olmayıb.

Hayların cibində deputat mandatı daşıyan fərari generalı Seyran Ohanyan “Artsax” məsələsi hələ həll olunmayıb” deyir. Bu, “dqr”siz, separatçı-xunta rejimsiz qalmış “Qarabağ klanı”na məxsus revanşist ritorika nümunəsidir. Belə bir axmaq fikir daşıyıcılarının məqsədi Ermənistanda nisbi siyasi sabitliyi pozmaq, kütləni Paşinyana qarşı qaldırmaqdır. Hayastan ictimaiyyətinin böyük qismi bu “məmurları” açıq şəkildə ələ salır, onların məsuliyyətə cəlb olunmasını tələb edir. Reallıq ondan ibarətdir ki, bu gün Ermənistanda canını tapşırmış qondarma saparatçı rejimin nümayəndələri hətta keçmiş təbəələri – Qarabağdan olan ermənilər arasında da nüfuz yiyəsi deyillər. Onlar nəyəsə təsir gücündən də uzaqdırlar. “Artsax” məsələsinin həllini tapmaması ilə bağlı verilən avantürist bəyanatlar isə xəyalpərvər revanşistlərin xarakterik cizgisidir. Guya, onlar bu yolla cəmiyyətdə sabitliyi pozmağı bacaracaqlar.

Xatırladaq ki, üç ay bundan əvvəl bütün Ermənistan müxalifətinin İrəvana köçmüş Qarabağ ermənilərinin də qatıldıqları etiraz mitinqinə maksimum beş-altı min adam toplanmışdı. Ermənistanın ikinci prezidenti Robert Koçaryanın gəlini müğənni Siruşonun fəryad və çağırışlarına, bu gün Bakıda istintaq təcridxanasında çayını içən “çirkli” biznesmen və uğursuz diplomat Ruben Vardanyanın cəhdlərinə, “ağılsız Qaqo” kimi tanınan, Çiçəklənən Ermənistan Partiyasının rəhbəri Qaqik Sarukyanın məkrli planlarına baxmayaraq, meydana gələn olmamışdı. Birləşmiş müxalifətin “miatsum” mifinin üzərində “son rəqsi oynamaq” cəhdi gözlənilən fiasko ilə başa çatmışdı. Təşkilatçıların “piar-qələbələri” İrəvanın bir neçə küçəsi ilə məhdudlaşmışdı. Deyəsən, revanşistlər fiaskoya uğramış bütün cəhdlərini həmin gün “triumfa” çevirmək barədə düşünürmüşlər. Respublika Partiyasının sözçüsü Eduard Şarmazanovun üç ay əvvəl dediyi sözlərdir: “Yüz min insan küçələrə çıxarsa, polislər də bizə qoşulacaq və onda Nikol rədd olub gedəcək”.

Amma alınmadı. Çünki həmin Koçaryana, Sarkisyana və bütövlükdə “Qarabağ klanı“na irəvanlıların nifrəti böyükdür. Bu isə onların çevriliş cəhdlərinin ikiqat fiaskoya uğraması deməkdir. Müxtəlif siyasi qüvvələr daxildə N.Paşinyanı devirməyə, onun ictimai nüfuzunun aşağı salmağa nə qədər cəhd göstərsələr də, nəticəsi olmur. Ümumiyyətlə, erməni xalqı cəmiyyətin radikal-revanşist kəsiminin çağırışlarına biganədir.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

**İndi ruspərəst qüvvələr Ermənistanda özlərini məyus hiss edirlər. Ona görə ki, əhalinin böyük əksəriyyəti bu düşüncədədirlər ki, Moskva onları atıb. Guya, Kreml Qarabağ ermənilərinin müdafiəsi üçün heç “barmağını da tərpətməyib”. Bu səbəbdən Rusiyaya meyilli qüvvələr Paşinyana qarşı hansısa çevriliş cəhdini etməyə qadir deyillər. Koçaryan və Sarkisyan cütlüyü Qarabağdan getmiş ermənilərdən iqtidara qarşı “taran” taktikasında istifadə etmək istəsə də, onların özləri də Kremlin dəstəyinə bel bağlamırlar. Həm də bu səbəbdən yaxın vaxtlarda rusiyapərəst qüvvələrin konsalidasiya olunub Paşinyana qarşı hansısa hücumu təşkil edəcəklərini düşünmürəm. Amma yaya doğru əgər Azərbaycanla sülh müqaviləsinə imzasını atarsa, bu halda ona qarşı təzyiqlərin artacağını istisna etmirəm. Bunun necə, hansı formada baş verəcəyini zaman göstərəcək.**

**Nikol Paşinyanın Sankt-Peterburqa Avrasiya İqtisadi İttifaqının toplantısında iştirakına gəldikdə isə, bu, heç də ona edilən təzyiqlərin nəticəsi deyil. İrəvan proqmatik olaraq hesablayır ki, hazırda Ermənistanın Rusiyadan iqtisadi asılılığı həddən artıq yüksəkdir. Onun xarici ticarət dövriyyəsinin qırx faizi məhz Rusiya ilədir. Hər il Ermənistana dörd milyard ABŞ dollarına yaxın vəsait Rusiyadan köçürülür. O, ucuz qazı Rusiyadan alır. Elekrik, dəmir yolları, rabitə sistemləri Moskvanın nəzarətindədir. Yəni, Rusiya ilə iqtisadi əlaqələrin qırılması Ermənistan üçün intihara bərabərdir. KTMT-dən fərqli olaraq, İrəvan Avrasiya İqtisadi İttifaqında iştirakda maraqlıdır. Ələlxüsus da, bu il quruma sədrlik Ermənistana keçir. Amma Paşinyanın bu səfəri ilə heç də Rusiya və Ermənistan arasındakı probelmlər öz həllini tapmır.**

**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin**
**professoru, siyasi şərhçi**

**Paşinyanı hakimiyyətdən yola salmaq müxalif düşərgənin çoxdankı arzusudur. İlk baxışdan elə görünür ki, Ermənistandakı indiki vəziyyət onlar üçün daha əlverişlidir. Söhbət Qarabağdan köçmüş ermənilərdən gedir. Bu kontingentdən Paşinyana qarşı məharətlə istifadə etmək planlarını görürük. Digər tərəfdən, sonuncu separatçıbaşı Şahramanyanın qondarma “Artsax” rejiminin buraxılması barədə fərmanını ləğv etməsi də həmin qüvvələrin işinə yarayır. Xaricdən idarə olunduğu şübhə doğurmayan bu qüvvələr mövcud amildən də Paşinyana qarşı istifadəyə çalışırlar.**

**Hələlik, Nikol Paşinyanın vəziyyəti, demək olar ki, sabitdir. Əslində, onun özündən də çox şey asılıdır. Yəqin anlayıb ki, Rusiya ilə münasibətləri gərginlik həddinə çatdırmaqla, faktiki olaraq, özünə quyu qazır. Məhz buna görə, o, Sankt-Peterburq sammitində iştiraka razılığını verib. Çox güman ki, ona müstəqil siyasətçi olmadığını uyğun formada başa salıblar və deyiblər ki, əgər bizdən uzaqlaşmaq istəsən, səni daha betər problemlər gözləyə bilər. N.Paşinyanın yaxın gələcəkdə devriləcəyini düşünmürəm. Amma proseslərin hansı məcrada gedəcəyi Paşinyanın verəcəyi qərarlardan birbaşa asılı olacaq. Əlbəttə ki, burada məsələyə Ermənistan baş nazirinin Rusiya ilə münasibətləri normal səviyyədə saxlaması aspektində yanaşmaq lazımdır. Və bu onun gələcək siyasi aqibəti üçün mühüm amillərdən biri sayıla bilər.**

# Simonyan Moskvaya “diş qıcatmaq”dan çəkinmir

## Erməni spiker İrəvanın anti-Rusiya ovqatını körükləməkdədir

**Ermənistan parlamentinin sədri Alen Simonyan ötən həftəsonu iki diqqətçəkən açıqlama ilə yadda qaldı. Bu açıqlamalardan biri Simonyanın son vaxtlar özünü daha qabarıq göstərən anti-Rusiya mövqeyinin bilavasitə ifadəsi baxımından idi. Digəri nə barədədir, onu yazının ikinci bölümünə saxlayaq.**



Bəli, fikirləri ilə Ermənistanda anti-Rusiya xəttinin qatı təbliğatçısı olan A. Simonyan bildirib ki, Kremlin həlledici rol oynadığı, İrəvanın da üzv kimi təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanın suveren ərazilərini qorumayıb. Maraqlıdır ki, erməni spiker düşüncələrini jurnalistlərin KTMT qoşunlarının Ermənistandan çıxarılması kontekstində ifadə edib. Ancaq məsələni bir qədər fərqli qoyub. Simonyanın sözlərindən belə çıxıb ki, qurum Ermənistanda qalmaq istəmir və buna görə də ölkənin maraqlarından irəli gələn addımlar atmır.

Qeyd edək ki, KTMT-nin baş katibi İmanqali Tasmaqambetov İrəvanda səfərdə idi. Jurnalistlərin suallarından biri də bu olmuşdu ki, belə səfərlərdən sonra Ermənistanla qurum arasında münasibətlər rəvan müstəviyə keçə bilərmi? Lakin A.Simonyanın cavabları onu göstərir ki, İrəvan KTMT kitabını tamamilə bağlayıb. O, deyib ki, baş katib İ.Tasmaqambetovun nə üçün ölkəyə gəlməsinin məqsədini anlaya bilmir...

Bu yerdə erməni spiker fikrini daha aydın tərzdə bildirib və vurğulayıb ki, KTMT Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan Respublikasının suveren ərazisində mövcudluğunu bəyan edərsə, təşkilata qarşı İrəvanın mövqeyi dəyişəcək. “KTMT ölkələri birlikdə bu silahlı qüvvələrin Ermənistanın suveren ərazisini tərk etmələrini tələb etməlidir. Belarus və Qazaxıstan əsgərlərinin buraya gəlmələrinə və onları zorla geri çəkmələrinə ehtiyac yoxdur”, – deyən A.Simonyanın sözlərinə görə, belə bir tələb səslənməyincə, deməli, KTMT işləmir.

Göründüyü kimi, Ermənistanın parlament sədri aşkar təxribat yolu tutmaqla məşğuldur. Yəni, bu şəxsi proses maraqlandırır, nəticə yox. O, KTMT-ni sanki tam lazımsız qurum olaraq təqdim etməklə, əlbəttə, eyni zamanda, anti-Rusiya ab-havası yaradır. Yeri gəlmişkən, KTMT-nin mövqeyi budur ki, Azərbaycan və Ermənistan arasında sərhəd müəyyənləşmədiyindən, qurum ikincinin ərazisinə təcavüzün gerçəkləşdiyini bildirmək və müvafiq addımlar atmaq imkanına malik deyil. Bunu Ermənistan rəsmiləri də yaxşı anlayırlar. Ancaq yenə öz əvvəlki “amplualarına” sadiqdirlər.

Məlumdur ki, Ermənistanın anti-KTMT, ümumən anti-Rusiya xətti, eyni zamanda, anti-Azərbaycan xətti ilə bərabər tutulmaqdadır. İrəvan, bir qayda olaraq, Moskvanı ölkəmizin hərəkətlərinə göz yummaqda günahlandırır. Simonyan da eyni məntiqlə çıxış etməkdədir. Konkret olaraq, onun indiki məqamda Ermənistan ərazisinin Azərbaycan tərəfindən işğalı məsələsini gündəmə gətirməsi, heç şübhəsiz, İrəvanın Bakı ilə sülh mövzusunda manipulyasiyaya yol verməsi deməkdir və belə davranışlar əlbəttə ki, çox vacib olan qarşılıqlı etimad mühitini zədələməkdədir. O da şübhə doğrumur ki, Simonyan durumun fərqindədir. Sadəcə tipik inkarçı xətdən uzaqlaşmaq niyyətindən daşınmır. Nəzərə alaq ki, mövcud vəziyyət sülh prosesinə yeni reallıqlar gətirmək cəhdindən başqa bir şey deyil.

Ancaq Simonyanın anti-Rusiya xəttində son zamanlar üçün xarakterik olan daha bir məqam da var. Məsələn, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin bildirir ki, Moskva və İrəvan hərbi-texniki əməkdaşlıq sahəsində yeni sazişləri müzakirə edirlər, Simonyanın buna qarşılıq söylədikləri isə fərqli təəssürat yaradır. Belə çıxır ki, Kopırkin fikirlərini ya yuxusunda görüb, ya da havadan götürüb. Əlqərəz, erməni spikerin sözlərinə görə, Rusiya Ermənistana silah satmaq bir yana, bunu ümumiyyətlə edə bilməyəcəyini deyib.

Ümumən, Ermənistanın sülh manipulyasiyaları barədə söhbət düşəndə, belə təmayüllərin qlobal kənar maraqlardan irəli gəldiyini də söyləmək şərtdir. İrəvan indiki situasiyada, faktiki olaraq, alət rolunda çıxış etməkdə, Qərbin anti-Rusiya oyununa dəstək verməkdədir. Hazırkı durumda Ermənistan Azərbaycanla sülh gündəliyini də Qərbin Cənubi Qafqaz maraqlarının əsirinə çevirib. Elə isə A.Simonyanın açıqlamasının ikinci hissəsinə keçid alaq.

*

Erməni spiker deyib ki, ölkəsi heç vaxt indiki qədər müstəqil siyasət xətti yeritməyib. O, mövcud xüsusda Ermənistanın əvvəlki prezidentləri Robert Koçaryanı və Serj Sarkisyanı günahlandırıb. Deyib ki, bu şəxslərin hakimiyyəti dövründə xarici oyunçular ölkəyə istədikləri qədər diktə edirdilər. Maraqlıdır ki, Simonyan xarici oyunçular dedikdə heç də yalnız Rusiyanı nəzərdə tutmayıb.

Əvvəla, Koçaryan-Sarkisyan ikilisi birmənalı şəkildə Rusiyadan idarə olunurdu. Yəni, bu adamlar nəzəri baxımdan da olsa, Moskvanın orbitindən kənar addım atmırdılar. Ancaq, məsələn, həmin Koçaryanın dövründə Ermənistanın müstəqillik dövründə ən böyük təchizat layihəsi olan İran–Ermənistan qaz layihəsi işə salındı. Nəinki bu layihəyə, heç ona bənzər bir şeyə də ölkənin hazırkı iqtidarı yaxın düşə bilməyib. Bəli, Rusiya sözügedən məsələnin reallaşmasına icazə vermişdi. Bəlkə Qərb dövlətləri diktə etmişdilər ki, İran–Ermənistan qaz kəməri olsun?

Bir məqamı da vurğulayaq ki, A.Simonyan açıqlamasını Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri əsnasında verir. N.Paşinyan 25-26 dekabr tarixlərində Avrasiya Ali İqtisadi Şurasının iclasında və MDB-nin qeyri-rəsmi sammitində iştirak etmək üçün Sankt-Peterburqa yollanıb. Bundan əvvəl, dəqiq desək, noyabrda o, Bişkekdə MDB dövlət başçılarının iclasında və Minskdə KTMT liderlərinin sammitində iştirak etməmişdi. İrəvan, həmçinin, Moskvada MDB Hökumət Başçıları Şurasının toplantısında da təmsil olunmamışdı.

Paşinyanın Rusiyaya səfərindən söz düşmüşkən, MDB-nin qeyri-rəsmi sammitində iştirak prinsipcə, rəmzi məna daşıyır. Avrasiya Ali İqtisadi Şurasının iclasına gəlincə, təxminən, bir ay öncə həmin bu A.Simonyan Ermənistanın toplantıda iştirak edəcəyinin anonsunu vermişdi. O zaman onun mövcud xüsusdakı açıqlaması İrəvanın anti-Rusiya ovqatı fonunda bir qədər təəccüblü qarşılanmışdı. Çünki Avrasiya İqtisadi İttifaqı da Moskvanın hakim rol oynadığı təşkilatdır.

Ancaq təəccüblənməyə əsas yoxdur. Məsələ burasındadır ki, Ermənistan özünün də təmsil olunduğu Rusiyanın orbitinə daxil olan qurumların işini iflic etməklə məşğuldur. Yuxarıda Simonyanın KTMT-ni fəaliyyətsizlikdə günahlandırdığını vurğuladıq. Bunun kökü 2022-ci ilin noyabrından qoyulub. Həmin vaxt dövlət başçılarının sammiti rotasiya qaydasında KTMT-yə sədrlik edən Ermənistanda keçirilirdi. Paşinyan indi Simonyanın qaldırdığı məsələni gündəmə gətirmişdi və qurumun üzvlərindən Azərbaycanı işğalçı adlandırmalarını istəmişdi. İstək təmin olunmayanda, Nikol, belə demək mümkünsə, siyasi isteriyaya güc vermişdi.

Ən başlıca məqam isə bundan ibarətdir ki, hazırda Avrasiya İqtisadi İttifaqına sədrlik də Ermənistana keçir. Nəzərə alsaq ki, İrəvan KTMT-yə sədrliyi özünün anti-Azərbaycan ritorikasına alət etməyə çalışmışdı, eyni hərəkəti Aİİ müstəvisində də davam etdirə, mövcud platformada avantürist istəklərə baş vura bilər. Necə deyərlər, qatığın tutma ehtimalı yoxdur, amma ayran almaq həmişə mümkündür. Odur ki, məsələn, İrəvanın sədrlikdən “istifadə edib” Aİİ-dən Azərbaycana qarşı hansısa qərarın çıxarılması məsələsini qaldıracağını, müvafiq olaraq, rədd cavabı aldıqdan sonra bu qurumu da mənasız kimi qələmə verəcəyini ehtimal etmək olar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Məlum olduğu kimi, müxtəlif xarici qüvvələr özlərinin, loru dildə desək, yağlı vədləri ilə Ermənistanı illüziya bataqlığına çəkməklə məşğuldurlar. Bu meyil ölkənin siyasi dairələrinə də yaxşı məlumdur. Elə baş nazir Nikol Paşinyanın tərəfdarlarına da. Sadəcə, ikincilərdən fərqli olaraq, birincilər bu barədə susmamağa, danışmağa üstünlük verirlər. Susmayıb danışanlardan biri də ABŞ-ın Stenford Universitetinin erməni əsilli siyasi elmlər doktoru, politoloq Artur Xaçikyandır. A.Xaçikyan özünün də bildirdiyi kimi, Ermənistanda bir qrup qrant yeyən təşviqatçının son bir neçə ildə yaydığı yalan vədlərin və nağılların siyahısını tərtib edib. Beləliklə, diqqət yetirək görək, amerikalı erməni professor nələri önə çəkib:**

# Paşinyan iqtidarının 11 yalanının ABŞ-da əks-sadası

## *Politoloq Artur Xaçikyan hansı məqamları fərqləndirir?*



**Birinci.** A.Xaçikyan ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfərindən bəhs edir. Yada salaq ki, səfər 2022-ci ilin sentyabrında baş tutmuşdu. Bir çox siyasi ekspertlər Pelosinin İrəvana gəlişini ölkəyə dəstək kimi qiymətləndirmişdilər. Lakin ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının partonajlığı ilə gerçəkləşmiş dəstəyin heç bir faydası olmadı. Xaçikyanı əsəbləşdirən də elə budur.

**İkinci.** Politoloq Fransa Prezidenti Emmanuel Makronun ermənilərə dəstək məqsədi daşıyan və erməni dilində yayımlanmış açıqlamalarını və təsirli yazılarını xatırlayır. Ancaq Xaçikyan buna qarşılıq Makronun Ermənistana görə Azərbaycana heç bir sanksiyanın tətbiq edilməyəcəyini bildirməsinə diqqət çəkməkdədir. Qeyd edək ki, rəsmi İrəvanın, ümumən erməni ictimai rəyinin ən böyük xəyal qırıqlığı da elə bu olmuşdu. Xaçikyan bütün gəlişi-gözəl fikirlərinə rəğmən, Makronun “çətin günlərdə” Ermənistana səfər etməməsinə də diqqət çəkməkdədir.

**Üçüncü.** Məlumdur ki, istər baş nazir Nikol Paşinyan, istərsə də ölkənin digər rəsmiləri müxtəlif beynəlxalq tribunalardakı çıxışlarında Ermənistanı Qafqazda, bir növ, demokratiyanın qalası kimi təsəvvürə gətirirlər. Onlar mövcud xüsusda elə görüntü yaradırlar ki, guya, Azərbaycandan üstündürlər və bu üstünlük Bakı ilə mübarizədə dünyanın İrəvanı müdafiə edəcəyi ilə bağlı yüksək təminatdır. Xaçikyanın fikrincə, belə düşüncələrin müqabilindəki xəyal qırıqlığı ondan ibarət oldu ki, Qərb Azərbaycanı özünün etibarlı tərəfdaşı elan etdi.

**Dördüncü.** Ermənistan hakimiyyətinin təmsilçiləri bu fikirdə idilər ki, Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolunun açılması ilə bağlı qərarı və beynəlxalq ictimaiyyətin təzyiqləri onlara kömək edəcək. Bildirək ki, yol humanitar yüklər üçün açıq idi. Bölgəyə silah-sursat və hərbi texnikanın keçirilməsinə gəlincə, Ermənistanın bununla əlaqədar istəyi təmin olunmadı ki, Xaçikyan məsələyə sırf bu aspektdən deyil, erməni avantürizmi nöqteyi-nəzərdən yanaşır və qəzəbini bildirir.

**Beşinci.** Ermənistanda belə düşünənlər də var – əgər biz Rusiyanın müttəfiqi olmasaq və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxsaq, Qərb ölkəyə kömək göstərəcək. Bu fikirlərin də sabun köpüyü mahiyyəti daşıdığını vurğulayan A.Xaçikyan bildirir ki, Fransa Ermənistana yalnız simvolik yardımla kifayətlənir. Azərbaycan isə Rusiyanın rəsmi tərəfdaşıdır. Lakin ABŞ-dan hərbi yardım alır.

**Altıncı.** İrəvanın siyasi dairələrində belə düşüncə formalaşmışdı ki, Qərb Ukraynaya göstərdiyi köməyi Ermənistana da göstərəcək. A.Xaçikyan vurğulayır ki, Qərb Ukraynaya ciddi yardım etdi, 250 milyard dollar ayırdı və ən müasir silahlar verdi, amma indi ölkəni tərk edir, onu Rusiya ilə baş-başa qoyur, artıq pulun bitdiyini də deyir. Belə bir durumda Ermənistanın nə isə gözləməsi sadəlövhlükdür.

**Yeddinci yalan** Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyası ilə bağlıdır. Məlum olduğu kimi, Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində “lövbər salmış” missiya indiyədək heç bir faydalı iş görməyib. Ona görə də ölkədə avropalı müşahidəçilərin varlığı əvvəllərdə olduğu kimi, təhlükəsizliyin təminatı prizmasında dəyərləndirilmir.

**Səkkizinci.** A.Xaçikyan Ermənistan hakimiyətinin Türkiyədə baş vermiş zəlzələ zamanı bu ölkəyə yardım göndərməsi məsələsinə toxunur. O bildirir ki, Paşinyan iqtidarına yaxın dairələr məsələni Ankara-İrəvan münasibətlərinin yaxşılaşmasına töhfə kimi qiymətləndirirdilər. Lakin “Türkiyə yardımı qəbul etdi, sonra da Azərbaycanın erməniləri Qarabağdan qovmasını dəstəklədi”.

**Doqquzuncu.** Ermənistanın hakimiyyət nümayəndələri zamanda bildirirdilər ki, Qərb Azərbaycanın Qarabağa sahiblənməsinə imkan tanımayacaq. Əlbəttə, Xaçikyan məsələni Qərbin Qarabağda etnik təmizləməyə imkan verməməsi şəklində ifadə edir. O, mövcud xüsusda ABŞ Dövlət Deparatmentindən və Avropa Parlamentindən eşidilən bəyanatları yada salır. Bildirir ki, Qərb hökumətləri Azərbaycanın Qarabağa sahiblənməsinin qarşısını ala bilmədilər, üstəlik Qarabağ ermənilərinin bölgədən çıxmasını etnik təmizləmə kimi qiymətləndirmədilər.

**Onuncu.** A.Xaçikyan erməni rəsmilərinin daha bir yalanını da sanksiya məntiqi ilə izah edir. O yazır ki, Paşinyan administrasiyasına daxil olan şəxslər, eləcədə də hakimiyyət yönümlü siyasilər Qarabağın ermənisizləşdirilməsinin Azərbaycana sanksiya tətbiqinə səbəb olacağını vurğulayırdılar. Amma bu da baş vermədi.

**On birinci.** Erməni əsilli amerikalı politoloq bildirir ki, Paşinyanın çevrəsi belə bir fikir yayırdı ki, qonşu ölkələrlə dinc yaşamaq üçün Qarabağ Azərbaycana təhfil verilməlidir. Onun sözlərinə görə, indi Qarabağ verilib, ancaq Azərbaycan anklavları da geri istəyir, üstəlik, Ermənistan ərazisindən keçərək, Naxçıvana asan yol tələb edir.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Replika**

# Qarabağın yolları Ağdamda kəsişir

## *UNESKO ekspert missiyasının bölgəyə gəlişinə kim etiraz edib?*



**Keşişi də yalan danışır, diplomatı da. Rəsmisi də dünən dediyi sözü bu gün danır, siyasətçisi də. Onlar üçün yaşın da fərqi yoxdur. Otuz yaşlı nazir müavini səksən yaşlı Oskanyandan heç nə ilə fərqlənmir.**

Dünən Tehranda UNESCO-nun Qədim Sivilizasiyalar Forumuna üzv ölkələrin nazirlərinin 7-ci görüşü keçirilib. Bu mötəbər beynəlxalq toplantıda Ermənistan adından xarici işlər nazirinin müavini Vaqe Gevorkyan iştirak və çıxış edib. Dünyanın müxtəlif nöqtələrində silahlı münaqişələrin mədəni və dini abidələrə dağıdıcı təsir göstərdiyini nəzərə çatdıran, qədim irsin qorunub saxlanılması üzrə etibarlı monitorinq mexanizmlərinin və qiymətləndirmənin tətbiqini, informasiya mübadiləsini, rəqəmsal və peyk texnologiyasından faydalanmanı və mədəni vandalizmin qarşısının alınmasının vacibliyini önə çəkən V.Gevorkyan sonra sözünün “mustafasını” ərz edib:

“Təəssüf ki, hazırda Dağlıq Qarabağdakı (?) erməni mədəni irsi daim dağıdılmaya, təhqirə və mənimsənilməyə məruz qalır. 2023-cü ilin sentyabrında Azərbaycanın güc tətbiq etməsi Dağlıq Qarabağın (?) bütün yerli əhalisini etnik təmizləməyə məruz qoyub. Bu isə erməni mədəni irsini daha böyük təhlükə altına salıb”.

Çıxışında daha sonra beynəlxalq ictimaiyyəti təcili səylər göstərməyə çağıran V.Gevorkyan UNESCO-nun müstəqil ekspert missiyasının Dağlıq Qarabağda (?) yerləşdirilməsini dəstəklədiyi söyləyib. Hayastan xarici diplomatiya idarəsinin rəis müavini Azərbaycanın, guya, buna hər vasitə ilə mane olduğunu iddia edib. Bununla kifayətlənməyən Gevorkyan bir az da irəli gedərək, Ermənistanın UNESCO Forumunda və başqa çoxtərəfli platformalarda birgə təşəbbüslərin realizəsində yaxından iştiraka hazır olduğunu bəyan edib.



Necə deyərlər, adımı sənə qoyum, səni də yana-yana. Tehranda özünü “doğma divarlar arasındakı kimi” hiss edən V.Gevorkyanın beynəlxalq tribunadan üfürdüyü ağ yalanların birincisi odur ki, Azərbaycan UNESCO-nun bölgəyə missiyasını göndərməyə nəinki mane olmayıb, əksinə, BMT-nin bu nüfuzlu beynəlxalq qurumunun müstəqil ekspertlərini Qarabağa özü dəvət edib. Bu səfərin alınmamasının səbəbini həmin Gevorkyanın özündən soruşmaq gərəkir. Yaxşı axtarılsa, yəqin bu məsələdə də ABŞ-dakı erməni diasporunun barmağı görünəcək. Axı, Bakı bölgəyə gəlməyi arzulayan monitorinq qruplarına həm ermənilərin, həm də azərbaycanlıların mədəni, dini, tarixi irsinin daşıyıcılarına baş çəkməyi təklif edir. Gevorkyanın ikinci yalanı isə saman altdan su yeritməyə oxşayır. Nədənsə, bölgəyə təşrif buyuran bəzi “müstəqil ekspertlər” yalnız erməni “abidələrinə” baş çəkməyi arzuladıqlarını bildirirlər. Belə hal bir neçə dəfə baş verib.

Məgər UNESCO-nun ingilis, yaxud ispan mənşəli beynəlxalq monitorinqçisi Xankəndiyə, yaxud Ağdərəyə gedərkən, Ağdamdan keçə bilməzmi? Axı oraya ən yaxın yol da budur. Yoxsa, onlar burada erməni vandallarının Ağdam məscidinə tutduqları “divanı” görmək istəmirlər? Bəlkə Qarabağda dağıdılmaya, təhqirə, mənimsəməyə məruq qalan Azərbaycanın mədəni irsi UNESCO-nun məlum qorunma siyahısına düşməsi kimlərəsə sərf eləmir?

Əlqərəz, biz yenə də humanistlik göstərib, UNESCO-nun bölgəyə göndəriləcək monitorinq qrupuna ekspert kimi hətta Vaqe Gevorkyanın da salınmasına etiraz etmirik. Amma bir şərtlə ki, qrupa bələdçiliyi azərbaycanlı, həm də qarabağlı mütəxəssis eləsin.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarabağda şəhərsalmanın yeni modeli

## Bu konsepsiyada "ağıllı" layihələr aparıcı yer tutur

**30 illik işğal dövründə düşmənin viran qoyduğu torpaqlarımızda həyat tədricən əvvəlki məcrasına qayıdır. Hazırda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda yeni yaşayış massivləri salınır, yerlə-yeksan edilmiş şəhərlərimiz bərpa olunur, bütün zəruri infrastrukturlar yaradılır, yollar çəkilir, həmin ərazilərin fasiləsiz elektrik enerjisi ilə təminatı həyata keçirilir.**



Məlum olduğu kimi, dövlətimizin iqtisadi strategiyasının əsas hədəflərində biri də işğaldan azad edilmiş ərazilərin çoxsahəli potensialına uyğun olaraq bölgədə iqtisadi fəallığın təmin olunması ilə bağlıdır. Bu məqsədlə Qarabağ və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının, yeni istehsal sahələrinin yaradılması və fəaliyyətinin təşkili, minalardan təmizlənmiş torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində mühüm addımlar atılır.

44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi Zəfərimizin memarı, Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev, həm də işğaldan azad edilmiş ərazilərimizin yeni quruculuq salnaməsinin əsas yaradıcısıdır. Təsadüfi deyil ki, ölkə başçısı bu ərazilərə hər səfəri zamanı yeni hədəflər müəyyənləşdirilir, böyük layihələrin icrasına start verilir. Bir məqamı da qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə reallaşdırılan nəhəng tikinti layihələri heç bir beynəlxalq maliyyə qurumunun yardımı olmadan ölkəmizin öz gücü ilə həyata keçirilir. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa-quruculuq işlərinə indiyədək 12 milyard manat vəsait ayrılıb.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin timsalında dünya şəhərsalma təcrübəsinin yeni, Azərbaycan modeli yaradılır. Bütün bunlar dünya ictimaiyyəti tərəfindən müsbət amil kimi dəyərləndirilir. Heç şübhəsiz, Azərbaycan paytaxtının 2026-cı ildə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibi olaraq seçilməsində bu amilın böyük rolu olub. Yeri gəlmişkən, bu mötəbər beynəlxalq tədbir üçün "Sülh şəraitində davamlı inkişaf edən şəhərlər və qəsəbələr" adlı mövzunun seçilməsi təsadüfi deyil. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin fikirləri də bu baxımdan maraq doğurur. Belə ki, Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı arasında Bakının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi etməsinə dair Sazişin imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında komitə sədri Azərbaycanın postmünaqişə dövrü ilə bağlı çox böyük təcrübə əldə etdiyini diqqətə çatdırıb. "Biz dağılmış evləri təmir etməklə yanaşı, sıfırdan yeni, müasir şəhərlər inşa edirik. Artıq o şəhərlərə insanlar köçməyə başlayıb. Ona görə də Azərbaycanın bu təcrübəsi bir çox ölkələrə maraqlıdır", – deyə o əlavə edib.

Komitə sədri bildirib ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, ümumilikdə, 100 yaşayış məntəqəsinin planlaşdırılması və yenidən qurulması nəzərdə tutulur. Bunların 9-u şəhər, 91-i isə, əsasən, qəsəbə və kəndləri əhatə edir. Onun sözlərinə görə, birinci proqram çərçivəsində 140 minə yaxın insanın köçməsi nəzərdə tutulubsa, artıq növbəti illərdə daha çox insan evlərinə qayıda biləcək. Ümumilikdə isə, Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq və planlaşdırma ilə bağlı işlərin 2024-2025-ci illərdə başa çatdırılması nəzərdə tutulur.

Yeri gəlmişkən, BMT-nin Məskunlaşma Proqramı olan UN-Habitat Azərbaycanın işğaldan azad edilmiş ərazilərində olan kəndlərdən ikisinin lahiyələndirilməsində iştirak edəcək. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirb ki, UN-Habitat tərəfindən layihələndiriləcək kəndlərin biri dağlıq, digəri isə düzənlik ərazidə yerləşir. Onun sözlərinə görə, UN-Habitat-ın təşəbbüsü ilə insanyönümlü "ağıllı şəhər"lər üzrə beynəlxalq təlimat hazırlanmasına başlanılıb və bunun üçün Azərbaycanın da 2 nümayəndəsinin daxil olduğu geniş tərkibli ekspertlər qrupu formalaşdırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi

**Elnur FƏRZƏLİYEV,**
**əmlak məsələləri üzrə ekspert**



Son illər mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmiş Bakının daha bir mühüm konfransa evsahibliyi edəcəyi dəqiqləşib. Bu, 2026-cı ildə paytaxtımızda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasıdır. Məlum olduğu kimi, ötən həftə Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı arasında bu barədə saziş imzalanıb. Bu da təsadüfi deyil. Çünki ötən müddətdə Azərbaycanda şəhərsalma ilə bağlı genişmiqyaslı layihələr həyata keçirilib, ölkəmizin paytaxtı müasir meqapolisə çevrilib. Xüsusən də son illər işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng tikinti işləri, müasir yaşayış massivlərinin salınması beynəlxalq arenada geniş əks-səda doğurub.

Ötən müddətdə Azərbaycan işğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işlərinin təmin edilməsi məqsədilə düşmənin basdırdığı minaların və partlamamış hərbi sursatların zərərsizləşdirilməsi istiqamətində misilsiz işlər görüb. Bunun da nəticəsində Qarabağ və Şərqi Zəngəzurda rayon mərkəzlərinin, kənd və qəsəbələrin bərpası, yeni yaşayış massivlərinin salınması sürətlə davam etdirilir. Ötən illər ərzində işğaldan azad olunmuş ərazilərin bərpası məntiqi ardıcıllıqla həyata keçirilib. Qeyd etdiyim kimi, ilkin olaraq torpaqlar minalardan təmizləndikdən sonra tikinti işləri aparılacaq ərazilərə yeni avtomobil yolları, vacib kommunikasiya xətləri çəkilib. Bütün bunlar inşaat sektoru üçün rekord sayıla biləcək qısa müddət ərzində görülüb. Hazırda isə həmin ərazilərdə yeni qəsəbələrin təməli qoyulur, eləcə də şəhərlərimizin bərpası üçün çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınır. Artıq Füzuli şəhərində inşası başa çatdırılan binalar ilk sakinlərini qəbul edir.

Heç şübhəsiz, bu işlər bütün dünyada şəhərsalma üçün böyük təcrübə, əsl örnək sayıla bilər. Müqayisə üçün deyim ki, dünyanın bir çox ölkələrində, xüsusən də Yaxın Şərqdə baş vermiş müharibələr nəticəsində dağılan şəhərlər hələ də bərpa olunmayıb. Azad olunmuş ərazilərimizin bərpası üçün hazırlanmış yeni baş planlar əsasında aparılan sürətli tikinti işləri, eləcə də düşmənin viran qoyduğu kiçik kəndlərin birləşdirilərək əvəzində iri qəsəbələrin və yeni yaşayış massivlərinin yaradılması müasir şəhərsalma üçün nümunə sayılır. Onu da qeyd etmək istəyirəm ki, düşmənin 30 il ərzində daşı daş üstdə qoymadığı kəndlərin ayrı-ayrılıqda bərpası üçün infrastrukturun yaradılmasına və sosial obyektlərin inşasına zərurət yaranacaqdı ki, bu da həm vaxt itkisinə, həm də külli miqdarda vəsaitin xərclənməsinə səbəb olacaqdı...

# Rusiyaya ölkəmizin investisiya qoyuluşu 3,5 dəfə artıb

**2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycandan Rusiya iqtisadiyyatına birbaşa yönəldilmiş investisiyaların həcmi 33,3 milyon dollar təşkil edib.**



Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 dəfə və ya 23,8 milyon dollar artıb. Belə ki, 2022-ci ili yanvar-sentyabr aylarında Azərbaycandan Rusiya iqtisadiyyatına yönəldilmiş birbaşa investisiyaların həcmi 9,5 milyon dollara bərabər olub.

Qeyd edək ki, 2023-cü ilin 9 ayında Azərbaycandan dünya iqtisadiyyatına yönəldilmiş birbaşa xarici investisiyaların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,6 dəfə artaraq 2 milyard 691 milyon dollara yüksəlib.

# "Səngəçal" stansiyası 15 ildir ölkəyə fasiləsiz enerji verir

**İstismara verildiyi tarixdən bu il dekabrın 1-dək "Səngəçal" modul tipli elektrik stansiyasında 17,5 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub.**



Energetika Nazirliyindən verilən məlumata görə, stansiyada elektrik enerjisi istehsalı 2020-ci ildə 1,07 milyard kilovat-saat, 2021-ci ildə 1,06 milyard kilovat-saat, 2022-ci ildə 0,92 mlrd. kVt-saat, 2023-cü ilin 11 ayında isə 0,71 kilovat-saat təşkil edib.

Qeyd edək ki, 2008-ci ilin dekabr ayının 24-də istismara verilmiş stansiyada hər birinin gücü 16,62 meqavat olan 18 qaz porşenli aqreqat quraşdırılıb. Qurğunun ümumi qoyuluş gücü isə 300 meqavatdır.

***XQ***

# Regionların sosial-iqtisadi inkişafı bu il də təmin edilib

**Azərbaycan iqtisadiyyatını gücləndirən əsas amillərdən biri olan regionların dinamik inkişafı daim diqqətdə saxlanılır və bununla bağlı genişhəcmli layihələr reallaşdırılır. Prezident İlham Əliyev belə bir vəzifənin yüksək səviyyədə gerçəkləşdirilməsi məqsədilə vaxtaşırı rayonlara səfər edir. Bu zaman ölkə rəhbəri yerlərdə investisiyaların qeyri-neft sektoruna, xüsusən də bölgələrin inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə maraqlanır, üzləşilən çətinliklərin aradan qaldırılması üçün icra strukturlarına zəruri tapşırıq və tövsiyələrini çatdırır. Başqa sözlə, dövlət başçısının nəzarət üçün bir vasitə olan bölgələrə səfərləri verdiyi tapşırıqların necə yerinə yetirilməsi məqsədi daşıyır.**



Ölkə rəhbəri fəaliyyətinin bütün mərhələlərində bölgələrdə insanların rifah halının yaxşılaşdırılmasına, infrastruktur obyektlərinin yaradılmasına, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılmasına mühüm önəm verib. Bu isə həm regionların ümumi inkişafını gerçəkləşdirib, əhalinin sosial şəraitinə müsbət təsir göstərib, həm də ölkəmizi gücləndirib. Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişafı sahəsində görülən tədbirlər nəticəsində isə regionlarda iqtisadi fəallıq getdikcə artıb. Belə şərait isə özəl bölmədə yeni iş yerlərinin davamlı artımını şərtləndirib. Nəticədə iqtisadiyyatda qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmalarının payı 74 faizi ötüb.

İqtisadi artım işgüzar fəallığın və sahibkarların sayının da ildən-ilə artmasına səbəb olub. Belə ki, əgər 2002-ci ildə ölkədə cəmi 180 minə yaxın sahibkarlıq subyekti var idisə, cari ilin əvvəlinə qeydiyyatda olan vergi ödəyicilərinin sayı 1,4 milyonu keçib, aktiv vergi ödəyicilərinin sayı isə 712 min nəfərə çatıb. Sahibkarlığın inkişafına dövlət dəstəyi də diqqətdə saxlanılıb. Bu məqsədlə Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin ayrılmasına mühüm önəm verilib. Dövlət büdcəsinə əlavə yük yaratmadan güzəştli kreditlərin reallaşdırılması kreditləşdirmədən geri qaytarılan vəsaitlər hesabına təmin edilib. Belə ki, son 20 il ərzində İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində sahibkarlıq subyektlərinin 42,7 min investisiya layihəsinin maliyyələşdirilməsinə yönəldilən 2,8 milyard manat güzəştli kreditlərin 75 faizi regionlara ayrılıb. Bunun nəticəsində açılan 178 mindən çox yeni iş yerinın 80 faizdən çoxu regionlarda fəaliyyətə başlayıb.

Azərbaycanda sahibkarlığın inkişafı bu gün regional iqtisadi siyasətin ən mühüm elementlərindən biridir. Bu məsələdə 2004-cü ildən indiyədək ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası mühüm əhəmiyyət kəsb edir. Son 20 il ərzində 4 dövlət proqramı üzrə bölgələrə yatırılan investisiyaların həcminin 104 milyard manat təşkil etməsi də bunun bariz ifadəsidir.

Regionların dinamik inkişafında sənaye parkları və zonalarının yaradılması ilə yeni mərhələ başlanıb. İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) İdarə Heyətinin sədri Elşad Nuriyevin məlumatına əsasən, hazırda Azərbaycanın iqtisadi zonalarında 7 milyard manatdan çox investisiya layihəsi ilə 138 sahibkarlıq subyekti rezident statusu alıb. Ölkəmizdə 7 sənaye parkının (Sumqayıt, Mingəçevir, Pirallahı, Qaradağ, Ağdam, Balaxanı və "Araz Vadisi İqtisadi Zonası") və 5 sənaye rayonunun (Hacıqabul, Nefçala, Masallı, Sabirabad və Şərur) uğurlu fəaliyyəti təmin edilıib. Respublikanın 6 sənaye zonasında indiyədək 6 milyard manat investisiya qoyulub və 11 mindən çox daimi iş yeri açılıb. Növbəti mərhələdə sənaye zonalarındakı mövcud layihələrə 864 milyon manat sərmayə yatırılacağı və 6 min 700-dən çox daimi iş yerinin fəaliyyətə başlayacağı planlaşdırılıb. E.Nuriyevin sözlərinə görə, bugünədək sənaye zonalarında 11,1 milyard manat dəyərində məhsul istehsal olunub ki, onun 3,6 milyard manat hissəsi isə ixrac edilib.

Cari ilin 9 ayı ərzində sənaye zonalarında fəaliyyət göstərən şirkətlər tərəfindən 2,3 milyard manat dəyərində məhsul satılıb, bunların 31 faizi (dəyəri 722 milyon manatdan çox) dünyanın 60-dan çox ölkəsinə ixrac edilib. Bu dövrdə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 17,9 faizə çatmaqla qeyri-xammal məhsullarının ixracında payı 17,9 faiz olub. Bütün bunlar isə sənaye zonalarının qeyri-neft sektorunun inkişafında mühüm rol oynadığını təsdiqləyib.

Bu gün işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyası uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa-quruculuq prosesinə infrastruktur layihələrindən başlanılıb. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Bu gün Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir. Halbuki mən ölkəmizin digər yerlərinə də müntəzəm olaraq gedirəm. Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz– bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün...".

Hazırda düşməndən təmizlənən ərazilərdə infrastruktur layihələri uğurla icra edilir. Dəmir və avtomobil yollarının çəkilişi, elektrik enerjisi, su təchizatı məsələləri, meliorativ tədbirlərlə bağlı layihələr reallaşdırılır. Qısa müddətdə salınan "ağıllı yaşayış sahələri"ndə–Ağalı, Talış, Zabux kəndlərində, Laçın və Füzuli şəhərlərində məskunlaşdırma davam etdirilir. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü isə tikilir. Müasir beynəlxalq standartlar əsasında istifadəyə verilən aeroportlar nəinki iqtisadi, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu daha da gücləndirir. Ən diqqətçəkən məqam isə Azərbaycan dövlətinin bütün bu və ya digər layihələrin həyata keçirilməsinə çəkdiyi xərcləri daxili imkanlar hesabına reallaşdırmasıdır.

Yeri gəlmişkən, Vətən müharibəsindəki tarixi qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrılıb. Böyük Qayıdışa dair I Dövlət Proqramı qəbul edilib və uğurla icrasına başlanılıb. Beləliklə, işğaldan azad olunan ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasından, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən olunmasında rolunu daha da möhkəmləndirəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

# “Ulu öndər Heydər Əliyevin izi ilə”

**Azərbaycan Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində keçirilən silsilə tədbirlərin davamı olaraq media və turizm sənayesi nümayəndələrinin iştirakı ilə “Ulu öndər Heydər Əliyevin izi ilə” turunun təqdimatı keçirilib.**



Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə Azərbaycanda turizmin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və onun siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd edib. O, “Heydər Əliyevin izi ilə” turunun turizm məhsullarının şaxələndirməsində töhfəsini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti və muxtar respublikanın inkişafı istiqamətində gördüyü işlərdən bəhs edib. Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”na əsasən turizmin prioritet sahələrdən biri olduğunu qeyd edib.

Təqdimatda turun Ulu öndərin Naxçıvanda qorunmasına xüsusi diqqət ayırdığı tarix və mədəniyyət abidələrini, həyat və fəaliyyəti ilə əlaqəli, eləcə də onun xatirələrinin yaşadıldığı məkanları əhatə etməsi haqqında məlumat verilib.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə media nümayəndələrinin görüşü təşkil edilib.

Səfər çərçivəsində media və sənaye nümayəndələri üçün Ümummilli liderin təşəbbüsü ilə 1982-ci ildə Sibirdən gətirilərək doğma vətənində dəfn edilən və qəbri üzərində xatirə abidəsinin ucaldıldığı böyük Azərbaycan şair və dramaturqu Hüseyn Cavidin məqbərəsinə, hazırda Bəhruz Kəngərli Muzeyi kimi fəaliyyət göstərən Heydər Əliyevin 1938–1939-cu illərdə təhsil aldığı Pedaqoji Texnikumun binasına Naxçıvan Turizm İnformasiya Mərkəzi kimi fəaliyyət göstərən, tarixən Zaviyə-mədrəsə binası kimi tanınan, Ümummilli liderin 1930-cu illərdə şahmat, musiqi və dram dərnəklərinin üzvü olduğu Naxçıvan Şəhər Pionerlər evinin binasına, ulu öndər Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə abadlıq və yenidənqurma işlərinin aparıldığı “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksinə, Ümummilli liderin təşəbbüsü ilə 1977-ci ildə “qoruq-şəhər” elan edilmiş Ordubad şəhərinə, o cümlədən, “Xan sarayı” Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə, Naxçıvan Dövlət Milli Dram Teatrına tanışlıq turu təşkil edilib.

İkigünlük proqram qeyd olunan məkanlardan əlavə Heydər Əliyev Muzeyini, “Əlincəqala” tarixi abidəsini, “Qeysəriyyə” binasını və Ordubad Cümə məscidi də daxil olmaqla Naxçıvan, Culfa və Ordubad şəhərlərində olan əsas tarixi məkanları əhatə edir.

# Muxtar respublikanın 2024-cü il büdcəsi qəbul edilib

**İclasın gündəliyinə aşağıdakı məsələlər verilib: “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş); “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş); “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının layihəsi.**



Naxçıvan Muxtar Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev məlumat verib ki, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi komitənin iclasında redaktə məqsədilə baxılıb və layihə üçüncü oxunuşda müzakirə olunması üçün Ali Məclisin 2023-cü il payız sessiyasının növbəti iclasının gündəliyinə salınması üçün təqdim olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov Ali Məclisin plenar iclaslarında büdcə zərfinə daxil olan sənədlərin müzakirələri zamanı deputatların qaldırdıqları sualları cavablandırıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Qanun layihəsi ilə əlaqədar Ali Məclisin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova məlumat verib ki, “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi ikinci oxunuşdan sonra baxılıb, Ali Məclisin 2023-cü il payız sessiyasının növbəti iclasına üçüncü oxunuşda müzakirə olunması üçün təqdim olunub.

“İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Bununla da büdcə zərfinə daxil olan qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov qeyd edib ki, Ali Məclisin Daxili Nizamnaməsinin 56-cı maddəsinə əsasən Ali Məclisin xərclər smetası Ali Məclisdə növbəti ilin büdcəsinə baxılarkən təsdiq edilir. Buna müvafiq olaraq “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında” qərar layihəsi hazırlanıb. Ali Məclisin 2024-cü il üçün xərclər smetası haqqında Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli məlumat verib.

Qərar səsə qoyularaq qəbul edilib.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

# “Qış festivalı”



**Dünən Naxçıvan şəhərində Yeni ilin gəlişi münasibətilə “Qış festivalı” açılıb.**

Muxtar Respublikada Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunmuş “Qış festivalı”nın açılışında iştirak ediblər.

Məlumat verilib ki, Yeni il şənliklərinin mərkəzi tədbiri olan festival 2024-cü il yanvarın 7-dək davam edəcək. Yeni il şəhərciyi ötən illərdən fərqli olaraq yeni dizaynda və rəngarəng dekorlarla bəzədilib, burada şəhərin ən böyük yolkası quraşdırılıb. Böyük pavilyonda ölkənin əsas ulduz-sənətçilərinin, növbəti günlərdə isə digər ifaçıların təqdimatında maraqlı konsert proqramı təqdim olunacaq.

Prospektin ümumi ab-havasına uyğun quraşdırılan 30-a yaxın köşkdə muxtar respublika sakinlərinə və qonaqlara müxtəlif iaşə xidmətləri göstəriləcək.

Səlahiyyətli nümayəndə təqdim olunan məhsullarla tanış olub. Məlumat verilib ki, muxtar respublikada fəaliyyət göstərən istehsal və iaşə obyektlərində, eləcə də bölgələrdə fəaliyyət göstərən ailə təsərrüfatları tərəfindən hazırlanan müxtəlif mətbəx nümunələri, şirniyyat və qənnadı məmulatları, fast-fudlar, meyvə şirələri, dəniz məhsulları, çərəzlər, eləcə də müxtəlif əl işləri festival boyunca təqdim olunacaq.

“Heydər Əliyev – 100”, “Naxçıvan Muxtar Respublikası – 100” və Zəfər tariximizi əks etdirən foto və nəşrlərdən ibarət stendlər Naxçıvan Dövlət Universitetinin kollektivi və Gənclər Fondunun könüllüləri tərəfindən bütün festival boyu nümayiş etdiriləcək. Ali təhsil ocağının memarlıq fakültəsi tələbələrinin təqdim etdiyi layihələrə də baxış olub. Sonra 850 universitet tələbəsinin iştirakı ilə 625 mozaika fotodan ibarət Ulu öndərin portretini canlandıran flaşmob təqdim edilib.

# Şəhid ailələri və qazilərlə görüş



**Səlahiyyətli nümayəndə Fuad Nəcəfli dünən Naxçıvanda yeni yaradılan “Naxçıvan Şəhid Ailələri” və “Naxçıvan Qaziləri” ictimai birliklərinin nümayəndələrini qəbul edib.**

Görüşdə Fuad Nəcəfli vurğulayıb ki, müzəffər Ali Baş Komandanımızın, qəhrəman şəhid və qazilərimizin sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Dövlət Bayrağımız bütün bölgələrimizdə dalğalanır. Xalqımız gələcəyə böyük ümidlərlə baxır, fəxarətlə qurub yaradır. Naxçıvan da bu proseslərdən kənarda qalmır və 2024-cü il muxtar respublikada quruculuq ili kimi yadda qalacaq. Qəhrəman şəhidlərimizin xatirəsi əbədiləşdirilir. Bu il Babəkdə Şəhidlər Memorial Abidə Kompleksi istifadəyə verilib.

Hazırda Şərurda və digər bölgələrdə də belə komplekslər tikilib istifadəyə veriləcək. Ötən dövrdə şəhid ailələri və qazilərlə mütəmadi görüşlərin keçirildiyini və bu tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirən səlahiyyətli nümayəndə ictimai birliklərin yaradılmasını şəhid ailələri və qazilərin problemlərinin həlli, eləcə də müvafiq tədbirlərin təşkili məsələlərində səmərəliliyin artırılmasına töhfə kimi dəyərləndirib.

Bildirib ki, hər iki birliyin fəaliyyəti üçün lazımi şərait yaradılıb və bu istiqamətdə işlər davam etdiriləcək. İctimai birliklərin nümayəndələri səmimi görüşə görə minnətdarlıq edib, Ali Baş Komandanımızın rəhbərliyi ilə dövlətimizin qayğısını hər zaman üzərlərində hiss etdiklərini bildiriblər.

# Şərurda yeni məscid

**Dekabrın 24-də Şərur rayonunun Xələc kəndində yeni məscid istifadəyə verilib.**



Açılışda iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qeyd edib ki, məscidin həm “Heydər Əliyev İli” çərçivəsində, həm də belə bir əlamətdar gündə istifadəyə verilməsi böyük rəmzi məna daşıyır. Vurğulanıb ki, ulu öndər Heydər Əliyev hər zaman islami dəyərlərə hörmət və ehtiramla yanaşıb. Məscidləri, dini ziyarətgahlarımızı qoruyub, dini-mənəvi dəyərlərimizi yaşadaraq, inkişafına xüsusi diqqət göstərib. S.Seyidəhmədli diqqətə çatdırıb ki, Xələc kənd məscidində yaradılan şərait milli-mənəvi dəyərlərimizin qorunmasının cənab İlham Əliyevin ciddi diqqət mərkəzində olmasının əyani sübutudur.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev qeyd edib ki, dövlət başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, ziyarətgah və tarixi abidələr inşa edilib və ya bərpa olunub. Digər çıxışçılar da 44 günlük Vətən müharibəsindəki zəfərimizə və bu ilin sentyabrında aparılan lokal antiterror tədbirlərinə diqqət çəkərək, bildiriblər ki, artıq bu gün Azərbaycanın bütün bölgələrində azan səsi duyulur.

Səlahiyyətli nümayəndəlik adından Xələc kənd məscidinə müqəddəs “Qurani Kərim” hədiyyə edilib. Sonra məscidə baxış olub. “Quran-i Kərim”dən ayələr oxunub.

Qeyd edək ki, Xələc kəndindəki sözügedən ərazidə əvvəllər də məscid fəaliyyət göstərib. Lakin tam yararsız vəziyyətə düşdüyündən, yenisinin inşa olunmasına ehtiyac yaranıb. 1250 kv.m sahədə yerləşən məscidin tikintisinə Xələc kənd cəmiyyətinin təşəbbüsü və sakinlərin dəstəyi ilə 2022-ci ilin avqust ayında başlanılıb. Məscid 1 günbəz və 2 minarədən ibarət olmaqla, eyni zamanda 135 nəfərin ibadət etməyi üçün uyğunlaşdırılıb. Ərazidə yaşıllaşdırma və abadlıq işləri aparılıb.

# Gələn ilə önəmli layihələrlə

**Səlahiyyətli nümayəndə Fuad Nəcəfli jurnalistlərə açıqlamasında qeyd edib ki, bu gün muxtar respublikada ən aktual sahələrdən biri tikintidir. Bu günə qədər mövcud olan tikintilərin keyfiyyəti qaneedici olmadığına görə müvəqqəti olaraq bu sahədə işlər dayandırılıb.**

2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət Proqramını təsdiq edib. Bu proqram çərçivəsində 2023-cü ilin son 4 ayı ərzində icra olunması nəzərdə tutulan layihələrin hamısı tenderlər vasitəsilə həyata keçirilməyə başlayıb. Layihələrin tətbiqi, əsaslandırılması, layihələndirilməsi, işçi layihələrin hazırlanması üzərinə iş gedir. Artıq 2024-cü ilin mart-aprel aylarından başlayaraq Naxçıvan Muxtar Respublikasında tikinti işlərinə geniş vüsət veriləcək və olduqca böyük infrastruktur layihələri icra olunacaq.

2023-cü ili uğurlu il kimi dəyərləndirən səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası 2023-cü ildə 40-dan çox tədbirə evsahibliyi etdi. Bu il Naxçıvan həm də çox maraqlı, olduqca əhəmiyyətli bir görüşə evsahibliyi edib. Naxçıvanda Azərbaycan Respublikasının Prezidenti ilə Türkiyə Cümhuriyyəti Prezidentinin görüşü keçirildi, eləcə də ayrı-ayrı nazirlərin iştirakı ilə hökumətlərarası görüşlər oldu. Bu da hər iki dövlətin gələcək perspektivlərini müəyyənləşdirmək naminə növbəti bir mərhələnin başlanğıcı kimi çox əhəmiyyətli idi.

Muxtar respublikada “yaşıl enerji” layihələri ilə bağlı görülən işlərə toxunan Fuad Nəcəfli bildirib: “Cənab Prezident Naxçıvan Muxtar Respublikasında səfərdə olarkən belə bir fikir səsləndirmişdi: “Naxçıvanın qazı, nefti olmasa da, günəşi var”. Buna uyğun olaraq da Naxçıvanın “yaşıl enerji” sahəsində aparıcı qüvvə olması hədəflənir. Naxçıvanda günəşli günlərin sayı olduqca yüksəkdir, ərazilərimizdə külək resursları var. Ümumilikdə, "yaşıl enerji"yə keçidlə bağlı layihələr artıq işlənilib”.

# 1250 ailəyə bayram hədiyyəsi

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası dövlət başçısı İlham Əliyevin ad günü, qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə aztəminatlı, o cümlədən, şəhid və qazi ailələrinə sovqat çatdırıb.**

Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri Səttar Möhbalıyev jurnalistlərə müsahibəsində bildirib: “Naxçıvan da daxil olmaqla respublikanın müxtlif bölgələrində yaşayan 5 min 550 aztəminatlı ailəyə ərzaq yardımı göndərilib. Naxçıvana isə 1250 ailəyə yardım çatdırılıb. Bu 5 ay ərzində Naxçıvanda 8 minə yaxın ailəyə yardım göstərilib. Biz çalışacağıq ki, mart ayında da Naxçıvanda aztəminatlı ailələr üçün yardım aksiyası keçirək”.

# “Ağbulaq” qış turizmi

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev Ağbulaq İstirahət Mərkəzində olub, qış turizminə hazırlığın vəziyyəti ilə maraqlanıblar.**

Məlumat verilib ki, Xizək mərkəzində ümumi uzunluğu 1600, eni isə 30 metr olan dağ-xizək enişi, kanat yolu, kafelər, süni qaryaratma sistemləri, xizəksürmə məktəbi mövcuddur. Sürüşmə zolaqlarında və kanallarda, eləcə də uşaqların əyləncəsi üçün nəzərdə tutulan sahədə lazımi təmizlik işləri aparılıb. Hazırda 26 sabit, 2 hərəkət edən süni qar püskürtmə aparatı vasitəsilə ərazidə süni qar örtüyü yaradılır.

Burada 120 dəst hər yaş qrupuna uyğun geyim, bir o qədər də xizək sürənlər üçün xüsusi geyim dəstləri mövcuddur. Bu il uşaqlar üçün 60 yeni kirşə alınıb, 4 qar motorunun hər biri texniki baxış keçirilərək saz vəziyyətə gətirilib. Həmçinin mərkəzin əsas infrastrukturundan biri olan kanat sisteminə texniki baxış keçirilib və lazımi təhlükəsizlik tədbirləri görülüb. Uzunluğu 952 metr olan kanat yolunda hər biri 4 yerlik olmaqla 58 oturacaq quraşdırılıb. Kanat xəttində quraşdırılması üçün yeni qapalı kabinlər də sifariş verilib. Kanat liftinin başlanğıcında və sonunda kafelər fəaliyyət göstərir.

Səlahiyyətli nümayəndə Xizək Mərkəzində yeni yaradılan infrastruktura da baxıb. Məlumat verilib ki, ərazidə 3-ü VIP olmaqla 8 yeni kupe istifadəyə verilib. VIP otaqlardan 2-si 6, 1-i isə 12 nəfərlikdir. Həmçinin qonaqların rahatlığının təmin olunması məqsədilə yeni mağaza da fəaliyyətə başlayıb. Burada məhsullar bazar qiymətlərinə uyğun təklif olunur.

Səhifənin materiallarını hazırladılar:
T.RÜSTƏMLİ, S.HƏSƏNOV
XQ

# Azərbaycan ağsaqqalları uğurlarımızı alqışlayırlar





**Dünən Azərbaycan Ağsaqqallar Şurasının ümumi yığıncağı keçirilib. Şuranın sədri, Milli Məclisin deputatı Eldar Quliyev qurumun 2023-cü ildəki fəaliyyətindən danışıb.**

Qurum rəhbəri bildirib ki, cari ildə təşkilat ölkəmizdəki ictimai-siyasi proseslərdə yaxından iştirak etməklə xalqımızın milli mənafeyinə xidmət göstərib. Qarşıya qoyulan əsas məqsəd ölkənin ictimai-siyasi, sosial-iqtisadi və humanitar inkişafına, cəmiyyət həyatının müxtəlif məsələlərinin həllinə ağsaqqalların töhfəsini təmin etmək, xüsusilə, yeniyetmə və gənclərin Vətənə, xalqa, dövlətə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində və maariflənməsində ağsaqqalların üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək, əxlaqi normaların və sağlam həyat tərzinin geniş təbliğini həyata keçirmək olub.

Ümumi yığıncaqda Azərbaycan Ağsaqqallar Şurasının Nəzarət-təftiş komissiyasının da hesabatı dinlənilib.

Şura sədrinin birinci müavini, Milli Məclisin deputatı Əhliman Əmiraslanov, Şura sədrinin müavini, Milli Məclisin deputatı Eldar İbrahimov, İdarə Heyətinin üzvləri – akademik Abel Məhərrəmov, professor Misir Mərdanov və başqaları çıxış edərək, qurumun cari ildəki fəaliyyətinin qənaətbəxş olduğunu diqqətə çatdırıblar.

**Ümumi yığıncağın sonunda qəbul edilən bəyanatda bildirilir:**

– Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev yolunu, irsini ən layiqli şəkildə davam etdirir. O, Ata vəsiyyətini yerinə yetirərək Qarabağı, onun tacı olan Şuşanı azad etdi. 3 ay əvvəl isə qalib Komandan Xankəndini separatçıların əsarətindən qutardı. Bu gün bütün Qarabağda, Şərqi Zəngəzurda şanlı Azərbaycan Bayrağı qürurla dalğalanır.

Biz xoşbəxt insanlarıq ki, xalqımızın, dövlətimizin bu xoşbəxt günlərini görmək nəsibimiz oldu. Bu gün Azərbaycan çoxəsrlik tarixinin ən qüdrətli dövlətdir! Bundan sonra Azərbaycanı ancaq qələbələr gözləyir. Bu yol qələbə, təhlükəsizlik, əmin-amanlıq, rifah, inkişaf yoludur!

**XQ**

# “Heydər Əliyev haqqında” kitabın təqdimatı






**Təşəbbüslər və Layihələr Mərkəzi (TLM) və Bakı Kitab Mərkəzi tərəfindən hazırlanan “Heydər Əliyev haqqında” adlı kitabın və www.aboutheydaraliyev.com portalının təqdimatı keçirilib.**



Bakı Kitab Mərkəzində keçirilən təqdimat mərasimində ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbiri Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı açaraq qeyd edib ki, “Heydər Əliyev haqqında” adlı kitabda dörd yüz nəfər nüfuzlu dünya liderinin, ictimai-siyasi xadimlərin, din, elm və mədəniyyət xadimlərinin ulu öndər Heydər Əliyev haqqında sitat və kəlamları yer alır.

Təşəbbüslər və Layihələr Mərkəzinin nümayəndəsi Aliyə Səfərova bildirib ki, layihə dörd dildə hazırlanıb. Kitabın bölmələri haqqında məlumat verən nümayəndə söyləyib: "Prezident İlham Əliyevin 2022-ci il noyabrın 28-də imzaladığı Sərəncamla “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiqlənib. Tədbirlər Planına uyğun olaraq, ölkəmizdə və xaricdə Ulu öndərin anadan olmasının 100 illiyi ilə əlaqədar müxtəlif tədbirlər keçirilir. Həmin tədbirlər silsiləsi çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Təşəbbüslər və Layihələr Mərkəzi (TLM), eləcə də Bakı Kitab Mərkəzi tərəfindən hazırlanmış “Heydər Əliyev haqqında” kitabı və aboutheydaraliyev.com portalın əsasını sitatlar bölməsi təşkil edir. Tərcüməsi Azərbaycan, ingilis, rus, ispan dillərində olan kitabda ümumilikdə 400 sitat var. Bunlardan 94-ü “Dövlət və hökumət başçıları”, 133-ü “Dövlət xadimləri”, 69-u “İctimai-siyasi xadimlər”, 47-si “Elm, mədəniyyət və din xadimləri”, 32-si “Beynəlxalq təşkilatların nümayəndələri” 25-i isə “İş adamları”na məxsusdur. Onların Ulu öndər haqqında fikirləri öz əksini tapır".

Təqdimat mərasimində dövlət xadimi, diplomat, alim, tarix elmləri doktoru Həsən Həsənov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Respublikası Prezidentinin sabiq köməkçisi, Prezident Katibliyinin keçmiş rəisi Dilarə Seyidzadə çıxış edərək ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini, qəbul etdiyi qərarların verdiyi töhfələrdən danışıb, ölkəmizin inkişafı naminə görülən misilsiz işlərin gənc nəslə çatdırılmasının vacibliyini qeyd ediblər.

Məclisdə "Ana", "Küçələrə su səpmişəm", "Alagöz" əsərləri ifa edilib.

# İcma: Ermənistan XİN sülhə qarşı çıxır

**Ermənistan Xarici İşlər Nazirliyi iki ölkə arasında sülhün bərqərar olmasına qarşı çıxmaqda davam edir. Azərbaycanı “etnik təmizləmə”də günahlandıran Ermənistan xarici işlər nazirinin müavini “erməni mədəni irsi” ilə bağlı Qarabağa UNESCO missiyasının göndərilməsinə dair çağırış edib.**

Bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

İlk növbədə vurğulamaq istərdik ki, təxminən, 30 illik bir dövrdə işğal edilmiş torpaqlarda Azərbaycan xalqının mədəni irsini dağıdan, təhqir edən və UNESCO missiyasının həmin ərazilərə göndərilməsinə mane olan Ermənistan olub.

UNESCO-nun fakt-araşdırıcı missiyası əsrlər boyu Azərbaycan xalqının yaratdığı zəngin mədəni irsin monitorinqi məqsədilə məhz Ermənistana göndərilməlidir. Qərbi Azərbaycan İcması bu məsələni dəfələrlə qaldırıb. Lakin Ermənistan nəinki UNESCO missiyasına imkan vermir, hətta Azərbaycan xalqının mədəni irsinin mövcudluğunu belə danır.

Ermənistan diplomatiyası riyakarlığa və destruktiv fəaliyyətə son qoymalıdır”, – deyə açıqlamada qeyd olunub.



# Ekoloji məsələlər üzrə işçi qrupunun iclası

**Dünən Ağdam şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

İclasda Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ekoloji tədbirlər, regionun biomüxtəlifliyi, mineral xammal ehtiyatları və yeraltı suların monitorinqi və təftişi işləri, faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, müasir texnologiyalardan istifadə olunması, yol tikintisi işlərində tələb olunan xammal təminatı, Ağdam şəhərində aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında “yaşıl enerji”nin inkişafı və ekoloji mühitin keyfiyyətinin artırılması istiqamətində aparılan işlər, işğaldan azad edilmiş ərazilərdə bərk məişət tullantılarının idarə olunması barədə iştirakçılara məlumat verilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov tezliklə həllini tapmalı olan bir neçə ekoloji məsələyə toxunub və işçi qrupdan bu məsələlərin həllini nəzarətə götürməyi xahiş edib.

İşçi qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinin beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın olduğu qeyd edib.

Eyni zamanda, Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı barədə məlumat verib.

İclasdan sonra iştirakçılar Ağdam rayonunun Kəngərli kəndinin ərazisində yaranan tikinti-söküntü tullantılarının təkrar emal olunması qurğusunun işi ilə tanış olublar.

**XQ**

# Hərbi Prokurorluq Xankəndidə Ulu öndəri andı



**Hərbi Prokurorluq ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Xankəndidə tədbir keçirib.**

Hərbi prokurorun böyük köməkçisi, Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, idarə rəisi Emil Kərimov, Ağdam hərbi prokuroru Surxay Hüseynov və digər çıxışçılar dahi şəxsiyyət Heydər Əliyevin dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb.

**XQ**

# Xaçatryan yenidən hakim qarşısında

**Azərbaycanlılara qarşı soyqırımı törətməkdə təqsirli bilinən Vaqif Xaçatryanın apellyasiya şikayəti üzrə məhkəmə başlayıb.**



Bakı Apellyasiya Məhkəməsində hakim Həsən Əhmədovun sədrliyi ilə keçirilən ilk iclasda şikayətin dəlilləri araşdırılıb.

Növbəti iclas yanvarın 7-nə təyin edilib.

Qeyd edək ki, Xaçatryan Vaqif Çerkezoviç 1992-ci ilin dekabrında erməni millətindən olan digər şəxslərlə birgə Xocalı rayonunun Meşəli kəndində yaşamış dinc azərbaycanlıların soyqırımında və digər ağır cinayətlərdə təqsirləndirilir. Ona qarşı Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 116.0.1, 116.0. 6., 116.0.11 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə ittiham irəli sürülüb.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə V.Xaçatryan 15 il azadlıqdan məhrum edilib.

**XQ**

# ADU-da “Bir günlük xəlifə” rektoru əvəz etdi

**Azərbaycan Dillər Universitetində “Bir günlük xəlifə” layihəsində iştirak edən tələbələr vəzifələrinin icrasına başlayıblar. Builki layihə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olundu.**



Tələbələr universitetin rektoru, prorektorlar, fakültə dekanları da daxil olmaqla 37 rəhbər vəzifəni icra edəcəklər. Vəzifələri tutan şəxslər həmin gündən universitetin “kölgə kabineti”ni formalaşdırır ki, bu kabinet növbəti “Xəlifə günü”nə qədər öz fəaliyyətini davam etdirir.



Həmin gün rəhbər vəzifələri icra edən tələbələrin qərarları tam hüquqi qüvvəyə malikdir. Rektor Kamal Abdullanın qərarı ilə “Bir günlük xəlifə” tələbə özünüidarəetmə günündə müvafiq vəzifələri tutan tələbə, magistr və doktorantlar icra etdikləri vəzifənin maaşını da alırlar.

ADU-nun xəlifə-rektoru Nicat Quluzadə müvafiq vəzifələrə xəlifə seçilmiş tələbələrlə ümumi iclası maraqlı keçdi, qarşıda duran işlərlə bağlı müzakirələr aparıldı, tapşırıqlar verildi. Xəlifə-rektor Pakistanın ölkəmizdəki səfirinin birinci müavini Moazzam Ali Sahito ilə görüşdü. Diplomat ADU-nun “Bir günlük xəlifə” layihəsini yüksək qiymətləndirdi. Görüşdə, eyni zamanda, ADU-nun Pakistan dil və mədəniyyət mərkəzinin fəaliyyəti yüksək qiymətləndirildi, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Nicat Quluzadə və Beynəlxalq əlaqələr üzrə prorektor Əli Rzayev Braziliya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzla da görüşdülər. Səfir “Bir günlük xəlifə” layihəsinin əhəmiyyətindən danışdı.

Universitetin mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı “XQ”-yə açıqlamasında bildirdi ki, bu addım ADU-nun rəhbərliyinin tələbələrin idarəetmədə təcrübə qazanmalarına hesablanan vacib təşəbbüsüdür. “Bir günlük xəlifə” layihəsi universitetdə 2017-ci ildən təşkil olunur. Tələbə, magistr və doktorantlar bir gün ərzində rektor, prorektor, dekan, mərkəz və şöbə müdirləri olurlar. Onlar bir gün ərzində universitetdə tədris prosesi, inzibati və sair işlərlə bağlı qərarlar qəbul edir, bir sıra yeniliklər həyata keçirirlər.

Xəlifə-rektor Nicat Quluzadə isə “XQ”-yə öz kabinetində müsahibə verdi. O bildirdi ki, 17 nəfər namizəd arasından xəlifələr səsvermə yolu ilə seçiliblər. Onun özü rektor seçilməyinə səbəb kimi universitet həyatında fəal tələbə olmasını göstərdi. Sonra isə dedi ki, gün ərzində ona yaxınlaşıb, nəsə xahiş edən tələbələr də olub. O, rektorun xidməti maşınının bir tələbəni yaşadığı evdən universitetə gətirməsinin gözəl hiss olduğunu da dilə gətirdi.

Nicat Quluzadə sonda bildirdi ki, onlara göstərilən etimadı ən yüksək səviyyədə doğrultmağa çalışacaqlar. O, hər bir gəncin öz imkanları daxilində dövlətinin, millətinin daha parlaq gələcəyi üçün çalışmasının vacibliyini qeyd etdi.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

**Azərbaycan kinosu – 125**

# Bizdə də prodüsserlik məktəbi yaradılmalıdır

**Həmsöhbətim Xalq artisti, Mədəniyyət və İncəsənət Universitetinin professoru, Prezident təqaüdçüsü Həmidə Ömərovadır. Onunla yaradıcılığı və kinonun problemləri barədə danışdıq. Aktrisa sənət yoluna nəzər salaraq bildirdi:**



– Az.Tv-də rejissor Həsən Seyidbəylinin çıxışından eşitdim ki, Azərbaycan incəsənət tarixində ilk dəfə Moskva Dövlət Kinematoqrafiya İnstitutunda azərbaycanlı tələbələr üçün kurs açılıb. Dedi, oxumaq istəyənlər sənədlərini bizim İncəsənət İnstitutuna təqdim etsinlər. Onda mən BDU-nun filologiya fakültəsində oxuyurdum. Ona görə Yevgeni Matveyevin qarşısında imtahan verəndə B.Vahabzadənin “Ümid ver mənə” şeirini deyə-deyə ağladım. Həsən Seyidbəyli dedi ki, qızım, sən bu gözəl gözləri niyə incidirsən, ümid istəyirsən, biz də sənə ümid veririk. Məni qəbul etdilər. Beləcə oxudum, aktrisa oldum.

**– Qayıdaq Bakıya, Həmidə xanım, siz kinostudiyaya gələndə “Azərbaycanfilm”in vəziyyəti necə idi?**

–Yaxşı, kinostudiyanın dəhlizləri də parıldayırdı. İş qaynayırdı, dublyajlar, çəkilişlər. Kinoaktyorluq şöbəsi də fəaliyyət göstərirdi. Hər il 4 bədii film, Moskvanın sifarişi ilə 4 bədii televiziya filmi çəkilirdi. Amma məni 6 ay filmə çəkmədilər, dəvət olunmadım. Bir az da belə gözlədim. Sonra ardıcıl çəkildim. “Qızıl uçurum”da Şəfiqə, “Anlamaq istəyirəm”də Çinarə, “Yol əhvalatı”ında Zümrüd, “Babamızın babasının babası”, “Qorxma, mən səninləyəm” “Üzeyir ömrü” və sair.

**– İran filmlərində də çəkilmisiniz, müstəqilliyin ilk illərində kommersiya filmində də çəkildiniz, “Şirbalanın məhəbbəti”ndə, amma sonra film istehsalı yerində saymağa başladı. Bu gün Kinematoqrafçılar İttifaqının katiblərindən biri kimi vəziyyəti necə dəyərləndirirsiniz?**

– Dünya kinosunun klassiklərindən biri Roman Polanski ömür boyu qara filmlər çəkmişdi, çünki uşaqlığı gestapoda keçmişdi, dramatik həyatı vardı. Ona həmişə sual verirdilər ki, sən necə rejissorsan, necə polyaksan ki, ancaq qara hissləri təbliğ edirsən, bəşəri film çəkmirsən? Heç nə cavab vermirdi. Müharibədən neçə il sonra bir film çəkdi – “Pianoçu” və hamının cavabı o filmdə var idi. O səviyyədə film çəkmək üçün maddi baza olmalıdır. Bizim kinomuzun maddi bazası yoxdur, bu da reallıqdır, amma hazırda bizə zaman lazımdır.

Çox keçməyəcək, Azərbaycan kinosu sıçrayış edəcək, buna inanıram. Görürsünüz, kommersiya filmləri inkişaf edir, çünki az pula bayağı film çəkmək olur. Bu mənada heç olmasa elə kommersiya filmi çəkmək olar ki, həm ideologiyaya xidmət etsin, həm də pul gətirsin. Dövlətin vəsaiti ilə film çəkən hər hansı təşkilat pul qazanacaqsa, artıq özünün maddi bazası olacaq. Bu yolla Azərbaycan kinosunu yavaş-yavaş dalandan çıxartmaq mümkündür.

Rejissorlar ancaq festival filmləri çəkmək istəyir, festival filmləri baxılmır. Mən özüm Fəcr festivalının münsiflər heyətinin üzvü olmuşam. O filmləri böyük maddi-texniki bazası olan ölkələr çəkir. Biz prodüsserlik məktəbi yaratmalıyıq. Prodüsserlərin film çəkməkdə maraqları olur, çünki oradan qazanc əldə edirlər. Kino ittifaqının katiblərindən biriyəm. Biz masa arxasında oturub kinonu saatlarla müzakirə edir, problemin həlli yollarını axtarırıq.

**– Kino tarixindən dərs deyirsiniz? Bəs, öz ixtisasınız?**

– Bu tale işidir. Həmin fənni tədris edən müəllim işdən çıxandan sonra mənə təklif gəldi, mən də qəbul etdim. “Retro” televiziya layihəsi elə kino tarixi idi deyə, mövzu mənə yad deyildi. Arada düşündüm ki, bəlkə öz ixtisasımdan dərs deyim, amma artıq zaman keçmişdi, mən bu sahədə ixtisaslaşmışdım.

**– Bu yaxınlarda yaradıcılıq gecəniz oldu. Təəssüratınız maraqlıdır...**

– Yaradıcılıq gecəmdə gördüklərimi sözlə ifadə etməyə belə çətinlik çəkirəm. Xalq artistləri və Əməkdar artistlər, film və tamaşalardakı tərəf müqabillərim, tələbə yoldaşlarım çıxış etdilər. Əlbəttə, onlardan bu qədər səmimi sözlər eşitmək məni fərəhləndirdi. Salondakı tamaşaçılar arasında çox sayda doğmalarım, dostlarım, tələbələrim var idi. Tədbir dörd saat davam etdi – insanlar getmək istəmirdilər.

**– Sizə gələcəkdə də yalnız uğur arzulayırıq.**

***R.QURBANLI***
***XQ***

# Növrəs İmanın nisgilləri və sevgi gülləri...

**Haqqında söhbət açdığımız Növrəs İman Aşıq Ələsgərin qardaşı oğlu olub. 1903-cü ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olub, mollaxanada təhsil alıb. Amma o dövr üçün çox sanballı bədii və tarixi kitablar oxuyub.**




Çar hökuməti devrilib, şura hökuməti qurulanda İman Göyçədən Azərbaycana gəlir. Kəlbəcərdə, Seyidlər kənd sovetliyinin katibi vəzifəsində işləməyə başlayır. Çox çəkmir ki, dövrünün haqsızlıqlarını görür, quruluşa etiraz əlaməti olaraq, vəzifəsindən istefa verir.

Saz-söz sənətinə daha mükəmməl yiyələnməyə başlayır. O, " Növrəs" təxəllüsü ilə şeirlər yazırdı. Nakam şairin şeirləri hamı tərəfindən sevilir, dillər əzbəri olurdu. Növrəs İmanın 4 min misradan ibarət müxtəlif şeir şəkillərində külliyyatı günümüzə gəlib çatıb. Bu şeirlərin əksəriyyəti Tovuzun Aşağı Əyyublu kəndindən tapılan şeir dəftərində toplanıb. Şeirlərin hamısını Növrəs İman öz dəst - xətti ilə yazıb.

**Yanmaz, gecə çox çıraqlar qaralar,**
**Gərdiş eli bir - birindən aralar,**
**Pozular bağçalar, güllər saralar,**
**Səfər edib biyabana deyərsiz.**

**Və yaxud:**

**Arif olan, huş ver sən bu sözlərə,**
**Namərd hər bəlanı gətirər sərə,**
**Kimdi səyyah olub, düşə çöllərə,**
**İman kimi gəzə dəryada?!**

**O, dillər əzbəri olan şeirlərindən birində yazırdı:**

**Yaralı gəlmişəm fani dünyaya,**
**Mənim sağalmağa dərmanımmı var?**
**Əzrayıl gələndə canım almağa,**
**Onu verməməyə fərmanımmı var?**

**Həm quruluş – dövran, həm ailə faciəsi, həm də nakam məhəbbəti İmanı qəlbən ağrıdırdı:**

**Növrəs İman, günün gəldi nə qara,**
**Bad əsdi zimistan, oldu nə qara,**
**Çərx-gərdiş yenə çaldı nağara,**
**Ay, gün kəmənd atdı, qurdu Sənəm, al...**

Göründüyü kimi, o, Ələsgər ocağının nadir istedad sahiblərindən idi. Aşıq sənəti tarixində özünəməxsus yeri vardı.

Dünən axşam Nizami Kino Mərkəzində Dədə Ələsgər ocağı İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən olan Növrəs İmanın 120 illik yubileyinə həsr olunmuş tədbirdə onun yaradıcılıq məziyyətlərinə işıq tutuldu, şeirlərindən nümunələr səsləndirildi.

Tədbiri Dədə Ələsgər Ocağı İctimai Birliyinin sədri Xətai Ələsgərli açdı. Professor İbadulla Ağayev, akademik Muxtar İmanov, başqa alim və ziyalılar Növrəs İmanın həyat və yaradıcılığı haqqında iştirakçılara ətraflı məlumat verdilər. Məclisdə çıxış edən tanınmış aşıqlar Növrəs İmanın şeirlərindən nümunələri saz üstündə ifa etdilər.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

**Epidemioloji durum**

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Epidemiya və Pandemiyaya Hazırlıq və Qarşısının Alınması Departamentinin qrup rəhbəri Diana Alvarez Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə ofisinin həftəlik mətbuat konfransında danq qızdırmasının yayılması halları ilə bağlı açıqlamalar verib.**

Danq qızdırmasının insanlara yoluxmuş ağcaqanadların dişləməsi ilə keçən ən çox yayılmış viral infeksiya olduğuna diqqət çəkən Alvarez, bu xəstəliyin daha çox tropik və subtropik iqlimlərdə şəhər yerlərində müşahidə edildiyini deyib.

Banqladeş Səhiyyə Xidmətləri Baş İdarəsi tərəfindən verilən açıqlamada ölkə ərazisində, ümumilikdə, 127 min 700 nəfərin bu xəstəliyə yoluxduğu bildirilib. Ölkədə hələ avqust ayında 342

# İndi də “danq qızdırması?”

## Dünyada 5 milyon insan bu virusa yoluxub




nəfər danq qripindən həyatını itirib. Ümumiyyətlə, Banqladeşdə bu xəstəlikdən ölənlərin sayı 618-ə çatıb.

Açıqlamada 24 saat ərzində baş verən ölüm hallarının 17-nin paytaxt Dəkkədə baş verdiyi qeyd edilib.

Alimlər virusun simptomlarını özündə müşahidə edən şəxsləri vaxtında xəstəxanaya müraciət etməyə çağırıb. İnkubasiya dövründən sonra yüngül qızdırma ilə davam edən xəstəliyin aldadıcı olduğunu, bəzən ağır fəsadlara səbəb olduğunun müşahidə edildiyini də bildiriblər.

ÜST isə yaydığı məlumatda vurğulayıb ki, dünyada, təxminən, 4 milyard insan danq qızdırması virusuna yoluxma riski altındadır. Qurumun uyğun departamentinin qrup rəhbəri Alvarez verdiyi son açıqlama ilə iqlim dəyişikliyi səbəbindən bütün ölkələrdə temperaturun artdığını deyib. Yoluxmuş ağcaqanadların da məhz bu səbəblə çoxaldığını vurğulayaraq, qarşıdakı ildə daha çox ölkədə danq qızdırması hallarının baş verə biləcəyinə diqqət çəkib.

Danq qızdırmasının əlamətləri arasında yüksək hərarət, baş ağrısı, bədən ağrıları və ürəkbulanma olduğunu deyən Alvarez bildirib ki, xəstələrin çoxu, təxminən, 2 həftə ərzində sağalır, bəzilərində isə bu, immunitet zəifliyi səbəbindən ciddi bir xəstəliyə çevrilə bilir.

**Alvarez açıqlamasında deyib:**

– Hazırda danq qızdırmasının spesifik müalicəsi yoxdur, lakin erkən diaqnoz və müvafiq tibbi yardıma əlçatanlıq ölüm ehtimalını azaldıb. 2023-cü ilin başlanğıcından bəri bütün dünyada 5 milyondan artıq yoluxma hadisəsi və 5 mindən çox ölüm halı qeydə alınıb.

***Z.HÜSEYNOVA***
***XQ***

**Sosial yeniliklər**

# Şamaxıda yeni sosial müəssisələr



**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev “Tənha anaların sosial inkişafına dəstək” layihəsi çərçivəsində Şamaxıda yaradılan sosial obyektlərin fəaliyyəti ilə tanış olmaq məqsədilə həmin müəssisələrə baş çəkib.**

Nazir burada yetkinlik yaşına çatmayan uşaqları təkbaşına böyüdən çoxuşaqlı anaların məşğulluğunun təmin edilməsi məqsədilə yaradılmış şəraitlə tanış olub. Məlumat verilib ki, hazırda müəssisədə bu kateqoriyadan olan 16 nəfərin məşğulluğu təmin edilib, o cümlədən 10 nəfər özünüməşğulluq proqramı çərçivəsində dərzi fəaliyyəti göstərir.

Daha sonra Şamaxı şəhər sakinləri İradə İnsanova və Mahizər Xəlilova üçün proqram çərçivəsində qurulmuş kiçik təsərrüfatlara baxış keçirilib. Məlumat verilib ki, İ.İnsanova kiçik dərzi sexi, M.Xəlilova isə qadın gözəllik salonu xidməti üzrə aktivlərlə təmin olunublar. Hər iki proqram iştirakçısı verilmiş dəstəkdən düzgün istifadə edərək kiçik bizneslərini inkişaf etdirməyə səy göstərdiklərini bildiriblər.

# Şəhid ailələri və qazilərə 200 mənzil verilib



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı şəhərində MİDA-nın Hövsan Yaşayış Kompleksində, Gəncə şəhərində, eləcə də Ağstafa, Beyləqan, Cəlilabad, Gədəbəy, İmişli, Kürdəmir, Qəbələ, Qusar, Masallı, Sabirabad, Salyan, Yevlax, Zaqatala və Zərdab rayonlarında, ümumilikdə, 200 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.**

4 saylı DOST Mərkəzində keçirilən tədbirdə mənzillərin sənədlərini təqdim edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib:

– Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə göstərilən dövlət qayğısı davamlıdır. İmtiyazlı şəxslərin mənzillə təminatı tədbirlərinə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanıb və ötən dövrdə uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişləndirilib.

Hazırda təqdim edilən mənzillər də daxil olmaqla şəhid ailələri və müharibə əlillərinə bu il artıq 1300, postmüharibə dövründə 5 min 800, ümumilikdə ötən dövrdə 14 min 600 mənzil və fərdi ev verilib. Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Qarabağ Universiteti bu bölgənin modern siması olmalıdır

**Prezidenti İlham Əliyevin bu il noyabrın 28-də imzaladığı sərəncamla Xankəndidə Qarabağ Universitetinin yaradılmasını təkcə ölkə ictimaiyyəti deyil, xaricdə yaşayan həmvətənlərimiz də böyük sevinc və hədsiz məmnunluqla qarşılayıb. Türkiyənin Egey Universitetinin professoru Ürfət Nuriyev də redaksiyamıza telefon zəngində bu qərarın tarixi önəmini vurğuladı. Soydaşımızla bu barədə ətraflı söhbət mövzunun aktuallığı ilə onlayn müsahibəyə çevrildi.**

**– Ürfət müəllim, qardaş Türkiyədəki fəaliyyətiniz əvvəlki əlaqələrimizlə redaksiyamıza bəllidir. Madam ki, ciddi bir mövzuda söhbətə başlayırıq, istərdik ki, oxucularımız əvvəlcə müsahibimizin kim olduğunu bilsin.**

– 1997-ci ildən Türkiyənin İzmir şəhərindəki Egey Universitetində çalışıram, 2005-ci ildən bu universitetin professoruyam. 29 beynəlxalq və 1 milli konfransın elm və təşkilat komitəsinin, 1 beynəlxalq və 2 milli jurnalın redaksiya heyətinin üzvüyəm. Beynəlxalq statuslu elmi jurnalın baş redaktoruyam. Türkiyədə 22 nəfər elmlər doktorunun (onlardan biri soydaşımızdır) və 26 magistr tələbənin elmi işinə rəhbərlik etmişəm. 20-dək azərbaycanlı tələbənin riyaziyyat bölməmizdə magistr və doktorantura təhsili almasına dəstək vermişəm.

Hazırda mənim rəhbərliyimlə 8 tələbə doktorluq, (onlardan biri azərbaycanlıdır) və 8 tələbə isə magistrlik dissertasiyası üzərində çalışır. Bundan əlavə, 20 universitet və 2 TÜBİTAK layihəsinin icrasında iştirak etmişəm. Tələbələrimlə birlikdə hazırladığımız proqram sistemlərindən bəziləri müxtəlif təşkilatlarda istifadə olunur.

Tələbə və həmkarlarımla bərabər kompüter riyaziyyatı sahəsində 100-dən çox elmi məqaləmiz nəşr olunmuş və 100-dən çox elmi konfranslarda məruzələrimiz dinlənilmişdir. Yetişdirdiyim tələbələr ABŞ, Almaniya, Hollandiya, Azərbaycan, Qazaxıstan, İran, Albaniya və Türkiyənin 10-dan çox məşhur universitetlərində və elmi mərkəzlərdə çalışırlar. Erdem Alkım adlı tələbəm 100 min ABŞ dolları dəyərində "Facebook"un "İnternetin təhlükəsizliyi" mükafatına layiq görülüb.

**– Bunlar qardaş ölkədəki fəaliyyətinizi əhatə edir, bəs Azərbaycanla əlaqələriniz necədir?**

– Vaxtilə çalışdığım BDU ilə Egey Universiteti arasında elmi əlaqələrin yaradılmasının təşəbbüskarlarından olmuşam. Egey Universitetinin Gəncə şəhərindəki Azərbaycan Aqrar Universiteti ilə ikili diplom proqramının həyata keçirilməsində yaxından iştirak etmişəm, 3 semestr Gəncədə Aqrar Universitetində tələbələrə dərs demişəm. Gələn ilin aprelində Azərbaycanda keçiriləcək Beynəlxalq Konqresin Təşkilat Komitəsinin üzvüyəm və elmi məclisə Türkiyə tərəfdən sədrlik mənə həvalə edilib.

**– Keçək əsas mövzuya. Xankəndidə Qarabağ universitetinin yaradılması sizi niyə bu qədər təsirləndirib. Oxucularımıza bu barədə nə demək istərdiniz?**

– Qarabağda yüksək ixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili azadlığına qovuşmuş ərazilərin iqtisadi potensialı, eləcə də əmək bazarının tələbləri baxımından




son dərəcə vacibdir. Xankəndidə yeni universitetin yaradılması çox müdrik və gərəkli bir addımdır. Ümumiyyətlə, tarixə, Qarabağda elmə-təhsilə xüsusi qayğı göstərilib və bu məsələ daim diqqətdə saxlanılıb.

30 illik işğal dövründə isə Qarabağ ziyalıları həm Azərbaycanın, həm də dünyanın müxtəlif bölgələrinə səpələndilər, elm və təhsil sahəsində fəaliyyətlərini davam etdirdilər. İndi Türkiyənin elə bir məşhur universiteti yoxdur ki, orada azərbaycanlılar, eləcə də Qarabağ bölgəsinin yetirmələri olan alim və ziyalılara rast gəlməyək. Uzun illər Türkiyədə çalışdığımdan Ankaranın, İstanbulun, İzmirin, Konyanın, Adananın, Samsunun və başqa şəhərlərin məşhur dövlət və özəl universitetlərində çalışan və həmyerlilərimizin sayı onlarcadır.

Yeri gəlmişkən söyləyim ki, bu alimlər istər elmi potensialları, istərsə də tədrisdəki uğurları ilə Türkiyənin təhsil sisteminə dəyərli töhfələr veriblər. Bunlar təkcə onların savadlı və yetkin kadrlar olmaları ilə yox, həm də zəngin təcürbəyə, geniş dünyagörüşünə və böyük elmi potensiala malik olmaları ilə də bağlıdır. Dediklərim təkçə Türkiyənin yox, azərbaycanlı alimlərin çalışdığı digər ölkələrin də elm və təhsil sisteminə aiddir.

Bunları niyə söylədim?! Ən əvvəl ona görə ki, mən xaricdə çalışan alim və müəllimlərimizin potensialının zəngin və əhatəli olduğunu görürəm. İkincisi, bu baxımdan Möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin, modern bir ali məktəbin və elm –mədəniyyət mərkəzinin yaradılması mühüm tarixi önəm daşıyır. Bu ali məktəbin beynəlxalq səviyyəli bir təhsil və elm ocağına çevrilməsi üçün xarici ölkələrdəki intellektual potensialımız mütləq öz köməyini göstərməlidir.

**– Şübhəsiz, bu dəstək dəyərli təkliflər verməklə başlayıb, bilavasitə universitetin qurulmasında iştirakla davam etməlidir.**

– Qarabağ hər iki ölkənin birgə səyləri ilə azad edildiyi kimi, bu torpağa sahibliyimizin ciddi bir təsdiqi olan Qarabağ Universitetinin yaradılması da Azərbaycan və Türkiyə təhsil əməkdaşlığının ön cəbhəsinə çevrilməlidir. Hər iki ölkənin, buraya türk dövlətlərini də əlavə edə bilərik, ən yaxşı təhsil qurucuları, alim və pedaqoqları Qarabağ Universitetinin yenidən təşkilinə təşəbbüskarlıqla, fədakarlıqla öz töhfəsini verməlidir.

Bu təhsil ocağında ən yüksək səviyyədə kadr hazırlığı təşkil edilməlidir. Burada dünya elminin öncül mövzularında tədqiqatlar aparılmalıdır. Xankəndidə qurulan universiteti əyalət ali məktəbi ola bilməz. Azərbaycanın qüdrət və qüvvəti bu gün Qarabağda gerçəkləşdirildiyi kimi, ölkəmizin ən yaxşı ali məktəbi də Xankəndidə fəaliyyət göstərməlidir. Dünya görməlidir ki, Qarabağ Azərbaycanın ürəyi olduğu kimi, Qarabağ Universiteti də beynəlxalq səviyyəli bir elm-təhsil mərkəzidir. Azərbaycanın ölkədəki və xaricdəki elm-təhsil adamları bu vəzifənin öhdəsindən gəlməyə qadirdir. Beynəlxalq reytinqli ali məktəblərin təcrübəsi əsas götürülməli, dünyanın görkəmli universitet professorlarının səsi Qarabağ Universitetindən gəlməlidir. Bununla ali məktəbə xarici ölkələrdən çoxsaylı tələbə cəlb etmək mümkündür. Bununla isə Qarabağın Azərbaycana məxsusluğunun daha bir təsdiqinə nail ola bilərik.

**– Qarabağ Universitetində hansı ixtisaslara üstünlük verilməsi ona beynəlxalq maraq yaradar?**

– İndi dördüncü sənaye inqilabının uğurlarının açarlarından biri və ən əsası universitet təhsilidir. Bütün dövrlər ərzində təhsilin məqsədi bu dövrdə cəmiyyətin ehtiyaclarına xidmət etmək, gəncləri müəyyən bir iş istiqamətində hazırlamaq və tərbiyə etmək olmuşdur. Universitetlər tələbələrini bu gün üçün yox, gələcək üçün hazırlamalıdırlar. Hazırda isə yeni texnologiyalar (süni intellekt, böyük məlumatlar), blok zəncirləri, informasiya təhlükəsizliyi və s. hər bir sənaye sahəsini misilsiz bir sürətlə dəyişdirdiyi üçün məzunlar bir yox, bir neçə sahədə hazırlanmalı və innovativ iqtisadiyyatın inkişafina hazır olmalıdırlar. Əgər biz bu gün tələbələrimizə dünənki təhsili veririksə, onda onların gələcəyini indidən uğursuz edirik.

**– Sizcə, yeni yaradılacaq Qarabağ Universiteti dediyiniz bütün bu tələblərə cavab verməsi üçün nə etməliyik?**

– Biz Qarabağda elə bir ali məktəb yaratmalıyıq ki, beynəlxalq arenada rəqabətə davamlı ola bilsin. Bunun üçün peşəkar professor-müəllim heyəti formalaşdırılmalı, universitetin maddi-texniki bazası ən son texnologiyalar əsasında



qurulmalıdır. Eyni zamanda, rəqabət qabiliyyətli ixtisasların açılması təmin edilməlidir. Universitetə peşəkar müəllimlər cəlb edilməli, əsasən, Türkiyə və Avropa ölkələrində təhsil almış yüksəkixtisaslı kadrlara üstünlük verilməlidir. Bundan əlavə, distant təhsilin yaratdığı üstünlüklərdən maksimal dərəcədə istifadə edilməli, rəqəmsal iqtisadiyyat sahəsində ixtisaslaşan tədris və elm şəbəkəsi qurulmalıdır.

**– Siz özünüz Qarabağ Universiretinə nədə yardımçı ola bilərsiniz?**

– Mənim əsas marağım və təcrübəm kibernetika və informasiya texnologiyaları ilə bağlı olduğu üçün Qarabağ Universitetində bu sahənin mövcudluğunu önəmli hesab edirəm. Amma bu heç də o demək deyil ki, ədəbiyyat, tarix, jurnalistika, dimlomatiya kimi sahələr unudulmalıdır. İndi dünya böyük qlobal problemlərin əhatəsindədir. Burada kiber təhlükəsizlik, qida təhlükəsizliyi, enerji, iqlim dəyişikliyi, səhiyyə və s. problemlər davamlı olaraq gündəmə gətirilir. Müasir dövrdə bu istiqamətlərin hər birinə kompüter elmləri, statistika və süni intellekt əsaslı təsir edir. Ona görə ilk olaraq bu sahələrin bazasının yaradılmasını vacib hesab edirəm. Onların ətrafında isə müxtəlif istiqamətləri inkişaf etdirmək lazımdır.

Bir sözlə, Xankəndidə işləyib-işləməməkdən asılı olmayaraq Qarabağ Universitetinin ölkənin və dünyanın ali təhsil sistemində layiqli yer tutması üçün üzərimizə mühüm işlər düşür və hər birimiz bu istiqamətdə çalışmalıyıq. Heç şübhə etmirəm ki, Qarabağ Universiteti modern və müasir təhsil sisteminin önəmli bir nümunəsi olacaq, onun xoş sorağı Qarabağı dünyaya qədim və sivil Azərbaycan torpağı kimi tanıdacaq.

**Namiq QƏDİMOĞLU**
**XQ**

# Azad edilmiş ərazilərdə yol-nəqliyyat şəbəkəsi qurulur

## Tezliklə Ağdamdan Xankəndiyə də dəmir yolu çəkiləcək

**"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) Tikinti layihələrinin idarə olunması departamentinin müdiri Tural Abbaslının bildirdiyinə görə, Ağdam–Xankəndi dəmir yolunun layihələndirmə işlərinə başlanılıb və artıq yerində baxış keçirilərək dəmir yolu marşrutu ilkin olaraq müəyyənləşdirilib. Gələn ildən bu yolun tikinti işlərinə başlanılması planlaşdırılıb.**

T.Abbaslı, həmçinin Yevlax–Bərdə layihəsinin (Bakı – Böyük Kəsik dəmir yolu xəttinin Qarabağa gedən qolu) texniki-iqtisadi əsaslandırılması işlərinin isə yekunlaşdığını xatırladıb.

Qeyd edək ki, Ağdam–Xankəndi dəmir yolu Yevlax–Xankəndi xəttinin bir hissəsidir və 1979-cu ildə inşası başa çatdırılıb. Bununla Dağlıq Qarabağ regionunu respublikanın digər bölgələri ilə daha sıx şəkildə bağlamaq mümkün olub. Bakı ilə birbaşa dəmiryolu əlaqəsi bərpa edilməklə Qarabağın sosial-iqtisadi və mədəni inkişafı daha da sürətlənib. Bu əhalinin maddi-texniki təchizatını yaxşılaşdırmaqla bərabər, həm də regionun iqtisadi göstəricilərinin əhəmiyyətli dərəcədə artmasına imkan verib. Xammalın tədarükü və məhsulların daşınması xərclərinin aşağı düşməsi səbəbindən Qarabağda istehsal olunan məhsulların maya dəyəri xeyli aşağı düşüb. Onun bazarda rəqabət qabiliyyətini və alıcıların sayını artırıb. Bütün bunlar məhz ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində əldə olunub.

O dövrün statistik məlumatlarına görə, Yevlax–Xankəndi xəttinin Bərdə–Ağdam dəmir yolu xətti hissəsi üzrə yük daşınmalarının illik dövriyyəsi 1,5 milyon ton, Ağdam–Xankəndi (27 kilometr) dəmir yolu xətti hissəsi üzrə isə 1 milyon ton olub.

Ermənistanın işğalı nəticəsində digər sahələrdə olduğu kimi, dəmir yolu infrastrukturuna da ciddi ziyan dəyib. Mövcud dəmir yolu xətti dağıdılıb, yollar, stansiyalar, ərazidəki hərəkət vasitələri (vaqonlar, lokomotivlər) və digər qurğu və avadanlıqlar tamamilə məhv edilib. Bununla da Yevlax–Xankəndi dəmir yolunun fəaliyyəti dayandırılıb, bu xəttin Ağdam, Əsgəran və Xankəndi stansiyaları uzun illər işğal altında qalıb.

2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsi Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatdıqdan sonra həmin ərazilərdə yenidən geniş quruculuq işlərinə başlanılıb. Bu, dəmir yolu xətlərinin layihələndirilməsi və tikintisi




ilə bağlı tədbirləri də əhatə edilib. Yevlax–Xankəndi dəmir yolu xəttinin Bərdə–Ağdam hissəsinin layihələndirilməsi və tikintisi işlərinə başlanılıb. Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamına əsasən, inşa olunan Bərdə–Ağdam dəmir yolunun uzunluğu 47,1 kilomet olub. Yan yolları ilə birlikdə isə 57 kilometr təşkil edib.

Həmin xəttin Köçərlidən Ağdama qədər olan hissəsi –26 kilometri işğal altında idi. Ərazidə düşmən saysız-hesabsız partlamayan silah-sursat yerləşdirmişdi. Aidiyyatı qurumlar tərəfindən təhlükəsizlik tədbirləri görüldükdən sonra tikinti işlərinə başlanıldı. Reyslərin döşənməsi üçün torpaq yatağında işlər görüldü. Bundan sonra dəmir yolunun üst quruluşunda çəkilişlər başlanıldı. Artıq Ağdam şəhərinə qədər dəmir yolu çəkilib.

Yol boyunca Bərdə, Köçərli, Təzəkənd stansiyaları istifadəyə hazırlanıb. Ağdam dəmir yolu vağzalında tikinti işlərinə başlanacaq. Vağzal milli arxitektura üslubunda dizayn edilib. Eyni zamanda, onun tikintisində milli ornamentlər əsas götürülməklə, şüşə elementlərdən geniş istifadə olunacaq. Vağzal Ağdam rayonunun logistik imkanlarını genişləndirəcək. Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək.

Stansiyanın tikintisi isə 2024-cü ildə başa çatacaq.

Görülən işlər Bərdə–Ağdam dəmir yolunun davamı olaraq Ağdam–Xankəndi dəmir yolunun tikintisini gündəmə gətirib. Gələn ildən bu yolun tikinti işlərinə başlanılacaq. Tural Abbaslının sözlərinə görə, bu xəttin əsas təyinatı Xankəndi və Şuşa şəhərlərinə, həmçinin ətraf kənd və qəsəbələrə sərnişinlərin və eyni zamanda, yüklərin daşınması fəaliyyəti ilə bağlıdır. Bu isə, öz növbəsində, azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin daha da sürətlənməsinə təkan verəcək.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

# Ulu öndərin regional inkişaf təlimi



**Nizami Kino Mərkəzində Qlobal və Regional İnkişaf: "Cənubi Qafqaz regionunun iqtisadi inkişafının prioritet istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**



Dövlət Turizm Agentliyinin, Azərbaycan Turizm və Menecment Universitetinin, Türkiyə Respublikasının İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun təşkilatçılığı, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi "Gənclərin Respublika Bədii Yaradıcılıq Evi" və "Çinar Yayımları" nəşriyyatının tərəfdaşlığı ilə keçirilən, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş mərasimdə Azərbaycan və Türkiyənin dövlət rəsmiləri və ziyalıları iştirak ediblər.

ATMU-nun rektoru İlham Mədətov müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin həyat və yaradıcılığı barədə geniş məlumat verib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin direktoru iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı, türkiyəli qonaqlar Mustafa Lətif Əmək, Güray Alpar, Mehmet Tümay, Hasan Yavuz çıxış edərək ölkələrimiz arasındakı qardaşlığın davamı olaraq müstəqillik illərində Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Qars, TRASSEKA layihələrinin reallaşmasında, Böyük İpək yolunun bərpasında, Türk dünyası ölkələri arasında əlaqələrin genişlənməsində Heydər Əliyevin müstəsna rolundan danışıblar. Məhz Heydər Əliyevin səyi nəticəsində bağlanan "Əsrin müqaviləsi"nin reallaşması bu gün Azərbaycanı Cənubi Qafqaz regionunda iqtisadi cəhətdən dayanıqlı və güclü bir dövlətə çevirmişdir.

Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində, o cümlədən, ölkəmizin diplomatik arenada uğur qazanmasında yüksək təhsilli gənclərin rolunun önəmli olduğu vurğulanıb.

Konfransda müxtəlif ölkələrdən gələn nümayəndələrin panellər üzrə məruzələri dinlənilib.

Məclis ulu öndərin xatirəsinə həsr olunmuş konsert proqramı ilə yekunlaşıb.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

XALQ TV-NİN QONAQLARI

# Qərbi Azərbaycanı yaşadan onun zəngin mədəni irsidir

**Xalq TV-nin budəfəki qonağı Azərbaycan Dövlət İqtisad Universitetinin baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Prezident təqaüdçüsü Nailə Yusifovadır. Xatırladaq ki, Nailə xanım İrəvan-Türk Pedaqoji Texnikumunun yaradıcılarından biri olmuş Bəhlul Yusifovun nəvəsi, Azərbaycanda qədim Şərq tarixinin görkəmli tədqiqatçısı, mixi yazılar üzrə nadir alim Yusif Yusifovun qızıdır.**

Söhbətin əsas mövzusu isə Qərbi Azərbaycandakı tarixi irsimiz, İrəvan mədəni mühitinin milli-mənəvi dəyərlər sistemimizdə önəmli yeri, Yusifovlar nəslinin tanınmış ziyalılarının xalqımıza göstərdiyi xidmətlərdir.

**– Nailə xanım, babanız Bəhlul Yusifov bir elm adamı kimi tanınsa da, onun tərcümeyi-halında Abasqulubəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un izləri də var. Elə bu baxımdan,**



**babanızdan eşitdiklərinizin yaddaş tarixinə sizinlə birgə nəzər salmaq istəyirik.**

– "Xalq qəzeti"nin və Xalq TV-nin Qərbi Azərbaycan mövzusunda verdiyi ardıcıl materialları icma üzvləri böyük maraqla izləyir. Xüsusən, İrəvan ziyalıları haqqında oxucu və tamaşaçı auditoriyasına təqdim etdiyiniz tarixi mövzulu yazılar milli yaddaşın qorunmasına və zənginləşməsinə xidmət edir. Xalqımız hər zaman dəyərli övladlarına yüksək etimad və məhəbbət göstərib. Belə insanlardan biri də babam Bəhlul Yusifov olub.

Bizim soy-kökümüz Vedibasar elindəndir. Babam 1903-cü ildə Vedibasarda - Böyük Vedi mahalında doğulmuşdur. Onun uşaqlığı və gəncliyi erməni daşnaklarının Azərbaycan torpaqlarına qanlı yürüşləri zamanına təsadüf etmişdir. Babam mahallarında partizan hərəkatına qoşulmuş, Abasqulubəy Şadlınskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni qəsbkarlarına qarşı döyüşmüşdür. Abasqulubəyin necə bir vətənpərvər, fədakar insan olmasını babam həmişə danışardı. Babam deyərdi ki, Abasqulubəy Vedinin mərd, cəsur oğullarını öz ətrafına yığdı. Namusumuzu, qürurumuzu qorudu. Ermənilərin törətdikləri cinayətlər elə bir vəhşilikdir ki, onu sözlə ifadə etmək çox çətindir. Çünki nankor qonşularımız bizdən torpaq alan gündən dost yox, düşmən simalarını göstərməyə başladılar.

Babam deyirdi ki, bu qədim yerlərə dinsiz-imansız düşmənin ayağı dəyəndən torpaqlarımızın bərəkəti də qaçdı. Rahatlığımız belə yox idi. Çünki düşmənimiz son dərəcə hiyləgər və amansız olub. O illərdə "Qırmızı Tabor"un tərkibində döyüşən oğullar həm də, Azərbaycanın ziyalılıq tarixində özlərinəməxsus iz qoyan şəxsiyyətlər olub. Yadımdadır, babam Bəhlul Yusifov söhbət edirdi ki, Abasqulubəy elə bir şəxsiyyət idi ki, yanında cəsur döyüşçülər yetişdirməklə yanaşı, şəxsiyyətlər də formalaşdırırdı.

Bəhlul Yusifovun İrəvan–Türk Pedaqoji Texnikumunun yaradılmasında xidmətləri bu gün tarix kitablarında tədqiqatçılar tərəfindən yazılaraq, yaddaşlara həkk olunmuşdur. Bəhlul Yusifov Vedibasarda xalqın maariflənməsində çox işlər görmüşdür. O, 1921–26-cı illərdə Vedidə savadsızlığın aradan qaldırılmasında bir vətəndaş yanğısı ilə mücadilə etmiş, 1927-ci ildə Gümrü qəza komitəsinin Amasiya rayonunda təlimatçı işləmiş, 1928-ci ildə Zaqafqaziya Kommunist Universitetinə daxil olmuşdur. 1933-cü ildə oranı qurtardıqdan sonra, elə həmin il İrəvan-Türk Pedaqoji Texnikumuna direktor təyin olunur.

Yeri gəlmişkən deyim ki, İrəvan–Türk Pedaqoji Texnikumu 1924-cü ilin oktyabr ayının 15-də açılıb. 1925-ci ildə texnikuma görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun adı verilib. Texnikumun ilk rəhbəri böyük maarifçi Mehdi Kazımovdan sonra, babam Bəhlul Yusifovun namizədliyi irəli sürülür. O illərdə savadlı insanları yetişdirmək çox ağır idi. 1933-cü ildən 1942-ci ilə qədər azərbaycanlı gənclərin təhsil alması, dünyagörüşünün formalaşması üçün direktor kimi bacardığını etmişdir.

Babam həmişə deyərdi ki, mən Türk adı çəkiləndə ürəyim dağa dönürdü, qürur keçirirdim ki, mən İrəvan mahalı üçün savadlı kadrlar hazırlayan təhsil ocağına rəhbərlik etmişəm. Bəhlul Yusifov 1943–44-cü illərdə Zəngibasar rayonu MTS-nin siyasi şöbəsinin rəisi vəzifəsində işləmiş, 1944-46-cı illərdə yenidən İrəvan-Türk Pedaqoji Texnikumuna direktor təyin olunmuşdur. Çox təəssüf ki, sonralar, şovinizm üzündən həmin texnikumun adından Türk sözü götürülmüşdür. Babamın həmin hadisələri necə bir nisgillə xatırlamağı indi də gözlərim qarşısındadır. Onun bir kəlamı ailəmizin hər bir üzvü üçün müqəddəs qanun idi. O, söyləyirdi: "Oxuyun, elm, maarif insanın ziyasıdır. Ziyalı insan müdrük olur. Nadanlıq insanlığın faciəsidir".

Bəhlul Yusifov 1952-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək, tarix elmləri namizədi adına layiq görülmüşdür. Babam 1950-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmış, ömrünü milli Azərbaycan kadrlarının hazırlanması işinə həsr etmişdir.

**– Ümummilli lider Heydər Əliyev Azərbaycan idealına xidmət etmiş milli ziyalılar nəslinin görkəmli simaları sırasında Yusifovlar şəcərəsinə də ehtiramla yanaşırdı. O, Azərbaycan tarixinin müəyyən mərhələsini yazmaqda atanızın bilik və fədakarlığından xəbərdar idi.**

– İnanın, mübaliğəsiz deyirəm ki, bu cəsur "Qırmızı tabor"çu olmuş babam təpədən dırnağa qədər ziyalı idi. 1984-cü ildə babam Bəhlul Yusifov haqq dünyasına qovuşdu. Amma o, cismən aramızdan getdi, ruhu hər zaman bizimlədir. O, ailəmizdə, nəslimizdə elə bir maarif işığı yandırmışdı ki, Yusifovlar şəcərəsi Azərbaycanın tarix elminə xidmət etməkdən qürur duyurdular.

Bəlkə, elə buna görə də, onun övladları – atam professor Yusif Yusifov, əmim Nəriman Yusifov, eləcə də bibim Sona Bəhlul qızı Azərbaycan elminə ömürlərinin sonuna qədər xidmət göstərmişlər. Bibim Sona Bəhlul qızı babamın dərs dediyi Azərbaycan Neft Akademiyasının dosenti idi. O, 19 noyabr 2019-cu ildə haqq dünyasına qovuşdu. Bütün bunları



ona görə sadalayıram ki, İrəvan ziyalılarının görkəmli nümayəndəsi Bəhlul Yusifovun ailə şəcərəsi Azərbaycan elminə görkəmli ziyalılar yetişdirmişdir.

Bu gün mən Yusifovlar nəslinin davamçısı olaraq, ölkəmizin ictimai-siyasi həyatında, Qərbi Azərbaycan icmasında bacardığım qədər dövlətimə, xalqıma xidmət göstərməkdən şərəf duyuram. Bilirsiniz, illər qarşısında ömrümüz, sanki, imtahan verir. Bu, həyatın, zamanın biz insanlara sorğusudur: "Sən Vətən üçün nə etmisən? Bu kəlam mənim həyat devizimdir!".

Övladlarım – Mahmud, Səid qarşısında həmişə bir tələbim olub. Onlara deyirəm: "Harada olursunuzsa olun, Azərbaycan naminə düşünün. Əlinizə qələm alanda, sizə söz veriləndə unutmayın ki, siz bu torpağın, bu Vətənin övladlarısınız". Xüsusilə, auditoriyaya daxil olanda dərs dediyim gəncləri də bax, bu ruhda yetişdirmək, formalaşdırmaq ən böyük amalımdır. İstəyirəm ki, illər keçəndən sonra, tələbələrim desinlər ki, biz bu əməlləri, bu düşüncəni Nailə müəllimədən öyrənmişik. Babamın da, atamın da, əmilərimin, bibimin simasında bütövləşən Yusifovlar şəcərəsinin bundan sonrakı mərhələsinin məsuliyyətini mən daşıyıram.

**– İstərdik ki, professor Yusif Yusifovun Azərbaycan türkologiya elminə, xüsusilə, elam mənbələrinin araşdırılmasına verdiyi töhfələrdən danışasınız. Atanız haqqında məşhur bir kəlam var: "Ölü dillərin dilmancı".**

– Söhbət ən qədim Azərbaycan tarixi ilə bağlı mixi yazılardan gedir. Şərqin qədim xalqlarından – şumerlər, akkadlar, elamitlər, urartular, midiyalılar mixi xətlərdən istifadə etmişlər. Bu xalqların çoxu ölüb getmiş, lakin onlardan daş, bişmiş kərpic üzərində yazılı mətnlər yadigar qalmışdır. Bu yazılar həmin xalqların dilini, mədəni irsini tədqiq etmək üçün böyük əhəmiyyətə malik bir xəzinədir. Professor Yusif Yusifov məhz elmin bu sahəsinin ilk tədqiqatçılarından biri olub. Ona görə də, ümummilli lider Heydər Əliyev professor Yusif Yusifovun Azərbaycan tarix elminə, Azərbaycan şərqşünaslığına xidmətlərini yüksək dəyərləndirmişdir.

Atam da Böyük Vedidə doğulmuşdu. O, 1946-cı ildə İrəvanda Pedaqoji Texnikumu bitirdikdən sonra, Leninqrad (hazırda Sank-Peterburq) Şərqşünaslıq Universitetində Qədim Şərq dilləri üzrə təhsil almışdır. 1952-ci ildə Azərbaycana qayıdan Yusif Yusifov Qədim Şərq dillərini bilən mütəxəssis kimi Azərbaycan elminə əvəzsiz tədqiqat əsərləri bəxş etmişdir. Təsadüfi deyil ki, Böyük Sovet Ensiklopediyasının 1981-ci il tarixli nəşrinə Yusif Yusifov Azərbaycan SSR-nin görkəmli tarixçi alimi, ilk və yeganə Elamşünası kimi daxil edilmişdir.

Professor Yusif Yusifovun 1993-cü ildə yazdığı "Qədim Şərq tarixi" dərsliyi bu gün də ali məktəblərdə yüksək ixtisaslı kadrların hazırlanmasında əvəzsiz mənbə rolunu oynayır. Yusif Yusifovun Azərbaycan elmi üçün xidmətləri Yusifovlar şəcərəsinin üzərinə bu gün də böyük məsuliyyət qoyur. Bir filoloq kimi çalışıram ki, babamın, atamın ruhuna layiq elmi, mədəni, ictimai-siyasi həyatımızda uğurlara imza atım. Elə buna görə də, bu gün Azərbaycanın qüdrətlənməsində hər birimizin səfərbər olmasını düşünürəm.

**– Siz Qərbi Azərbaycan İcmasının da ziyalı fəallarındansınız. İtirilmiş tarixi türk yurdu bu gün onun zəngin mədəni irsində yaşayır.**

– Əlbəttə, söhbətimin əvvəlində dediyim kimi, Yusifovlar şəcərəsinin davamçısı kimi özümü Vətənə borclu bilirəm. Mənim valideynlərimin hər ikisi Vedibasar mahalında doğulub boya-başa çatıblar. Hər ikisi rəhmətə gedib. İnsan öz kökünü, soyunu yaşatmalıdır. Bu mənada, Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşü zamanı çıxışından bəzi sitatları diqqətinizə çatdırmaq istəyirəm: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var".

Bəli, bir Qərbi Azərbaycan kökənli vətəndaş kimi zamanın bizə verdiyi şansdan istifadə etməyi özümə, sanki Vətənin bir ali tapşırığı kimi qəbul edirəm. Tələbələrimlə də bu ruhda işləyirəm. Babam da, atam da həmişə ailəmizin bütün üzvlərinə belə bir kəlamla müraciət edərdi. Əslində, bu kəlamlar babamdan bütün Yusifovlar şəcərəsinə keçmişdir: "Hər biriniz işinizdə, ailənizdə, ətrafınızda, insanlarla münasibətdə Vətən olun. Vətən olun ki, bu torpaqlar müqəddəsləşsin".

Bəli, düşünürəm ki, ölkənin hər bir vətəndaşı təpədən-dırnağa qədər Vətən olarsa, qarşımıza qoyduğumuz böyük amallar naminə yaşamaq əzmini qüdrətləndirərik. Son olaraq, onu demək istəyirəm ki, bu ölkənin sahib olduğu ən qiymətli kapital savadlı, zəngin təxəyyüllü insanlardır. Gəlin, hər birimiz Vətən naminə, Azərbaycan naminə bu gerçəkliyi vətəndaş aliliyi ilə qəbul edib, dövlətimizin bundan sonra da qüdrətlənməsi naminə çalışaq, işləyək, mübarizə aparaq, ən başlıcası "Dəmir yumruq" kimi bir olaq!

**– Müsahibə üçün Sizə təşəkkürümüzü bildiririk.**

*Söhbəti apardı:*
***Kəmalə ABDİNOVA***
***XQ***

Elmimizin qayğıları

# Toponimlər–tarixin "açar"ı

## Qədim yer adları torpağa vurulan milli möhürdür



**Azərbaycan xalqının milli və mənəvi sərvəti, qədim tarixi keçmişimizin öyrənilməsi baxımından çox qiymətli mənbə olan toponimlər üzrə başlıca araşdırma obyekti ölkəmizin coğrafi adlarıdır. Vətənimizin ərazi bütövlüyü buradakı coğrafi adlarla bilavasitə təsbit olunur.**




1950-ci illərdə toponimik tədqiqatların genişlənməsi Azərbaycanın müxtəlif bölgələrində sahənin inkişafına yol açmışdı. Nəticədə ayrı-ayrı ərazilərin toponimləri haqqında elmi fikirlər söylənildi, mövzuya uyğun müxtəlif materiallar dərc olundu və xeyli yeni elmi nəticələr əldə edildi. Tarixi faktların qərəzsiz, elmi baxımdan tam və sistemli öyrənilməsində bu gün də öz aktuallığını saxlayan bütün toponimik sistem (oronimlər, hidronimlər), əsasən də yaşayış məntəqə adları (oykonimlər) uzaq keçmişimizin izlərini qoruyub saxlamaqdadır.

Görkəmli alimlərin tədqiqat əsərləri və coğrafi adlar üzrə lüğətin çapı sovet dövründə bu sahədə atılan uğurlu addımlardandır. Respublikamızın müxtəlif bölgələrinin toponimləri mütamadi olaraq görkəmli Azərbaycan alimləri A.A.Axundov, R.M.Yüzbaşov, B.Ə.Budaqov, Y.B. Yusifov, C.M.Mollazadə, Ə.Hüseynzadə, Q.Ə.Qeybullayev, A.M.Qurbanov, Q.Məşədiyev, T.M.Əhmədov və başqalarının tədqiqatlarında, müxtəlif istiqamətlərdən araşdırılıb. 1973-cü ildə AMEA-nın Coğrafiya İnstitutunda "Coğrafi adlar (toponimika)" şöbəsi yaradılıb. Hazırda institutun toponimist əməkdaşları "Coğrafi fikir tarixi və toponimika" adını daşıyan şöbədə fəaliyyət göstərirlər. İnstitutda Qərbi Azərbaycan toponimləri ilə bağlı da dərin və əhatəli araşdırmalar aparılır. Bu tətdiqaqtlar həmin torpaqların xalqımıza məxsus olduğunu birmənalı olaraq təsdiqləyir.

İstənilən bir ərazinin toponimik sistemi orada tarixən məskun olmuş tayfa birliklərinin, sonradan özündə kiçik etnik qrupları da birləşdirən xalqların dil imkanları hesabına yaranıb. Ötən əsrin 70-ci illərindən etibarən Coğrafiya İnstitutunun toponimist elmi işçiləri Azərbaycan ərazisi inzibati rayonlarının (Şəki–Zaqatala, Şərqi Qobustan–Abşeron regionu, Mil–Qarabağ zonası, Kür–Araz ovalığı, Şirvan, Kəlbəcər, Zəngilan, Qarabağ, Gəncə–Qazax və s.) yaşayış məntəqələri üzrə mikrotoponimlərinin tədqiqi ilə məşğul olublar.

Tarixi yurd yerlərimizi zəbt edən ermənilər nəinki təkcə həmin ərazilərdəki doğma adlarımızı mənimsəməyə çalışıblar, ümumiyyətlə, bütövlükdə türk mənşəli toponimləri özününküləşdirərək, həmişə qərəzli mövqe tutublar. Onların əsas sas məqsədi xalqımızın min illər boyu sahibi olduğu coğrafiyada yaşaması faktlarını saxtalaşdırmaq olub. Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdəki coğrafi obyektlər yenidən öz doğma adlarına yiyələnirlər. Ərazilərdəki çoxlu sayda mikrotoponimlərin – adonimlərin, diromonimlərin, fitonimlərin və s. passiv fonda keçməsi, yaxud da yenilərinin yaranması çöl tədqiqat işlərinin aparılmasının vacibliyini gündəmə gətirir.

Hər bir təbii coğrafi ərazinin toponimiyasının tədqiq olunması müstəsna elmi-təcrübi, tarixi, siyasi əhəmiyyət daşıyır. Toponimiyanın inkişafı cəmiyyətin inkişafı ilə sıx bağlıdır. Azərbaycanın coğrafi obyekt adlarının tədqiqi mövzusunda aparılan regional toponimik tədqiqat işləri davam edir. Qədim oğuz elinin adını yaşadan toponimlərimizi qorumaq müqəddəs borcumuzdur.

Bütün bu sadalanan uğurlara baxmayaraq, müəyyən problemlər də həllini gözləyir. Bu sahədə məsələlərin daha sistemli həlli müsbət nəticələr verə bilər. Təəssüf ki, bu gün də toponimika mövzusunda yazan təsadüfü adamlar çoxdur. İllik hesabat xatirinə, eləcə də "alim" kimi bəzi məqsədlərinə çatmağa çalışan toponimika elmindən xəbərsizlər yaranmış boşluqdan çəkinmədən istifadə edirlər. Görünən budur ki, institutun "Coğrafi adlar (toponimika)" şöbəsinin yenidən müstəqil şəkildə fəaliyyətinin təmin olunması sahənin prespektiv inkişafında müsbət rol oynayar.

Daha bir fakta diqqət yetirək. Sözügedən şöbənin yaradılmasından yarım əsr keçir. Yuxarıda qeyd etdiyimiz kimi, bu müddət ərzində Azərbaycan toponimiyasının öyrənilməsinə həsr olunan cəmi 2 konfrans keçirilib. Sonuncu konfransdan (1981-ci il) isə bizi 42 il vaxt ayırır. Deməli, bu mövzuda növbəti konfransların keçirilməsi Azərbaycan toponimiyasının prespektiv inkişafında müsbət rol oynayardı.

Çox yaxşı olardı ki, Qarabağın müxtəlif bölgələrinin coğrafi adlarınının tədqiqi istiqamətində görülən işlərin daha mükəmməl aparılması üçün münbit şərait yaradılsın. ETN-nin Coğrafiya İnstitutunun toponimist əməkdaşları da bu məqsədlə müntəzəm olaraq aidiyyatı ərazilərdə elmi-tədqiqat işlərinin aparılması məqsədilə xidməti ezamiyyələrdə olmalı, müvafiq ekspedisiyalar təşkil edilməlidir. Şübhəsiz, məsələnin həlli həm də görüləcək işin keyfiyyətinə müsbət təsirini göstərəcək.

Əslində, Azərbaycanın müxtəlif ərazilərində sistemli şəkildə toponimik araşdırmaların aparılmasında alimlərimizin üzərinə çox böyük yük düşür. Bu tədqiqatçıların hər bir adın mənşəyi, etimologiyası haqqında doğru, düzgün fikir söyləmələri üçün, kifayət qədər tarixi faktlara, mənbələrə əsaslanmaq imkanı olmalıdır. Bu imkanların əldə olunması üçün isə hüquqi, elmi və mənəvi mexanizmin işə salınmasından çox şey asılıdır. Şübhəsiz, sadalanan problemlərin həlli istiqamətində görüləcək hər bir iş Azərbaycan toponimiyasının gələcək inkişafının təmin olunmasına xidmət edəcək.

***Natiq BABAYEV,***
***Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun böyük elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru***

İDMAN

# Prezident Kubokunu “Polad” qazandı

**Azərbaycan xalqının ən qədim, təxminən, 3 minillik tarixi olan çövkən atüstü oyunları populyarlığını getdikcə artırır. İl ərzində ölkədaxili yarışlarla yanaşı, dünya çempionatının da Azərbaycanda yüksək səviyyədə təşkili bu idman növünə olan böyük maraqdan xəbər verir.**

İlin son yarışlarından olan çövkən milli atüstü oyunu üzrə Prezident Kuboku turniri dediklərimizin daha bir təsdiqidir. Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə keçirilən, baxımlı olduğu üçün böyük maraqla izlənilən yarış həm də, gərgin mübarizə ilə yadda qalıb. Budəfəki ənənəvi turnirdə yalnız milli cins atlar yarışıblar.

Binə Atçılıq Mərkəzinin qapalı manejində təşkil olunan turnirin son günündə üçüncü yer uğrunda “Sərhədçi-Dilbaz” komandası “Omar”la mübarizə aparıb. Görüşdə 2:1 hesabı ilə qələbə qazanan “Omar” bürünc medala sahib olub. Final görüşündə isə “Sərhədçi-Qarabağ”ı 4:1 hesabı ilə üstələyən “Polad” komandası Prezident Kuboku turnirinin qalibi adını qazanıb.

İlk üç yeri tutan komandalar müvafiq olaraq, qızıl, gümüş və bürünc medallar, həmçinin fəxri diplom, turnirin qalibi olan “Polad” komandası isə kubok ilə təltif edilib.

Mükafatçılara medalları gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev təqdim ediblər.



Yarışda “Sərhədçi-Qarabağ”, “Polad”, “Köhlən”, “Şirvan”, “Sərhədçi-Dilbaz”, “Omar”, “Zəfər” və “Embawood” kollektivləri iştirak edib. Onu da qeyd edək ki, “Şirvan”, “Zəfər” və “Embawood” komandaları ilk dəfə ənənəvi turnirə ilk dəfə qatılıblar.

**Yarışdan sonra müsahibə verən ARAF-ın baş katibi Bəhruz Nəbiyev son illər ölkəmizdə atüstü oyunlara maraq və diqqətin artırıldığını bildirib. O qeyd edib ki, çövkənin coğrafiyasının daha da genişləndirilməsi və populyarlığının artırılması üçün federasiya tərəfindən məqsədyönlü işlər aparılır:**

–Ənənəvi olaraq hər il keçirilən Prezident Kuboku turnirinin bu il 10-cu – yubiley turniri təşkil edildi. Yarışın yekun mərhələsinin məhz Prezident İlham Əliyevin doğum günündə keçirilməsi isə təsadüfi deyil.

Bəhruz Nəbiyev bildirib ki, Azərbaycan ötən ay çövkən üzrə dünya çempionatına ev sahibliyi edib. Bundan sonra belə yarışlar ölkəmizdə mütəmadi olaraq təşkil ediləcək. Əsas məqsəd, çövkəni həm də dünyada tanıtmaqdır. 2024-cü ildə ölkəmizdə peşəkar çövkən liqasına start veriləcək. Bu turnirdə 10-a yaxın komandanın mübarizə aparacağı planlaşdırılır. Mövsüm ərzində bütün komandalar bir-birinə qarşı oyunlar keçirəcək. Bununla da mütləq qalib müəyyənləşəcək.

Qeyd edilib ki, gələn ilin dekabr ayında isə 11-ci Prezident Kuboku yarışı keçiriləcək. Bu iki turnirin qalibləri isə 2025-ci ilin ilk aylarında təşkil ediləcək Superkubok turnirində mübarizə aparacaqlar.

Baş katib onu da deyib ki, ölkəmiz “Paris-2024” Yay Olimpiya Oyunlarında atçılıq idmanında təmsil olunmayacaq. Əsas hədəf isə 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarıdır:

–Olimpiya Oyunlarında iki dəfə konkur yarışında təmsil olunmuşuq. Artıq dresaj – atsürmə üzrə milli komandamız da formalaşıb. Yığma Azərbaycandan kənarda ilboyu təlim-məşq toplanışı keçir. Ümid edirik ki, 2 komandamız 2028-ci ildə keçiriləcək Olimpiadada iştirak hüququ qazanacaq.

Qeyd edək ki, Prezident Kuboku yarışı 2014-cü ildən başlayaraq hər il keçirilir. Builki yarış 10-cu – yubiley turniri olub. Ötən 9 yarışda 6 dəfə “Sərhədçi”, hərəyə 1 dəfə “Omar”, “Buta golden” və “Polad” komandaları qalib olublar.

***Leyla QURBANOVA***
***XQ***

# “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı bərpa, tikinti və idarəetmə xidməti” Publik Hüquqi Şəxsi

## “Zəngilan rayonunun Cahangirbəyli kənd yaşayış məntəqəsində qeyri-yaşayış obyektlərinin tikintisi” işlərinin satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs

VÖEN – 5200287501
BANK – “KAPİTAL BANK” ASC-nin 28 may filialı
Kod – 200123
VÖEN – 9900003611
M/h – AZ37NABZ01350100000000001944
H/h – AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tenderdə iştirak etmək üçün ərizə.
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır).
- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
- Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.
- Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).
- Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.
- Baş podratçı kimi son 3 il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 15 (on beş) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 7 (yeddi ) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir;
- Son üç il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 15 (on beş) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 fevral 2024-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 fevral 2024-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 15 fevral 2024-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Turizm və Menecment Universiteti

## aşağıda adları qeyd olunan kafedralarda vakant vəzifələri tutmaq üçün

# MÜSABİQƏ ELAN EDİR

İctimai fənlər kafedrası:
Müəllim – 1 yer
Nəqliyyat, informasiya, kommunikasiya texnologiyaları və təbiət elmləri kafedrası:
Müəllim – 1 yer (0,5 ştat)
Beynəlxalq münasibətlər kafedrası:
Müəllim – 2 yer
Müəllim – 1 yer (0,5 ştat)
Turizm biznesi kafedrası:
Müəllim – 1 yer
Dillər kafedrası:
Müəllim – 2 yer
Müəllim – 1 yer (0,5 ştat)
İqtisadiyyat kafedrası:
Müəllim – 2 yer
Menecment kafedrası:
Müəllim – 2 yer
Müəllim – 1 yer (0,5 ştat)

Müsabiqədə elmi-pedaqoji və ya ixtisası üzrə ən azı 1 il iş stajı olan elmlər namizədləri, eləcə də ən azı 3 il elmi-pedaqoji iş stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan ali təhsilli mütəxəssislər iştirak edə bilərlər.

Sənədlər elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə).
3. Tərcümeyi-hal.
4. Şəxsiyyət vəsiqəsinin surəti.
5. Profilə uyğun ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin təsdiq olunmuş surətləri.
6. Elmi və elmi-metodiki işlərin siyahısı.

Qeyd: 1. Həmin ali təhsil müəssisələrində işləyən şəxsin müsabiqədə iştirak etmək üçün yalnız rektorun adına ərizə, elmi və elmi-metodiki işlərin siyahısını təqdim etməsi kifayətdir.

2. Namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

Telefon: 564-42-33 (daxili - 115).

Ünvan: AZ1072, Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103-cü otaq.

BEYNƏLXALQ HƏYAT

# Serbiyada nə baş verir?

## İğtişaşların arxasında Qərbin barmağı görünür



**Son bazar günü Belqrad şəhərinin mərkəzində bu ölkədə dekabrın 17-də keçirilən son parlament seçkilərinin nəticələrinə etiraz mitinqi olub. Lakin aksiya tezliklə zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlara çevrilib. Bu barədə “Lenta.ru” saytı məlumat yayıb.**

Xəbərdə deyilir ki, Belqrad meriyasının qarşısında baş verən iğtişaşlar zamanı iki polis əməkdaşı ağır yaralanıb. Daha bir neçə polis zabiti etirazçılar tərəfindən onlara atılan daşlardan yüngül xəsarətlər alıb. İğtişaş törədən 35 nəfər hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç dünən iğtişaşlarla əlaqədar Milli Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb. Dövlət başçısı “Pink” telekanalına müsahibəsində bildirib ki, ölkədəki iğtişaşlar Qərbin indiyədək bir çox ölkələrdə sınaqdan çıxardığı növbəti “rəngli inqilab” ssenarisindən başqa bir şey deyil.

Prezidentin sözlərinə görə, bir çoxları Belqradın anti-Rusiya sanksiyalarına qoşulmasında israr edərək Serbiyaya öz iradələrini yeritməyə çalışırlar, lakin rəsmi Belqrad bundan sonra da müstəqil siyasət yürütməyə davam edəcək.

Serbiya Prezidenti sonra deyibdir: “Onlar (Qərb dairələri-red) Serbiyanı zəif görmək istəyirlər. Niyyətləri budur ki, əvvəllər olduğu kimi, bizi adi bir oyuncaq kimi idarə etsinlər, hökuməti və nazirləri seçə bilsinlər, hansı siyasətin həyata keçiriləcəyinə qərar versinlər, faksla və ya telefonla əmrlər versinlər ki, Rusiyaya qarşı sanksiyalar tətbiq edin. Amma biz öz siyasətimizi aparmaq istəyirik”.

Bu arada Serbiyanın Baş naziri Ana Brnabiç deyib ki, Moskva Belqradı mümkün iğtişaşlar barədə xəbərdar etmişdi. Hökumət başçısı Rusiya təhlükəsizlik xidmətindəki işçilərə təşəkkür edib və əlavə edib ki, onun bu bəyanatı Qərbdə populyar olmayacaq və ölkə siyasətçilərinə qarşı böhtan kampaniyası başlanacaq.

Tanınmış siyasi şərhçi, professor Mübariz Məmmədli hesab edir ki, Qərb çoxdan rəsmi Belqradın Moskava ilə yaxın münasibətlərindən narahatdır. Bundan başqa, Serbiyanı Kosovonun müstəqilliyini tanımağa məcbur etmək istəyirlər.

Professor, həmçinin bildirdi ki, bu ilin oktyabrında Fransa, Almaniya liderləri açıq şəkildə Belqradı Kosovonu tanımağa çağırmışdılar. Ölkə iqtidarı bu təzyiqlərə davam gətirmək üçün özündə güc tapa bildi. Məsələ burasındadır ki, Serbiya əhalisinin böyük əksəriyyəti hazırkı iqtidarı dəstəkləyir.

Təkcə Fransa və Almaniya deyil, ABŞ dövləti də Serbiyanı “cəzalandırmağa can atır”. Belə ki, Ağ ev USAİD xətti ilə Qərbin diqtəsini yerinə yetirməyən ölkələrdə iğtişaşlar törətmək, loyal hakimiyyətlərin qurulmasına nail olmaq siyasətini davam etdirir. Sirr deyil ki, Serbiya da okeanın o tayında “qara siyahı”ya salınan dövlətlərdəndir.

Bakı Dövlət Universitetinin xarici ölkələrin iqtisadi, siyasi coğrafiyası kafedrasının müdiri, professor Aydın İbrahimov qeyd etdi ki, Qərb eyni siyasəti vaxtilə Ukraynada həyata keçirib və bu gün bu ölkəni faktiki olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoyub.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev mövzu ilə bağlı bizimlə söhbətində vurğuladı ki, Qərb siyasətçiləri eyni qaydada Azərbaycanı da uzun illər ərazilərinin işğalı ilə barışmağa məcbur etmək istəyiblər, eyni ssenari ilə burada da çevrilişlər planları olub, amma bu, baş tutmayıb və heç vaxt tutmayacaq. Azərbaycan xalqı öz dostunu düşmənindən ayırmağı yaxşı bacarır.

T.Rzayev əmindir ki, Serbiyada qanuni seçilmiş iqtidarı devirmək planları mümkün olmayacaq. Son illər Serbiya Azərbaycan dövləti ilə bir çox sahələrdə uğurla əməkdaşlıq edir və ölkəmizi beynəlxalq platformalarda dəstəkləyir.

Xatırladaq ki, Serbiyada 9 gün əvvəl keçirilən növbədənkənar parlament seçkilərində hakim Serb Tərəqqi Partiyası qalib gəlib. Belə ki, Prezident Vuçiçin sədri olduğu Serb Tərəqqi Partiyasının liderliyində qurulan koalisiya seçkilərdə ümumi səslərin, təxminən, 47 faizini toplayıb. Bununla da “Aleksandar Vuçiç – Serbiya dayanmamalıdır” koalisiyası ölkə parlamentində özünə 250 yerdən 129-nu təmin edib.

Yeri gəlmişkən, parlament seçkiləri ilə yanaşı, Belqrad Şəhər Assambleyasına keçirilən yerli seçkilərdə isə hakim partiya səslərin 39 faizini toplaya bilib.

Ən son məlumatlara görə, Qərbin Serbiyada məkrli planları özünü doğrultmur, Belqradda hazırda tam sakitlikdir.

***M.HACIXANLI***
***XQ***

# PKK quldurları zərərsizləşdirilib

**Türkiyə ordusu İraqın şimalında və Suriyada PKK-nın hədəflərinə irimiqyaslı hava zərbələri endirib. F-16 döyüş təyyarələrinin iştirak etdiyi əməliyyat zamanı Suriya və İraqın şimalında yerləşən 120 kilometr dərinlikdə müəyyən edilən koordinatlar bir-bir vurulub, 30 terrorçu zərərsizləşdirilib.**

Türkiyə Müdafiə Nazirliyindən bildirilib ki, həftəsonundan bu yana zərərsizləşdirilən terrorçuların sayı 56-ya yüksəlib. Əməliyyata müdafiə naziri Yaşar Gülər Hərbi Hava Qüvvələri Əməliyyat Mərkəzindən rəhbərlik edib. O, hava əməliyyatlarından sonra pilotlara müraciət edib. Milli Müdafiə Nazirliyinin sosial media hesabında paylaşılan görüntülərdə nazir Gülər bu mesajları verib: “Kədərimiz böyükdür. Bununla belə, övladlarımızın qisasını almaq üçün iradəmiz var. Biz bu günə qədər şəhidlərimizin qanını yerdə qoymamışıq”.

Qeyd edək ki, Türkiyə Silahlı Qüvvələrinin əməliyyatı terrorçuların 12 türk əsgərinin qətlə yetirdikdən sonra başlayıb.

Bu arada Türkiyədə fəaliyyəti qadağan edilən Kürdüstan İşçi Partiyasının (PKK) liderlərindən biri Milli Kəşfiyyat Təşkilatının (MİT) keçirdiyi xüsusi əməliyyat nəticəsində Suriyanın şimalında zərərsizləşdirilib. Bu barədə Anadolu agentliyi ölkənin təhlükəsizlik strukturlarındakı mənbələrə istinadən məlumat yayıb. “MİT Suriyada terror təşkilatı PKK/YPG-nin liderlərindən biri, “Bahoz Afrin” kod adlı terrorçunu zərərsizləşdirib”, – agentlik bildirib.




***P.ƏFƏNDİ***
***XQ***

# “Çörək Nəqliyyat “ATSC səhmdarlarının nəzərinə!

30 yanvar 2024-cü il saat 11.00-da “Çörək Nəqliyyat “ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı şəhəri, Qara Qarayev prospektində yerləşən “Sevinc “ yay kinoteatrının binasında keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Yığıncağın keçirilməsi ilə əlaqədar prosedur məsələlərin həll edilməsi (yığıncağın sədrinin, katibinin və hesablama komissiyasının təyin olunması).
2. Cəmiyyətin ləğvi və bununla əlaqədar bütün digər məsələlərin həll olunması üçün qərar qəbul edilməsi.
3. Cəmiyyətin ləğvetmə komissiyasının (təsviyəçinin) təyin edilməsi.
4. Cəmiyyətin səhmlərinin ləğv edilərək dövriyyədən çıxarılması və bununla əlaqədar bütün digər məsələlərin həlli barədə qərar qəbul edilməsi.

QEYD-Səhmdarlar yığıncağın gündəliyinin materialları ilə yığıncaqda tanış ola bilərlər.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 283 (30399) 26 dekabr 2023-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

# Voleybol komandamız EEVZA-da

**20 yaşadək voleybolçu qızlardan ibarət Azərbaycan millisi Şərqi Avropa Voleybol Zonal Assosiasiyası (EEVZA) çempionatında mübarizə aparacaq.**




Yarış 2024-cü il yanvarın 3-7-də Litvanın Şaulyay təşkil ediləcək. Millimiz çempionatda 5 oyun keçirəcək. Belə ki, yanvarın 3-də Estoniya, 4-də Latviya, növbəti gün Ukrayna, 6-da Litva, son görüşündə isə Polşa ilə qarşılaşacaq.

# Ən güclü stolüstü tennisçilər

**Kiçik yaşlı yeniyetmə stolüstü tennisçilər arasında ölkə birinciliyi keçirilib.**



"Şüa" idman kompleksində təşkil olunan yarışın yekunlarına görə, qızlar arasında Mehri Aslanzadə birinci yeri tutub. Nailə Nəzirova ikinci, Fərəh Hidayətzadə ilə Sofiya İlyasova üçüncü yerlərdə qərarlaşıblar.

Oğlanların mübarizəsində isə qalib Əliəkbər Mirzəliyev olub. Saleh Hümbətov ikinci, Həzrət Kamilovla Cəfər Almədədli üçüncü yerləri tutblar.

Yarışda Bakı, Sumqayıt, Şabran, Şəki, Şirvan, Salyan, Qax və Qobustandan ümumilikdə 100-ə yaxın idmançı iştirak edib.

# 4 qələbə, 1 məğlubiyyət

**Azərbaycanın qızlardan ibarət U-16 və U-18 yığmaları Türkiyənin İstanbul şəhərində təlim-məşq toplanışı çərçivəsində yekun yoxlama oyunlarını keçiriblər.**



Türkiyəli mütəxəssis Evren Alkayanın rəhbərlik etdiyi millilər keçirdikləri son beş yoxlama matçının 4-də qələbə qazanıb, 1-də məğlub olublar.

Bunun la da, komandalar İstanbul toplanışında ümumilikdə keçirdikləri 14 görüşün 13-nü qələbə ilə başa vurub, hazırlıq prosesini yekunlaşdırıblar.

*Leyla SABİRQIZI*
*XQ*

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Yevlax Yeni ili şənliklə qarşılayır

**Yevlax şəhərindəki Heydər Əliyev Parkında 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə bayram konserti keçirilib.**



Minlərlə sakinin iştirakı ilə keçən konsertdə əsl bayram ab-havası yaşanıb. Bayram tədbirində ümummilli lider Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi təsis edilməsindən, Ulu öndərin dünya azərbaycanlılarının həmrəyliyinə verdiyi önəmdən bəhs edilib.

Bildirilib ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu şanlı Qələbə qazandı. Bu il sentyabr ayının 19–20-də həyata keçirilən birgünlük antiterror tədbiri ilə Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə işğaldan azad edildi. Bununla da Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyü tam təmin olundu. Artıq dünya azərbaycanlıları öz həmrəyliyini daha qürurla, daha şövqlə, qalib xalqın qalib nümayəndəsi kimi qeyd edirlər.

Respublikanın populyar incəsənət ustalarının bir-birindən maraqlı ifaları sakinlər tərəfindən böyük çoşqu ilə qarşılanıb. Konsert möhtəşəm atəşfəşanlıqla başa çatıb.

*XQ*

# "Hədis" – "Ən yaxşı animasiya filmi"

***"Hədis" qısametrajlı animasiya filmi Türkiyədə keçirilən 11-ci Beynəlxalq İpək Yolu Film Festivalında "Ən yaxşı animasiya filmi" mükafatını qazanıb.***

Qeyd edək ki, "Hədis" qısametrajlı animasiya filmi 2022-ci il sentyabrın 21-də İranda etiraz aksiyaları zamanı təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş 22 yaşlı Azərbaycan türkü Hədis Nəcəfiyə həsr olunub. Eyni zamanda, İranda gender, etnik və mədəni ayrı-seçkiliklə mübarizə aparanlara ithaf olunub.

"ANİMAFİLM Studio"nun istehsal etdiyi "Hədis" filmi Şimali Kaliforniya Azərbaycan Mədəniyyəti Mərkəzinin maliyyə və ideya dəstəyilə çəkilib. Azərbaycan Animasiya Assosiasiyası, "Əkinçi" platforması və "Skwigly" onlayn animasiya jurnalı filmə media dəstəyi verib.

Filmin premyerası dünyanın ən böyük animasiya festivalı olan "Annecy" Beynəlxalq Animasiya Filmləri Festivalında keçirilib.

Ekran əsərinin rejissoru Nəzrin Ağamalıyeva, prodüseri Rəşid Ağamalıyev, ssenari müəllifləri İsmayıl İman və Nəzrin Ağamalıyeva, məsləhətçisi



Məsud Pənahidir. Filmin partiturasında Sevda Ələkbərzadənin musiqisi səslənir.

*N.AYTƏN*
*XQ*

## Hava



# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dekabrın 26-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir yağacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 4-7°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 10-15° isti, dağlarda gecə 5-10°, yüksək dağlıq ərazilərdə 12-17°, gündüz 0-5° şaxta olacaq.

*Q.QASIMOV*
*XQ*

## Sağlamlıq

# Yumurta – ye, toxta!

***Endokrinoloq Valeriya Antonova yumurtanın faydalarından danışıb. Bildirib ki, yumurta A, D, E və B qrupu vitaminlərlə zəngindir. Yumurtanın sarısında olan A vitamini hüceyrələrin inkişafına kömək edir, sümüyə, gözə faydası çoxdur. Görməni yaxşılaşdırır və diş sağlamlığı üçün çox xeyirlidir. Tənəffüs və həzm sistemini infeksiyalardan qoruyur.***

D vitamini isə insan bədənində kalsiumun mənimsənilməsinə kömək edir.

E vitamini bədəni zərərli maddələrə qarşı bir qalxan kimi qoruyur.

B qrupu vitaminlər bəzi qida maddələrinin bədəndə enerjiyə çevrilməsinə



kömək edir.

Ayrıca yumurtada olan kolin beyin funksiyalarının yerinə yetirilməsində əhəmiyyətli rol oynayır.

Yağlılıq tərkibi zəif olan yumurta dəmir və sink kimi bədən üçün çox lazımlı olan minerallarla da zəngindir.

Yumurtanın ağında yağ və xolesterol yoxdur. Onu daha çox qaynadılmış halda yemək məsləhətdir. Çünki yağda bişirilən yumurtanın B vitamini dəyəri azalır.

*Z.HÜSEYNLİ*
*XQ*

## Qalaktika

# Günəşə bənzər 2 ulduz

**Beynəlxalq alimlər qrupu Günəşə bənzər ulduzları olan iki yeni planet sistemi kəşf ediblər. Bu sistemlər TOI-1736 və TOI-2141 adlandırılıb. TOI-2141 planet sistemi bizdən 250 işıq ili məsafəsində yerləşən ulduzun ətrafında fırlanır. O, Günəşlə eyni ölçüdədir, lakin bir qədər yaşlıdır.**



Bundan əlavə, Günəşdən kimyəvi tərkibinə görə də fərqlənir. Məlum olub ki, Günəş TOI-2141-dən bir qədər ağır elementlərə malikdir. Ulduzun ətrafındakı orbitdə TOI-2141b adlı planet aşkar edilib. Bu planet ulduzun ətrafında hər 18,26 gündə bir dövr edir. Onun səthindəki temperatur, təxminən, 450 dərəcə Selsidir. Sistemdə hələlik başqa planetlər aşkar edilməyib, lakin elm adamları bunu istisna etmirlər.

İkinci sistem bizdən 290 işıq ili uzaqlıqda yerləşən TOI-1736 ulduzunun ətrafında formalaşıb. O, xüsusilə temperatur və yaş baxımından Günəşə daha çox bənzəyir və ondan cəmi 15 faiz böyükdür. Bu sistemdə indiyədək iki planet kəşf edilib.

*PÜNHAN*
*XQ*

# 11–40 yaşlılar qızılcaya daha həssasdırlar

***Səhiyyə Nazirliyinin qızılcaya həssas əhali qruplarının vaksinasiyasına dair məlumatında bildirilir ki, 10 yaşa qədər uşaqlarla yanaşı, 10 yaşından yuxarı uşaqlar və böyüklər arasında da yoluxma halları baş verir.***

Açıqlamada qeyd edilir ki, yoluxma halları, əsasən, qızılca infeksiyasına qarşı həssas, yəni, heç vaxt bu xəstəliyi keçirməyən və ya qızılcaya qarşı vaksinasiya olunmayan 40 yaşa qədər şəxslər arasında müşahidə edilir. Əhalinin sağlamlığının qorunması və yoluxmaların qarşısının alınması üçün vaxtında qızılcaya qarşı vaksinasiyadan kənarda qalan 11- 40 yaşlı əhali arasında vaksinasiya tədbirlərinin aparılması üçün müvafiq vaksin preparatları ölkəyə idxal edilib. Hazırda immunizasiya tədbirlərinin təşkili üzrə işlər görülür.

Nazirlik 10 yaşa qədər uşaqların ölkədə qüvvədə olan profilaktik peyvəndlər təqviminə əsasən və qızılcaya yoluxmalara görə hazırda həssas hesab edilən 11- 40 yaşlı şəxslərin qızılca infeksiyasına qarşı peyvənd olunmasını vacib hesab edir: "Qeyd olunan əhali qruplarının vaksinasiyası üçün yaşayış yerləri üzrə uşaq və yaşlı qrupa aid əhaliyə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edilməsi tövsiyə olunur. 11-40 yaşı əhali qruplarının yoluxmadan müdafiəsi üçün 1 dəfə vaksinasiya olunması kifayət edir".

*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlaq İttifaqı Təşkilatı universitetin beynəlxalq münasibətlər kafedrasının dosenti Anar Bağırova atası

**KAMRAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3424
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00